www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 may 2017-ci il Cümə № 112 (6726) Qiyməti 60 qəpik

**Xəbər**

## Ömürlük həbs cəzası alan "OMON"çu komandir aclıq aksiyasına başlayır

yazısı səh.3-də

**Gündəm**

### Xocalı aeroportu ətrafında məsələ böyüyür - XİN düşmənə xəbərdarlıq etdi



Azərbaycan beynəlxalq təşkilatlara da çağırış etdi; **hərbi ekspert:** "Oradan qalxan istənilən təyyarə və ya vertolyot məhv edilməlidir..."

yazısı səh.9-da

### "Yanan bina işi": həbsdəkilər əsl günahkarların tapılmasını tələb edir

yazısı səh.3-də

### 25 illik BMT üzvlüyü bizə nə verdi, bizdən nə aldı? - iki rəy

yazısı səh.4-də

### Şeyxülislamın Ramazan qadağaları

yazısı səh.12-də

### Moskvanın "İbrahimbəyov-2" ssenarisi

yazısı səh.6-da

### Eldar Mahmudovla bankir qudası milyonlarını ofşorda saxlayır

yazısı səh.11-də

### OPEK hasilatın daha 9 ay azaldılmasına qərar verdi

yazısı səh.6-da

### "Şərq bazarı"nda "yarpaq tökümü" - mağazalar bağlanır

yazısı səh.12-də

### Azərbaycanlılar ətyeyən deyilmiş - ilginc statistika

yazısı səh.13-də

### Bir ailənin normal yaşaması üçün ayda 1500-2000 manat lazımdır

yazısı səh.13-də

### Rail Rzayevi qətlindən 1 həftə əvvəl Hərbi Prokurorluqda dindiriblər - yeni gəlişmə

yazısı səh.5-də

# ABŞ AZƏRBAYCANDAN ÇƏKİLİR, RUSİYA TƏŞKİLATLARI İSƏ BAKIYA YERLƏŞİR

Amerika institutlarının ölkəmizdə boş qalan yerlərini müxtəlif təmayüllü qurumlar tutmağa çalışır; Rusiyanın siyasi təşkilatları Bakıda ofis acımaq üçün fəaliyyətə keçiblər




yazısı səh.5-də

## "İslam NATO"su ilə NATO arasında - Bakı üçün kritik dönəm

Azərbaycanın əsas problemi olan Qarabağ məsələsinin həlli üçün unikal şans pəncərəsi açıla bilər, əgər...

yazısı səh.8-də



*VİP sədri Əli Əliyev:*

### "Qarşıdan müxalifət qüvvələri üçün unikal dövr gəlir"

yazısı səh.4-də



### Elçibəyin indi vitse-spiker olan Valeh Ələsgərova vəzifə verməməsinin sirləri

yazısı səh.10-da



*Şirməmməd Hüseynov:*

### "Rəsulzadə bayrağımızı parlamentin üstünə, İlham Əliyev də 162 metr yüksəkliyə qaldırdı"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017



## Putin prezident İlham Əliyevi təbrik etdi

**Rusiya Federasiyasının prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Virtualaz.org-un məlumatına görə, məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu!**

Xalqınızın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycanın iqtisadi, sosial, elmi-texniki və digər sahələrdə qazandığı uğurlar hamıya məlumdur. Sizin ölkəniz dünya arenasında haqlı olaraq nüfuz qazanıb, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır.

Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq ruhunda dinamik inkişaf edir. Bütün səviyyələrdə məzmunlu siyasi dialoq, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq tənzimlənib.

Əminəm ki, birgə səylərimizlə ikitərəfli əməkdaşlıq əlaqələri kompleksini bundan sonra da inkişaf etdirəcəyik. Bu, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məcrasında ölkələrimizin dost xalqlarının köklü mənafelərinə uyğun olaraq cərəyan edir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına sülh və əmin-amanlıq arzu edirəm".

## Türkiyə ordusunun 3 əsgəri şəhid olub

**Türkiyə ordusunun 3 əsgəri və 1 qoruyucu şəhid olub. APA-nın xəbərinə görə, bu barədə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Məlumatda bildirilir ki, PKK terrorçuları Van rayonunun Çaldıran qəsəbəsinin Gülizar məhəlləsi yaxınlığında yolu bağlayıb, 3 yük maşınını yandırması ilə əlaqədar bölgədə əməliyyat-axtarış tədbirləri keçirilib.**

Təhlükəsizlik qüvvələri ilə terrorçular arasında baş verən atışma zamanı 3 əsgər və bir qoruyucu şəhid olub, 4 əsgər yaralanıb.

## Baş Prokurorluq "Hürriyyət" qəzetinə xəbərdarlıq edib

**Azərbaycan Respublikası Baş Prokurorluğunda aparılmış araşdırmalarla müəyyən edilib ki, "Hürriyyət" qəzetində və həmin dövri mətbu nəşrin internet saytında dərc edilmiş müxtəlif başlıqlı məqalələrdə dövlət sirri haqqında, eləcə də cinayət və cinayət-prosessual qanunvericiliyin müddəalarının tələbləri kobud surətdə pozulmaqla Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura biləcək informasiyalar ictimailəşdirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, qeyd edilənlərlə əlaqədar qəzetin baş redaktoru Vüqar Məmmədov Baş Prokurorluğa dəvət edilərək "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 10-cu maddəsinə əsasən kütləvi informasiya vasitələrindən sui-istifadə olunmasına yol verilməməzliyi diqqətinə çatdırılmaqla, gələcəkdə qanunvericiliyin tələblərinə zidd məlumatların yayılmasının davam etdiriləcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Müdafiə naziri Rusiyaya getdi

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Rusiyaya gedib. Müdafiə Nazirliyinin saytı bildirir ki, Z.Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edəcək.**

Toplantı mayın 26-da Moskva şəhərində keçiriləcək.





## Müdafiə Nazirliyi ermənilərin növbəti təxribatını yalanladı

**Müdafiə Nazirliyindən (MN) Ermənistan mətbuatının növbəti dəfə guya Azərbaycan tərəfinin monitorinq zamanı ATƏT-in missiyasını ön mövqelərə çıxarmaması barədə xəbərə münasibət bildirilib.**

MN-in mətbuat xidmətindən verilən məlumatda deyilir ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 25-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinqin insidentsiz başa çatması beynəlxalq missiya tərəfindən rəsmi surətdə təsdiqlənib.

Ermənistan tərəfi də monitorinqin qrafikə uyğun keçirilməsi və atəşkəs rejiminin pozulmaması barədə xəbər yayıb. Lakin həmin xəbərdə Azərbaycan tərəfinin guya ATƏT-in missiyasını təmas xəttinə çıxarmadığı da bildirilib.

"Bildiririk ki, mart ayının 1-də Ağdam rayonunun Çəmənli kəndi istiqamətində keçirilmiş monitorinqdən sonra da erməni tərəfi bu cür təxribat xarakterli məlumat yaymışdı.

Bir daha bildiririk ki, monitorinqin keçirilməsi mexanizminə uyğun olaraq, beynəlxalq müşahidəçilər əvvəl rabitə, sonra isə vizual əlaqə yaradaraq nə vaxt, hansı nöqtədə olmalarını, eləcə də digər detalları özləri müəyyən edir, monitorinqin baş tutması və sona çatmasını orada iştirak edən səhra köməkçiləri təsdiq edirlər. Əgər münaqişə tərəflərindən biri monitorinqin keçirilməsinə istənilən bir formada problem yaradarsa, bu barədə elə ilk məlumat verən həmin müşahidəçilər olacaq.

Ermənistan mütəmadi olaraq bu kimi böhtan xarakterli yalan məlumatlar yaymaqla beynəlxalq qurumları sistematik şəkildə şantaj etmək, onların fəaliyyətinə kölgə salmaq və etimadına xələl gətirmək məqsədini güdür", - deyə məlumatda vurğulanır.



## Bu gün Bakıda 25 dərəcə isti olacaq

**Mayın 26-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun yarımadada gecə 14-16° isti, gündüz 20-25° isti, Bakıda gecə 14-16° isti, gündüz 23-25° isti olacağı gözlənilir.

Azərbaycanın əksər rayonlarında da havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 11-16° isti, gündüz 23-28° isti, dağlarda gecə 4-9° isti, gündüz 12-17° isti olacağı gözlənilir.



## Rusiya daha bir MDB respublikasına "İsgəndər" raketləri yerləşdirdi

**Rusiya Tacikistandakı 201-ci hərbi bazasına əlavə hərbi qüvvələr yerləşdirib. Virtualaz.org xəbər verir ki, bu barədə Rusiyanın Mərkəz hərbi dairəsinin komandanı, general-polkovnik Vladimir Zarudnitski jurnalistlərə bildirib. Onun sözlərinə görə, hərbi bazaya "Uraqan" reaktiv yaylım atəşi sistemləri ilə təchiz edilmiş diviziyon yerləşdirilib. Eyni zamanda bu postsovet respublikasına ilk dəfə "İsgəndər-M" operativ-taktiki raketləri çatdırılıb.**

Bu raket sistemləri "Düşənbə-Antiterror-2017" hərbi təlimlərində iştirak edəcək. Manevrlər mayın 30-da başlayacaq, Rusiya raketçiləri dağlarda yerləşən şərti hədəflərə atəş açacaqlar.

Generalın bildirdiyinə görə, habelə Düşənbə ətrafındakı Ayni aerodromuna Su-24M bombardmançıları yerləşdirilib. Bu aviaqruplaşma da birgə təlimlərə qatılacaq.

## Güzəştli mənzil əldə etmək üçün müraciətlərin qeydiyyatı başlayır

**Mayın 30-dan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququna malik vətəndaşların müraciətlərinin qeydiyyatına başlanılacaq.**

Güzəştli mənzil almaq hüququna malik şəxslərin kateqoriyaları və hər bir kateqoriya üzrə təqdim edilməli sənədlərin siyahısı ilə www.mida.gov.az və ya www.mida.az "internet-saytları"nın ana səhifəsində yerləşən "GÜZƏŞTLİ MƏNZİL SİSTEMİ" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Cəlilabad sakinləri 24 min saxta manatla tutuldular

**Azərbaycanda saxta pulları dövriyyəyə buraxan şəxslər tutulub.**

APA xəbər verir ki, Masallı rayonu, Qəriblər kəndindəki mağazalardan birinə gələn naməlum şəxslər oradan ərzaq məhsulları alaraq 1 ədəd saxta əsginaz veriblər. Polisə daxil olan fakt ətrafında keçirilən əməliyyat tədbirləri nəticəsində həmin şəxslərin Cəlilabad rayon sakinləri - Ramal Əbülhəsənov və Şahəddin Musayev olmaları müəyyən edilib və hər iki şəxs saxlanılıb.

R.Əbülhəsənova məxsus avtomobilə baxış zamanı oradan 5 ədəd 100 manatlıq saxta əsginaz götürülüb.

Cəlilabad Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində isə rayonun Şıxlar kənd sakini Səfa Qaraşovdan 240 ədəd 100 manatlıq saxta əsginaz götürülüb.

Faktlarla əlaqədar Cinayət Məcəlləsinin 204-cü (saxta pul və qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma) maddəsi ilə cinayət işi başlanılıb.

## Ordu günü və Ramazanda neçə gün iş olmayacaq?

**Azərbaycanda iyun ayında dövlət səviyyəsində qeyd edilən iki bayramın təqvimdə eyni günə təsadüf etməsi ilə əlaqədar iş günlərində dəyişiklik edilib.**

Nazirlər Kabinetindən «Trend»in sorğusuna cavab olaraq bildirilib ki, iyunun 26-da və 27-də ölkədə Ramazan bayramı qeyd ediləcək və həmin günlər qeyri-iş günləri hesab ediləcək.

Lakin iyunun 26-sı həm də Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü olduğundan və həmin gün də qeyri-iş günü hesab edildiyindən təqvim üzrə iş günlərində dəyişiklik edilərək qeyri-iş günlərinin sayı artırılıb. Ramazan bayramının bir gününün Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq, iyunun 28-i də qeyri-iş günü olacaq. Beləliklə, iyunun 26, 27 və 28-i ölkədə qeyri-iş günü olacaq.

Həftələrarası istirahət günləri iş günləri hesab olunmayan bayram günləri ilə ardıcıl gəldiyindən ölkədə 5 günlük iş həftəsi ilə işləyənlər üçün 5 gün, 6 günlük iş həftəsi ilə işləyənlər üçün isə 4 gün qeyri-iş günü olacaq.

Qeyd edək ki, 15 iyun - Milli Qurtuluş Günü ilə əlaqədar həmin gün də iş günü olmayacaq.

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

**Xüsusi Təyinatlı Polis Dəstəsinin (“OMON”) Qazax bölgəsi üzrə sabiq komandiri, Qarabağ müharibəsi əlili, 21 ildir Qobustan həbsxanasında ömürlük məhbus həyatı yaşayan Elçin Əmiraslanov mayın 30-dan etibarən aclıq aksiyasına başlayacaq. Dustaq bu barədə Qarabağ Azadlıq Təşkilatının sədri, Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Akif Nağıya məktub göndərib.**

# Ömürlük həbs cəzası alan “OMON”çu komandir aclıq aksiyasına başlayır



**Akif Nağı:** “Elçin Azərbaycan uğrunda həyatını qoyub, sağlamlığını itirib, ailəsi dağılıb”
**Nizami Şahmuradov:** “O elə bir insandır ki, fikrindən dönən deyil”
**Mirvari Qəhrəmanlı:** “Ramazan bayramında onu azad etsələr, bu, ən böyük savab olar”

Musavat.com-un xəbərinə görə, o, eyni müraciətlə həmçinin ombudsman Elmira Süleymanovaya da məlumat verib.

Elçin Əmiraslanov Qarabağ müharibəsində aldığı yaraların onu çox incitdiyini, sudurğa, epilepsiya, ürəktutmaları, kəllə-beyin ağrılarından əziyyət çəkdiyini, dəfələrlə müraciət etməsinə baxmayaraq, müalicə müəssisəsinə göndərilmədiyini, ona heç bir tibbi yardımın göstərilmədiyini bildirib. O, həmçinin bildirir ki, 21 ildən çoxdur həbsdədir, dəfələrlə məhkəmələrə, o cümlədən Ali Məhkəməyə müraciət edib, lakin onun cəzasının dəyişdirilməsi ilə bağlı məsələyə baxmaq istəməyiblər, indi Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək məcburiyyətində qalıb. Elçin Əmiraslanov dövlətə xidmət etməyə, Qarabağ döyüşlərində yenidən iştirak etməyə hazır olduğunu bildirir, lakin bu haqsızlıqlara dözməyərək, son vasitə kimi aclıq aksiyasına başlamaq istədiyini qeyd edir.

Sabiq komandirə qarşı göstərilən münasibət yenidən gündəmə gəlib. Onunla bərabər həbsdə olan daha iki ömürlük “OMON”çu məhbus Səfa Poladov və Arif Kazımovdan başqa məlum hadisələr zamanı həbs edilən digər şəxslərin hamısının hazırda azadlıqda olması və yalnız bu üç döyüşçünün həbsdə saxlanılması suallar yaradır.

**A.Nağı “Yeni Müsavat”a açıqlamasında E.Əmiraslanovun torpaqlarımız, dövlətçiliyimiz uğrunda çəkdiyi əziyyətlərin çox olmasına baxmayaraq, ona qarşı olan münasibətdən təəssüfləndiyini dilə gətirdi:** “Bu insan xidmətləri ilə bağlı danışmağı xoşlamır. Onunla arada telefonla danışıram. Şikayətçi adam da deyil. Biz ömürlük məhbusları müdafiə edirik. Onların içərisində müxtəlif şəxslər var. Bəzilərinin barələrindəki qərarlar haqsız çıxarılıb. Bu insanların əksəriyyəti 20 ildən artıq cəzalarını çəkiblər, o cümlədən Elçin Əmiraslanov və digər iki ”OMON"çu. Onlara 10-15 il cəza verilə bilərdi, amma ömürlük cəza vermək doğrudan çox ağırdır. Bu insanların sanki üzərindən birdəfəlik xətt çəkmək istəyirlər. Qərb bölgəsinin camaatı yaxşı bilir ki, Elçin Azərbaycan uğrunda həyatını qoyub, sağlamlığını itirib, ailəsi dağılıb. Bu yolda o hər şeyini itirib. Bu gün onunla danışanda yenə də soruşur ki, Qarabağda nə vaxt müharibə başlayacaq, bizə nə zaman imkan verəcəklər ki, gedək döyüşək: 21 ildir həbsdə olmasına baxmayaraq, yenə də millət və dövlətə sevgisi azalmır. Əgər o, aclıq aksiyası yolunu seçirsə, demək, çox ciddi səbəbləri var. Onu müalicəyə göndərməlidirlər. Səhhətində ciddi problemlər var. Belə bir insana bu qədər zülm etmək olmaz. Məcburiyyət qarşısında bu addımı atır. Həyatını təhlükə altında qoyur. O dediyini edən şəxsdir, deyibsə, aksiyaya başlayacaq və ölənə qədər davam etdirmək iqtidarındadır. Sizin qəzetiniz vasitəsilə Ədliyyə Nazirliyinin Tibb İdarəsinin rəisinə müraciət edirəm ki, bu işi nəzarətə götürsünlər, Penitensiar Xidmətin rəhbərliyi də bu məsələni diqqətdə saxlamalıdır. İki gün öncə Elçin Əmiraslanovun qızı da ombudsmana, Ədliyyə Nazirliyinə və Penitensiar Xidmətə müraciət etdi. Xahiş etdi ki, heç olmasa onun müalicəsi istiqamətində addımlar atılsın. Müvafiq orqanlar addım atmalıdırlar ki, o, aclıq aksiyası keçirməsin. Biz də bu istiqamətdə addımlarımızı atırıq. İstəmirik ki, aclıq aksiyasına başlasın. Bu, ölümə bərabər addımdır".

**Respublika “OMON”un əfsanəvi komandiri Nizami Şahmuradov 21 il həbsdə yatan, ermənilərə qan udduran bir şəxsə qarşı bu münasibəti anlamadıqlarını qeyd etdi:** “Səhv olubsa da, görün neçə ildir üzərindən keçib. Məsələni bu illərdə həll etmək olardı. Dəfələrlə biz və özü prezidentə və digər aidiyyəti qurumlara müraciət etmişik. Elçinin məhkəməsi keçirilməmiş, ona artıq ömürlük iş vermişdilər. Halbuki məhkəmə keçirilməli və o bu qədər ağır cəzaya göndərilməməli idi. Digər məhkəmələr də əvvəlki qərarları qüvvədə saxladılar. Nəticədə ümidsizlik yarandı. O elə bir insandır ki, fikrindən dönən deyil. İndi, sadəcə, haqqını tələb edir. Bəlkə də kimlərsə imkan vermirlər ki, Elçin və digər iki şəxs azad edilsin. Elçinin elə döyüş əməliyyatları olub ki, indiyə qədər sirr kimi qalır. Amma dövlət bunu bilir. Zamanında nəsə olubsa, onun heyfini belə çıxmağın nə mənası var? Övladları kirayələrdə qalırlar. Bu insan azadlığa çıxsa belə, harada qalacaq? Vaxtilə olan evi, əşyaları satılıb. Zamanında Elçin ermənilərdən üç yüksəkliyi bir gündə ələ keçirib. Bu qədər ədalətsizlik olmaz. Bunları onu həbsdə saxlayanlar da yaxşı bilir. Sonuncu dəfə həbsdən ”OMON"çu kimi çıxanlardan biri də mən olmuşam. Məni əfv ediblər çıxmışam, bəs onu niyə çürüdürlər? Onun başının yarısı plastmasdır".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı həbsxanalara baş çəkmək səlahiyyətinin onlara verilmədiyini bildirdi:** “Onların yaxınları mətbuat konfransı etsələr, iştirak edə bilərik. Amma belə konfranslar keçirmək çətindir. Çünki ora gələn yoxdur. Hazırda bir qrup var ki, ömürlük siyasi məhbusların işləri ilə bağlı fəaliyyət göstərir. Bu iş bir mərkəzdən koordinasiya olunmalıdır. Müraciətlər ardıcıl şəkildə olmalıdır. Belə bir proses başladılarsa, iştirak etməyə hazıram. ”OMON"çuların keçmişdəki əziyyətləri bir anda unuduldu, onların hamısı həbs edildi. Təəssüflər olsun ki, cəmiyyət də onların etdiyini unudub. Artıq üç “OMON”çu ümidlərini tamam itiriblər, həbsxanada öləcəklərini düşünürlər. Onlar azad olunsalar da, heç bir təhlükə deyillər, cəzalarını da artıqlaması ilə çəkiblər. Görün Elçin nə qədər ağır vəziyyətə çatıb ki, illərlə çətin şəraitdə yaşamasına baxmayaraq, indi ölümünü tezləşdirmək, ömürlük cəzasını ölümlə gerçəkləşdirmək istəyir. Düşünürəm ki, qarşıdan gələn Ramazan bayramında onlar azad edilsələr, bu ən böyük savab olar. Belə davam edərsə, onların çox yaşamayacaqları açıq görünür".

❑ **Cavanşir ABBASLI**



# “Yanan bina işi”: həbsdəkilər əsl günahkarların tapılmasını tələb edir

## Zərərçəkən “Qardaş, tapın görək bu binanı kim yandırdı?” deyir, vəkillər bəraət istəyir

**Bakı Apelyasiya Məhkəməsində Binəqədi rayonunda yaşayış binasında baş verən yanğınla bağlı təqsirləndirilən şəxslərin şikayəti üzrə məhkəmə prosesi keçirilib. Hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə Akif Əlibəyov və Nizami Orucovun vəkilləri çıxış edərək müdafiə etdikləri şəxslərin barələrində bəraət hökmünün çıxarılmasını istəyiblər. Qəzənfər Novruzovun vəkili isə onun şərti olaraq azadlıqdan məhrum edilməsini istəyib. Digər təqsirləndirilən şəxslərin vəkilləri çıxışa hazır olmadıqlarını deyiblər. Proses iyunun 7-də davam edəcək.**

15 nəfərin ölümünə səbəb olmuş yanğınla bağlı 2 ildən çoxdur gedən mübahisələr də bitmək bilmir. Bu hadisə ilə bağlı araşdırmalardan nə yanğından zərərçəkənlər razı qalıb, nə də cinayət məsuliyyətinə cəlb olunanlar. Məsələn, hadisədə bacı-qardaşını itirmiş zərərçəkən Feyzulla Bağırov bu il yanvarın 17-də məhkəmədə deyib ki, özünü də, əzizlərinin ruhunu da təhqir olunmuş sayır. Çünki bu hadisə doğru-düzgün araşdırılmadı, həqiqət ortaya çıxarılmadı. O, işin yenidən araşdırılması üçün istintaqa qaytarılmasını istəyib. O, məhkəmədə deyib:

“Özümü, əzizlərimin ruhunu təhqir olunmuş sayıram. 7-8 nəfəri yığıblar bura ki, bunlar günahkardılar, nə bilim faşistdilər, güllələnməlidilər... Qardaş, tapın görək bu binanı kim yandırdı? O yanğınla bağlı müəyyən versiyalar var, onların hamısı araşdırılmalı idi. Niyə araşdırılmadı?”

**Təqsirləndirilən şəxslərdən binanı üzləmiş “Global Construction” və həmin üzlükləri istehsal edən “Global Stone” şirkətlərinin təsisçisi Miryusif Mahmudovun vəkili İlhamə Həsənova da müdafiə çıxışında iddia edib ki, bina qəsdən yandırılıb. Vəkil deyir ki, yanğından bir müddət öncə MTN əməkdaşları Miryusif Mahmudovdan 300 min pul tələb edib:** “İstintaq belə nəticəyə gəlib ki, binaya bitişik tikilinin üstündə zibil olub, kiminsə ora təsadüfən atdığı siqaret kötüyü zibili tüstüləndirib, bu tüstülənmə də binanın poliuretan üzlüyünə keçib və bina yanıb. Bu fərziyyə məhkəmədə təsdiqini tapmadı. Bununla da ittiham tərəfi ”kim yandırdı, niyə yandırdı, necə yandırdı" məsələsini bir tərəfə qoyub araşdırmadı. Hadisədən bir müddət əvvəl MTN əməkdaşlarının Miryusif Mahmudovdan 300 min tələb etməsi, bu rüşvəti tam almayanda şirkətin üzlədiyi, Azərbaycan Veteranlar Təşkilatının yerləşdiyi binada mayın 16-da yanğın törətməyə cəhd göstərilməsi, mayın 19-da Azadlıq prospektindəki yanğın və bu yanğın başlayandan cəmi 40 dəqiqə sonra MTN əməkdaşlarının Miryusif Mahmudovun ofisinə basqın edib, onu həbs eləməsi, nəhayət, mayın 24-də Gəncədə Dədə Qorqud 2 ünvanındakı binada əllərində kerosin kanistri olan 2 nəfərin yaxalanması çox şeydən xəbər verir".

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Miryusif Mahmudov 8 il azadlıqdan məhrum edilib. Digər təqsirləndirilənlər - Uğur Bəşirov 5 il, Ələkbər Əsgərov, Qəzənfər Novruzov və Ədalət Rəcəbovun hər biri 4 il, Nizami Orucov isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunublar.

Xatırladaq ki, yanğınla bağlı həbs edilənlər Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunurlar. Bundan başqa, cinayət işinə “Dərnəgül Boru” Zavodunun laboratoriya rəhbəri Ağacavad Məmmədov və Səhiyyə Nazirliyi yanında Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov da cəlb edilib. 2015-ci il mayın 19-da paytaxtın Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında yanğın nəticəsində 15 nəfər ölüb, 50-dən çox şəxs xəsarət alıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 26 (6726) 26 may 2017

**Vətəndaş və İnkişaf Partiyası mayın 28-də qurultay keçirəcək. Qurultayla və digər bəzi məsələlərlə bağlı "Yeni Müsavat"ın suallarını partiyanın sədri Əli Əliyev cavablandırıb.**

# "Qarşıdan müxalifət qüvvələri üçün unikal dövr gəlir"

## Qurultaya hazırlaşın VİP sədri Əli Əliyev: "Bir neçə miqyaslı hadisə bizim şanslarımızı yüksəldir"



***- Əli bəy, partiyanızın qurultayı harada keçiriləcək? Nədən məhz Azərbaycanda Xalq Cümhuriyyətinin yarandığı günün 99-cu ildönümünə qurultay təyin etmisiniz?***

- Qurultay Beynəlxalq Mətbuat Mərkəzində saat 10.30-da öz işinə başlayacaq.

Bu günün seçilməsi təsadüfi deyil. May ayının 28-i dünyada yaşayan 50 milyon azərbaycanlı üçün mühüm gündür. Azərbaycan Respublikasının təsisat günü bizim dövlətçilik tariximizin yeni mərhələsidir. Rəsulzadə, Topçubaşov, Xoyski və digərləri Azərbaycanın fədailərinin o zamankı nəslinin öndərləridir. Onları yaşatmaq və əziz tutmaq hər birimizin vəzifəsi, boyun borcumuzdur. Qurultayın vaxtı məhz o günə sayğıdan yaranıb. Bizim partiyanın təsis günü də 2006-cı il 28 mayda olmuşdu.

***- Partiyanın sədri postuna namizədlər varmı? Sizdə bir nəfərin neçə dəfə sədr olmağına məhdudiyyət varmı?***

- Sədrliklə bağlı nizamnamədə hər hansı məhdudiyyət yoxdur. Heç bir senz nəzərdə tutulmayıb. Qurultayın gedişində də istənilən partiya üzvü namizədliyini irəli sürə, iddiasını əsaslandıra bilər. Mən namizədliyimi irəli sürəcəyəm. Hələlik alternativ namizəd yoxdur. Görünür, belə ağır mövcudluq şərtlərində məsuliyyətin altına girməyə ehtiyat edirlər. Ölkədə iqtidar tərəfindən diktə olunan amansız siyasi şəraitdə müxalifət partiyalarında məhdudiyyətlərin tətbiqi düzgün olmazdı. Partiyalar, xüsusən də açıq və ya gizli şəkildə sistemdə olmayanlar mümkünsüz şərtlərdə yaşayır, mübarizə aparırlar. YAP iqtidarı dövründə şəraitin dəyişəcəyinə inam azdır. Bu səbəbdən partiyalarda senzlərin, məhdudiyyətlərin tətbiqini yanlış hesab edirəm.

***- Dəvətlilər arasında kimlər var, məsələn, vaxtilə rəhbəri olduğunuz AMİP-dən də?***

- Dəvət məsələsində çalışmışıq siyasi, ictimai, mətbuat seqmentlərindən heç kəsi unutmayaq. Bəzi istisnalarla demək olar ki, hamıya dəvət göndərilib. İqtidarı da dəvət etmişik. Həm Prezident Administrasiyasından, həm də YAP-dan dəvət etdiyimiz insanlar var. İqtidardan dəvətlilər baş nazirin müavini Əli Əhmədov, prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, YAP icra katibinin müavini Siyavuş Novruzov, YAP-çı deputat Aydın Mirzəzadə və Tahir Süleymanovdur. Diplomatik korpusun geniş çevrəsinə də dəvət göndərmişik. Adını çəkdiyiniz (AMİP-i nəzərdə tutur - E.S.) təşkilatla heç bir münasibət ola bilməz və dəvət də göndərilməyib.

***- Qurultayınız partiya həyatı, fəaliyyəti və cəmiyyət üçün nəsə bir yenilik təqdim edəcəkmi?***

- Hesab edirəm ki, siyasi şərtlərin indiki durumunda müxalifət adına keçirilən istənilən tədbir təqdirəlayiq sayılmalıdır. Diqqət yetirin, son illərdə neçə partiya geniş, şəffaf qurultay keçirməyə nail ola bilib. Olduqca az təşkilat. Biz qərar qəbul edən zaman məhz ictimai hadisə ola biləcək tədbir keçirmək istəyi ərsəyə gəldi. İstəyirik qurultayın birinci hissəsində açıq müzakirə olsun. Bunu bir fürsət kimi dəyərləndiririk. Lakin nəticənin nə olacağını həmin gün fərq edəcəyik. Öz tərəfimizdən partiya strukturlarına, üzv və tərəfdarlarımıza, ölkə ictimaiyyətinə, beynəlxalq auditoriyaya mesajlarımız olacaq.

Son referendumdan sonra baş verənlər yeni mərhələnin başlanğıcıdır. Dünya, regionumuz və Azərbaycan tamamilə yeni çağırışlarla üzbəüzdür. Hakimiyyət transformasiyaya çalışır. Biz də dəyişməliyik. Qarşıdakı dövrdə müxalifət qüvvələri üçün unikal dövr gəlir. Bir neçə miqyaslı hadisə bizim şanslarımızı yüksəldir. Düzgün addımlar atılacaqsa, ötən əsrdəki nailiyyətləri təkrarlamağımız mümkün ola bilər. Qurultayı partiyamız üçün yeni dövrdə bir şans kimi görürük.

***- VİP-in qurultayında prezidentliyə namizəd də müəyyənləşəcək?***

- Fikrimcə, VİP-də belə olacaq. Eksklüziv olaraq, "Yeni Müsavat"a bu "mətbəx" hazırlığımızı da açıqlayıram. Növbəti prezident seçkiləri ilə bağlı geniş şərhimiz var. Öz namizədimiz müxalifətin geniş spektrli birliyinin baş tutmayacağı halda ehtiyat variant kimi düşünülür.

Bizə görə seçkilər bu il də keçirilə bilər, təqvim üzrə gələn il, hətta 2020-ci ilə qədər ertələnməsini də mümkün sayırıq. Bütün variantlarda müxalifətin geniş koalisiyasına ehtiyac vardır. Lakin bu çevrədə hakimiyyətin gizli adamları yer almamalıdır. Bu günə qədər toplanan təcrübə bizi məcbur edir ki, seçimdə ehtiyatlı olaq. Çünki səhv qərarlar cəmiyyətdə ruh düşkünlüyünə gətirir. Səmimi şəkildə hakimiyyətdən eyni məsafədə duran, maddi və digər asılılıqları olmayan qüvvələrin bir araya gəlməsi zəruridir. İnanıram ki, belə koalisiya həm də hakimiyyətin sıralarına dağıdıcı təsir göstərə bilər. Nə qədər iqtidar zahiri də olsa, monolitliyi saxlayır, bizim uğur haqda düşüncələrimiz xülya olacaq.

***- İddialar var ki, Rusiya bu dəfəki seçkilərdə 2013-cü ildəkindən daha fəal hərəkət edəcək, "İbrahimbəyov ssenarisi"nə oxşar, amma daha güclü ssenarini işə salacaq...***

- Moskva artıq hərəkətə keçib. Kreml hakimiyyətdaxili real rıçaqlarını itirmək istəmir. O zaman da İbrahimbəyov versiyası Milli Şura, "Milyarderlər ittifaqı", iqtidardakı "5-ci kolon" YAP-ın prezidentliyə namizədini dəyişməməsi üçün idi. Həmin layihədə yer alan bütün tərəflər Azərbaycanı 4 il geri sala bildilər. Yenə də "5-ci kolon" gündəlikdədir. Emissarlara baxın-Patruşev, Nazarbayev, Solovyov, Duqin. Bu şəxslərin hər biri Putinin Avrasiya İttifaqı layihəsinin ideya müəllifləridir. Çox güman ki, Kreml sözünü bunlarla çatdırırdı. ÜAK-ın qapadılması da referendumdan sonrakı siyasi transferlərlə bağlıdır. Əminəm ki, bu son deyil. Sözsüz ki, keçmiş imperiya mərkəzi seçki ərəfəsi yenə də bir şeylər düşünür. Rusiyanın hibrid müdaxiləsinə müqavimət təşkil olunmalıdır. Heç bir halda kənar müdaxiləyə qapı açmaq olmaz. Buna görə də milli çıxarlarımızı önəmli sayıb, xarici təcavüzə sinə gərməyi bacarmalıyıq.

❑ **Etibar SEYİDAĞA**

# 25 illik BMT üzvlüyü bizə nə verdi, bizdən nə aldı? - iki rəy

## Hikmət Hacızadə: "Artiq heç kim deyə bilməzdi ki, "Yox millətimin imzası imzalar içində..."

## Zahid Oruc: "BMT qətnamələrini yerinə yetirməyi də Azərbaycan ordusundan gözləmək lazım gələcək"



**Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan Respublikasının BMT-yə üzvlüyünün 25 illiyi ilə əlaqədar tədbirlərdə iştirak etmək üçün Nyu-Yorka gedib. XİN-in mətbuat xidmətindən verilən məlumata görə, səfər əsnasında Elmar Məmmədyarovun BMT-nin rəhbərliyi ilə görüşləri, Azərbaycanın BMT-yə üzvlüyünün 25 illiyi və Respublika Günü ilə əlaqədar Nyu-Yorkda keçiriləcək rəsmi mərasimlərdə iştirakı nəzərdə tutulub.**

Ötən 25 ilə ekspertlərimizin baxışını öyrəndik.

"Bu dövrdə Azərbaycan əsas beynəlxalq təşkilatlara üzv oldu, dünyada tanındı. Artıq heç kim deyə bilməzdi ki, "Yox millətimin imzası imzalar içində..." Azərbaycanın sərhədləri beynəlxalq hüquq tərəfindən təsdiq olundu".

Mərhum prezident Əbülfəz Elçibəy hakimiyyətinin təmsilçilərindən olmuş **politoloq Hikmət Hacızadə** "Yeni Müsavat"a açıqlamasında belə dedi. Həmsöhbətimiz o dövrün çətinliklərindən də bəhs etdi: "Düzdür, o zaman beynəlxalq hüququn da bütün dünyada böhranı başladı və Ermənistanın təcavüzünə biz bəyanatlardan başqa bir kömək görmədik, amma hər halda, dünyada ölkəmizi demokratiyaya can atan bir ölkə kimi tanıtdırdıq. Xarici siyasətdə ən əsas istiqamətlər seçildi: 1. Türkiyə ilə siyasi, iqtisadi və mənəvi birliyə can atmaq; 2. Avrointeqrasiya - gələcəkdə Avropa ailəsinin tamhüquqlu üzvü olmaq; 3. Rusiya ilə bərabərhüquqlu münasibətlər qurmaq. Bütün bu prinsiplər indiyə qədər doğrudur və aktualdır. İnanıram ki, gec-tez ölkəmiz bunlara nail olacaq".

**"BMT-yə üzvlük Azərbaycanın siyasi tanınma faktı olmaqla min illər ərzində müstəqil dövlətə malik olmaq arzumuzun gerçəkləşməsi deməkdir". Bu fikirlər isə deputat Zahid Oruca məxsusdur. Deputat bildirdi ki, SSRİ-nin dağılmasından ən çox ziyan çəkən dövlət kimi beynəlxalq birliyin tamhüquqlu nümayəndəsinə çevrilmək müstəsna əhəmiyyət kəsb edirdi:** "Ötən əsrin sonlarında yaşanan tarixi proseslər və imperiyanın çöküşü hadisəsi 1918-ci ildə əldə olunmuş azadlığımızın davamı sayılsa da, beynəlxalq tanınma bir millətin təhlükəsiz varlığına yalnız kağız üzərində təminatlar verirdi. Doğrudur, Azərbaycan Demokratik Cümhuriyyətinin baniləri Millətlər Liqasına - Parisə gedib çıxana qədər bolşeviklər qapını kəsmişdilər. 90-cı illərdə isə BMT Cənubi Qafqazda üç dövlətə doğum şəhadətnaməsini vaxtında versə də etnik-milli zəmində baş verən hərbi toqquşmalar tamam fərqli siyasi xəritəni meydana çıxara bilərdi. BMT İkinci Dünya müharibəsinin nəticəsində formalaşan güc nisbətinin - Təhlükəsizlik Şurasının 5 daimi üzvünün iradəsinə tabe olmaqla faktiki müstəqil hakim statusunu itirib. Tarixin müxtəlif dönəmlərində humanitar, hətta hərbi cəhətdən toparlanaraq, münaqişələrin həllinə və təhlükəsizliyin təminatına töhfə verən bir qurumu qarşımızda görsək də, hazırkı beynəlxalq münasibətlər sisteminin böhranı, qlobal iqtisadi-siyasi toqquşmalar və dinlərarası ixtilaflar həm də dünya arbitrliyini öz üzərinə götürmüş bir təşkilatın gerçək hüquqi, siyasi imkanlarının məhdudluğu ilə əlaqədardır".

**Deputat bir məqama da xüsusi diqqət çəkdi:** "Əgər Azərbaycan yalnız BMT-nin qətnamələri və tribunası hesabına ədalətin təminatına inansaydı, müstəqilliyimizin qorunması və birinci Qarabağ münaqişəsinin humanitar fəsadlarını aradan qaldırmağa baş vurmasaydı, onda mövcudluğuna çoxdan vida etmişdi. Diplomatik ünsiyyət meydanı olmadan savayı həlledici qərar vermək imkanını çoxdan itirmiş bir qurumda fəaliyyətimizin davam etdirilməsi, əlbəttə, zəruridir. Bununla belə, 25 illik üzvlüyün və Nyu-Yorkda dalğalanan müqəddəs bayrağımızın əbədiliyi yalnız xalqımızın fədakarlığına, şəhidlərimizin misilsiz qəhrəmanlığına bağlıdır. Hər bir dövlət indi fərqli siyasi-hərbi alyanslar hesabına özünü qorumağa çalışır. BMT-nin belə bir sığorta sənədi yoxdur".

**Bununla belə, BMT-yə üzvlüyün mütərəqqi tərəflərindən bəhs edən Z.Oruc qeyd etdi ki, Azərbaycan ötən illər ərzində beynəlxalq münasibətlərin mühüm təmsilçisinə çevrilib:** "İndi ölkəmiz yalnız enerji resursları, yaxud digər iqtisadi məhsulları dünyaya ixrac etmir, eyni zamanda sülh və barış ruhu bizim bölgədən ətraf aləmə yayılmaqda davam edir. Ərazicə kiçik bir məmləkətin siyasi əhəmiyyəti və birləşdiricilik gücü qat-qat böyükdür. Fərqli məkanları yalnız kommunikasiya olaraq deyil, həmçinin mədəni-mənəvi körpü olaraq əlaqləndirməyi bacarmaq mühüm diplomatik uğurdur. Ona görə də BMT qətnamələrini yerinə yetirməyi də Azərbaycan ordusundan gözləmək lazım gələcək".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017




# ABŞ Azərbaycandan çəkilir, Rusiya təşkilatları isə Bakıya yerləşir

## Amerika institutlarının ölkəmizdə boş qalan yerlərini müxtəlif təmayüllü qurumlar tutmağa çalışır; Rusiyanın siyasi təşkilatları Bakıda ofis açmaq üçün fəaliyyətə keçiblər

**ABŞ prezidenti Donald Tramp Dövlət Departamentinin xətti ilə bir sıra inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını azaltmaq və ya tamamilə ləğv etmək barədə seçkiqabağı vədini həyata keçirməyə başlayıb. "Yeni Müsavat" ötən saylarının birində ABŞ Dövlət Departamentinin 15 səhifəlik büdcə sənədində Azərbaycan da daxil olmaqla, bir sıra postsovet ölkələrinə yardımı dayandıracağı barədə geniş məqalə dərc edib.**

Vaşinqtonun rəsmi dairələrinə yaxın "Foreign Policy" nəşri Trampın Dövlət Departamenti xətti ilə USAİD-ə yardımı kəskin azaltmaq niyyətini təsdiq edib (contact.az). APA isə "Massis Post" nəşrinə istinadən Ağ Ev administrasiyasının büdcənin azaldılması ilə bağlı Konqresə tövsiyələrini açıqlayıb. Məlumata görə, tövsiyələrdə qeyd olunur ki, 2018-ci ildə ABŞ-ın Azərbaycana maliyyə yardımı 90 faiz azaldılaraq 1 milyon dollar təşkil etməlidir.

Qeyd edək ki, Ermənistana da maliyyə yardımı 67 faiz azalıb. ABŞ-ın bu ölkəyə maliyyə yardımı 20,4 milyon deyil, 6,7 milyon dollar təşkil edəcək. Sənəd təsdiqlənəcəyi təqdirdə, 100-dək ölkədə fəaliyyət göstərən USAİD regional bürolarının sayını 65% azaldacaq.

Konqresin prezidentin maliyyə ixtisarlarını tam dəstəkləməyəcəyi barədə iddialar olsa da, Ağ Ev administrasiyasının hazırkı israrlı mövqeyi maraq doğurur. Bir neçə milyon nəhəng ABŞ üçün "qəpik-quruş" sayılsa da, diqqət çəkən bu qərarın siyasi tərəfləridir. İllərdi ki, Amerika marağı olan ölkələrdə öz varlığını bu kimi təşkilatlar vasitəsilə göstərib. Təsadüfi deyil ki, bir sıra postsovet ölkələri USAİD də daxil olmaqla, ABŞ təşkilatlarını "rəngli inqilabları hazırlamaqda və maliyyələşdirməkdə" ittiham edib, hətta fəaliyyətlərini dayandırıb.

Yada salaq ki, 2009-cu ildən başlayaraq ABŞ-ın Milli Demokratiya İnstitutu (MDİ) və Beynəlxalq Respublikaçılar İnstitutu kimi demokratiyaya, vətəndaş cəmiyyətinin inkişafına yardım edən təşkilatlar da Azərbaycanda fəaliyyətlərini dayandırıblar. İndi isə belə görünür ki, Azərbaycanda fəaliyyəti dayandırılan ABŞ təşkilatlarının sırasına USAİD də daxil olacaq.

Yeri gəlmişkən, USAİD rəhbərliyi bu xəbərlərin yayılmasından sonra maliyyə azalsa belə, fəaliyyətlərini davam etdirəcəklərini bəyan ediblər. Amma cəmi 1 milyon büdcə ilə Amerika adına Azərbaycanda hansı işlərin görülməsinin mümkünlüyü sual doğurur.

İndi ən narahatedici məsələ ABŞ təşkilatlarının Azərbaycanda boş qalan yerlərini müxtəlif zərərli təmayüllü qurumların tuta bilməsidir. ABŞ-ın indi öz istəyi ilə boşaltdığı yerləri tutmaq üçün fürsət gözləyən kifayət qədər güclər var. Həm İran, həm Rusiya kimi qonşularımızın Azərbaycanla bağlı hansı planlarının olduğunu yada salmaq kifayətdir.

Son aylar Rusiya isteblişmentinə yaxın politoloqların və siyasi institut rəhbərlərinin Bakıya səfərlərinin intensivləşməsi bu baxımdan diqqət çəkir. Doğrudur, bu dəvətlər Azərbaycandakı rus icması, Milli Məclis və ya digər dövlət strukturları səviyyəsində gerçəkləşir. Bu səfərlərdə Azərbaycan iqtidarının əsas məqsədi Qarabağ məsələsində Kremlin mövqelərinə təsir etmək istəyidir. Amma Rusiya hakimiyyətinin Azərbaycandakı maraqları təkcə Qarabağ məsələsi ilə məhdudlaşmır. Xüsusilə Ümumrusiya Azərbaycanlıları Konqresinin qeydiyyatının ləğv edilməsindən sonra "Rusiya Azərbaycandan nə istəyir" sualı daha da aktuallaşıb.

Bu sual ətrafında bir neçə iddialar var. Daha çox o fikir səslənir ki, Rusiya 2013-cü ildə olduğu kimi *("Milyarderlər ittifaqı"nı yada salmaq kifayətdir)* Azərbaycanda gələn il keçiriləcək prezident seçkiləri ərəfəsi rəsmi Bakıya təzyiq rıçaqlarını yenidən işə salıb.

ABŞ-ın Azərbaycanda fəaliyyətin daha da məhdudlaşdırması isə yaxın qonşularımızı şübhəsiz ki, Bakıya yerləşməyə həvəsləndirəcək. İran təşkilatları ilə bağlı məsələ xeyli qəlizdir və bu yazıda ona toxunmayacağıq. Amma Rusiya həm açıq, həm qapalı dairələrdə ortaya qoyduğu mövqeyi ilə "Azərbaycanı daha da yaxınında görmək" istədiyini gizlətmir.

"Yeni Müsavat"a bir mənbədən daxil olan məlumata görə, Rusiyanın siyasi institutları artıq Bakıda ofis açmaq üçün fəaliyyətə keçiblər. Mənbəmiz iddia edir ki, məsələn, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin Bakıda belə bir ofis yaratmaq niyyətindədir. Yada salaq ki, rusiyalı ictimai-siyasi xadim, filosof və politoloq A.Duqin Bakıya Azərbaycan rus icmasının dəvəti ilə mayın 1-də gəlmişdi. A.Duqin Bakıya səfəri zamanı rəsmi şəxslərlə və ictimai təşkilatlarla görüşlər keçirib, Bakı Slavyan Universitetində mühazirə oxuyub, İsmayıllıdakı rus icmasının nümayəndələrinin qonağı olub.

ABŞ prezidentinin kəskin tənqid edilən xarici siyasətinin bir parçası olan yardımların dayandırılmasının maliyyə baxımından Azərbaycana heç bir təsiri ola bilməz. Amma regional-coğrafi yerinə görə həm ətraf ölkələrin, həm Qərbin maraqlarının kəsişdiyi Azərbaycanda balansın bir qüvvənin lehinə dəyişməsi dövlətin maraqları baxımından çox zərərlidir. ABŞ institutları bir-bir ölkəni zor və ya xoş tərk etdiyi halda, başqa qüvvələrin onların yerini tutması gələcəkdə real təhlükə mənbəyinə çevrilə bilər. Çünki Qərbdən fərqli olaraq şimal qonşumuz zora daha çox güvənir...

❑ **"YM"**

# Rail Rzayevi qətlindən 1 həftə əvvəl Hərbi Prokurorluqda dindiriblər - yeni gəlişmə

## Onun qətlindən sonra tutulan köməkçisi azadlıqda qalacaq

**Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ HHMQ) qətlə yetirilən komandanı, general-leytenant Rail Rzayevin köməkçisi Aydın Rəfiyevin cəzasının çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilməsinə dair prokuror tərəfindən verilən protestə baxılıb. Ali Məhkəmədə hakim Əli Seyfəliyevin sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Hakimlər kollegiyasının qərarına əsasən, prokurorun protesti təmin edilməyib.**




Qeyd edək ki, Qaradağ Rayon Məhkəməsində Aydın Rəfiyevin cəzasının çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilməsinə ilə bağlı ərizə təmin edilmiş, Aydın Rəfiyev azadlığa çıxmışdı. İttihama görə, R.Rzayevin yavəri Anar Haşımov, köməkçisi Aydın Rəfiyev və onun oğlu Anar Rəfiyev 2009-cu il fevralın 11-də R.Rzayev qətlə yetiriləndən dərhal sonra onun iş otağına qanunsuz müdaxilə edərək oradan külli miqdarda qızıl-zinət əşyaları, xeyli sayda dərman preparatı, DVD-lər və generala məxsus seyfdən 200 min avro məbləğində pul oğurlayıblar. 2010-cu ilin noyabrında Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəmənin qərarı ilə Aydın Rəfiyev 9, Anar Rəfiyev 7 il 6 ay, A.Həşimov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər.

Onu da qeyd edək ki, R.Rzayev 2009-cu il fevralın 11-də, evinin yaxınlığında odlu silahdan açılan atəşlə qətlə yetirilib. Lakin onun qətli hələ də açılmayıb.

Generalın qızı "Yeni Müsavat"a müsahibəsində "atamı xidməti işi ilə bağlı aradan götürə bilərdilər" söyləmişdi. İllər ötsə də, generalın qətl işi bağlı qalmaqdadır. Bu baxımdan, R.Rzayevin qətlindən əvvəlki dövrdəki fəaliyyəti də maraq doğurmaya bilməz. Hərbi təyyarələrlə daşınan yüklərdən dolayı yaranmış mübahisə zəminində R.Rzayevin qətli versiyası əvvəllər də vardı. Aldığımız məlumatda deyilir ki, generalı qətlindən 1 həftə əvvəl bu məsələ ilə bağlı Hərbi Prokurorluqda aparılan araşdırmalar çərçivəsində dindiriblər. Təbii ki, müdafiə nazirinin müavini olan, ölkənin hava məkanına nəzarət edən böyük bir hərbi birləşməyə rəhbərliyi həyata keçirən generalın dindirilməsi sıradan bir iş üçün olmayıb. Belə görünür ki, onu dindirmək üçün ortada ciddi faktlar olub. Dindirmələrin, sonradan isə aparılan araşdırmaların nəticəsi haqda ictimaiyyətə hər hansı bir məlumat verilməyib. R.Rzayevin qətlindən sonra onun ölümünü istintaq edən qrupun bu məsələni araşdırıb-araşdırmadığı da bilinmir. Fakt odur ki, müdafiə nazirinin müavini olan generalın ölüm işi tozlu arxivlərdə itib-batmaqdadır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Taleh Bağırzadə və tərəfdarlarının apelyasiya məhkəməsi iyunda olacaq

**İyunun 6-da Bakı Apelyasiya Məhkəməsində "Müsəlman Birliyi" Hərəkatının lideri Taleh Bağırzadə və onun 16 tərəfdarının şikayətinə baxılacaq. Onlarla birlikdə Xalq Cəbhəsi Partiyasının sədr müavini Fuad Qəhrəmanlı da həbs edilib.**

Apelyasiyaya Əmir Bayramovun sədrliyi ilə baxılacaq, bu barədə "Turan"a məhkəmədəki mənbələr bildirib.

Xatırladaq ki, yuxarıda adıçəkilən şəxslər 2015-ci il noyabrında Nardaranda həbs ediliblər və dövlət quruluşunu zorla dəyişdirməyə hazırlıq, qanunsuz silah saxlamaq və digər ciddi cinayətlərdə ittiham edilərək, uzunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum ediliblər.

# Azərbaycanlı nazir ifadə verdi



**Ukrayna hüquq-mühafizə orqanları korrupsiyaya qarşı genişmiqyaslı əməliyyata başlayıb. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Ukraynanın hərbi prokuroru Anatoli Matios söyləyib. O, əməliyyat zamanı həbs edilənlərin əksəriyyətinin keçmiş məmurlar olduğunu bildirib: "Əməliyyat ölkənin 15 vilayətində aparılıb. Əməliyyata 1700 polis, 500 prokuror cəlb edilib. Onlar 454 məkanda axtarış aparıblar. 23 keçmiş vəzifəli şəxs həbs olunub. Həbs edilənlərin hamısı vertolyotla Kiyevə çatdırılır".**

Matios həbs edilən şəxslərin Ukraynaya 3,7 milyard dollar ziyan vurduğunu bildirib. Onun sözlərinə görə, hazırkı proseslər əməliyyatın ilk mərhələsidir:

"İkinci mərhələdə biz bu işə Baş Prokurorluq və Ukrayna Təhlükəsizlik Xidmətini də cəlb etmək istəyirik. Bu həbslər Ukrayna Dövlət Fiskal Xidmətinin eks-rəhbəri Roman Nəsirovun ifadəsi sayəsində mümkün olub".

Qeyd edək ki, əslən azərbaycanlı olan Nəsirovun özü səlahiyyətlərindən sui-istifadədə və 76 milyon dollar pulun mənimsənilməsində günahlandırılır.

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

**Azərbaycanda 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı artıq indidən müxtəlif iddialar səslənməkdədir. Bunlardan biri də Rusiyanın bu seçkilərə təsir etməkdə maraqlı olması ilə bağlıdır. Son günlər bəzi siyasətçilər və ekspertlər bildirirlər ki, Moskva 2018-ci il seçkilərində Azərbaycan daxilində rusiyapərəstlərdən ibarət çox ciddi problem yaradan güc formalaşdıra bilər və qüvvə 2013-cü ildəki "İbrahimbəyov ssenarisi"ndən güclü olacaq. Deyilənlər mümkündürmü? Kremlin bunun üçün yetərli imkanları mövcuddurmu?**

# Moskvanın "İbrahimbəyov -2" ssenarisi

## Müxalifətdən və Rusiyadakı keçmiş səfirdən maraqlı şərhlər; "Hazırkı situasiya 2012-ci ili xatırladır..."



**KXCP sədri Mirmahmud Mirəlioğlu** hesab edir ki, Azərbaycan Rusiyanın maraq dairəsində olduğu üçün Kreml seçkilərdən öz maraqları üçün həmişə istifadə etməyə çalışır və bu dəfə də istisna deyil: "Rusiya Azərbaycanda öz xeyrinə dəyişikliklərdə maraqlıdır. Böyük ehtimalla da bundan əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də maraqlı olacaq. Təbii ki, Rusiyanın özünün başı öz problemlərinə qarışmasa, addımlar atacaq. Rusiyanın Azərbaycana təsir etmək imkanları hər zaman mövcuddur".

**AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev isə bildirdi ki, ölkədə həm hakimiyyət daxilində, həm də kənarda rusiyapərəst qüvvələrin olması heç kimə sirr deyil:** "Onların aktivləşməsi də heç vaxt özlərindən asılı olmayıb. Bu sifarişin həmişə Rusiyadan olması da heç kimə sirr deyil. Ən azından müstəqilliyimizin əldə olunmasından bu yana dəfələrlə bunun şahidi olmuşuq. Hazırda mövcud olan situasiya 2012-ci ili xatırladır. O zaman münasibətlərin soyumasını qarşılıqlı bəyanatların tonunda açıq hiss etmək mümkün idi. Sonradan bu bəyanatlar açıq siyasi müdaxilə formasına keçdi. Açıq şəkildə hakimiyyət təhdid olunmağa başladı. Əslində o zaman bu təhdidi ölkə rəhbərliyinə qarşı yox, dövlətə qarşı qəbul etmək lazım idi. Çünki hakimiyyətlə bu soyuqluğun yaranmasına səbəb ölkənin xarici və iqtisadi siyasətinin Rusiyanı qane etməməsi, Avropa İttifaqı ilə ciddi yaxınlaşmalara gedilməsi idi. Bu gərginlik 2013-cü ilin yazına qədər davam etdi, amma Putinin Bakıya səfərindən sonra vəziyyət 180 dərəcə dəyişdi. Mən hesab edirəm ki, həmin dövrdə rusiyameylli qüvvələrin böyük qələbəsi baş verdi. Sonrakı illərdə Avropa İttifaqı ilə münasibətlər dayandırıldı və s. Üstündən 5 il keçib, yenidən Avropa İttifaqı ilə yeni saziş müqaviləsi danışıqları gedir, Rusiyanın yaratdığı qurumlara qatılma ehtimalları sıfıra enib və s. Odur ki, yenə də seçki öncəsi keçən təcrübənin başqa formada təkrarlanması ehtimalı var. Bu planın içinə bilərəkdən və ya bilməyərəkdən qatılan insanlar ola bilər və onlardan istifadə etməyə çalışacaqlar. Amma bilmək lazımdır ki, belə cəhdlər ölkədə demokratik dəyərlərin inkişaf etməsinə, insanlarımızın iqtisadi rifahının artmasına, nəticə etibarilə hətta hakimiyyət dəyişikliyi olsa belə, müsbət dəyişikliklərin olmasına deyil, ölkədən yeni nələrisə qopartmağa, Azərbaycanı tam asılılıq altına almağa xidmət edəcək. Ona görə də hər kəs bu məsələdə ayıq olmalıdır. Hakimiyyət bu planların qarşısını almaq üçün addımlardan biri kimi ölkə daxilindəki siyasi qüvvələrlə normal münasibətlər qurmalı, onların ölkə qanunlarına uyğun olaraq fəaliyyətlərinə normal şərait yaratmalıdır".

**Politoloq, Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə isə moderator.az-a bildirib ki, Rusiyanın seçkilərə təsir imkanları məhduddur:** "Təbii ki, hakimiyyət məsələsini həll edən bu cür seçkilərə hamı təsir göstərmək istəyir. Lakin Rusiyanın imkanları məhduddur. Mən Rusiyanın bu məsələyə ciddi təsir göstərəcəyinə, ciddi dəyişikliyə yol açacağına inanmıram. Rusiya ilə bağlı bu iddiaların heç biri mənə inandırıcı gəlmir".

❑ **E.SEYİDAĞA**

# OPEK hasilatın daha 9 ay uzadılmasına qərar verdi

## Bu, dünya neft bazarına nə vəd edir?

**OPEK və OPEK-ə üzv olmayan neft ölkələrinin mayın 25-də Vyanada işini tamamlayan növbəti sammitində neft hasilatının azaldılması ilə bağlı 2016-cı ilin noyabr ayının 30-da qəbul edilmiş anlaşmanın daha 9 ay müddətinə uzadılmasına qərar verilib.**




"Bloomberg" xəbər verir ki, iclas iştirakçılarından biri bu barədə açıqlama verib. Qeyd edək ki, ilin əvvəlindən qüvvədə olan hazırkı anlaşmanın müddəti iyunun 30-da bitir.

OPEK-dən gələn bu açıqlama neft bazarında mənfi qarşılanıb. Belə ki, hazırda "Brent" markalı neftin qiyməti mayın 24-də nisbətən 1,3% azalaraq 53,25 dollar/barelə düşüb. Qeyd edək ki, neft bazarı iştirakçıları hasilatın azaldılması kvotasının artırılmasını gözləsə də, iclasda bu məsələ müzakirə olunmayıb.

Xatırladaq ki, ötən il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 mln. barel azaldılaraq 32,5 mln. barelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barel azaldılması barədə sazişə imza atıb. Saziş bu ilin birinci yarısı üçün bağlanıb.

Azərbaycan Energetika Nazirliyinin məlumatına görə, 11 ölkənin 2017-ci il yanvarın 1-dən gündəlik neft hasilatını 558 min barel azaltmaq barədə razılaşması çərçivəsində Azərbaycan hasilatı sutkada 35 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Yanvar ayı ərzində ölkə üzrə gündəlik neft hasilatı 793,9 min barel, fevralda 776,4 min barel, martda 733,3 min barel, apreldə isə 781,1 min barel olub.

Bəs görəsən, OPEK-in toplantısında verilən bu qərar dünya neft bazarındakı durumu hansı istiqamətdə dəyişə biləcək?

**Bu sualı cavanlandıran iqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, OPEK-in bu qərarı gözlənilən idi:** "Hasilatın dondurulmasının hansı müddətə uzadılması ilə bağlı müəyyən fikir ayrılığı var idi ki, 6 ay, yoxsa 9 ay qüvvədə saxlanılsın. OPEK üzvlərinin əksəriyyəti 9 aylıq uzatmaya qərarlı olduğu üçün hasilatın 9 ay müddətində uzaldılması barədə razılaşma əldə edildi. Bu razılaşma dünya bazarında neftin qiymətində kəskin azalmaların qarşısını alacaq. Çünki əgər OPEK anlaşma əldə etməsəydi, bu, neftin qiymətinin kəskin ucuzlaşmasına gətirib çıxara bilərdi. Artıq qərar bazara psixoloji təsirini göstərə bilərdi".

**Ekspert onu da vurğuladı ki, OPEK-in bu qərarı neftin qiymətlərinin kəskin artacağı anlamına gəlmir:** "Söhbət mövcud öhdəliyin azalmasından gedir. Biz son 6 ayda bu öhdəliyin qüvvədə olduğu dövrdəki qiymətlərə baxsaq, görərik ki, qiymətlər 50-55 dollar ətrafında dəyişib. Gözləntimiz odur ki, növbəti uzatma da 9 aylıq müddət ərzində qiymətlərin həmin intervalda dəyişməsinə gətirib çıxaracaq. Praktik olaraq, OPEK interval qiymətlərindəki dəyişikliyi qoruyub saxlamağa çalışır. OPEK kəskin qiymət artımlarını hədəfləmir. Bu real da deyil. Çünki artıq şist neftin maya dəyəri 35 dollara qədər azalıb. Bu baxımdan, kəskin qiymət artımları bazarın yenidən neftlə dolmasına gətirib çıxara bilər. O baxımdan, nə OPEK , nə də bu təşkilata üzv olan ölkələr kəskin qiymət artımları gözləmirlər. Ancaq onlar qiymətin stabilləşməsində maraqlıdırlar. OPEK-in son qərarı da qiymətlərin stabilləşməsinə gətirib çıxara bilər".

**V.Bayramovun fikrincə, bu razılaşmanın 2018-ci ilin martında sona çatacağını nəzərə alsaq, o zaman bazara çıxarılan neftin həcmində artımlar ola bilər:** "Bu baxımdan, ciddi qiymət artımlar heç bir halda gözlənilən deyil. Öhdəliyə əməl edilməsi ilə bağlı ilk 5 ayın yekunlarında razılaşmaya təxminən 80-faiz əməl edildi. O baxımdan, bu, qiymətin dəyişmə tendensiyasından və bazara çıxarılan şist neftin həcmindən asılı olacaq. Güman olunur ki, öhdəliklərə təxminən 80 faiz əməl olunması növbəti dövrlərdə də mümkün olacaq. Ola bilər ki, müxtəlif ölkələrdə texniki problemlər yaşana bilər və öhdəliyə tam əməl etmək mümkün olmaz. Ancaq öhdəliyə təxminən 80 faiz əməl ediləcəyi gözlənilir. Ona görə də OPEK və neft ölkələri üçün bu anlaşma çox vacib idi. Lakin bu, heç də yüksək qiymətlərin qayıtması anlamına gəlmir. Yüksək qiymətlər artıq bir tarixdir. 2020-ci ildən sonra dünya iqtisadiyyatında neftə tələbat kəskin artarsa, o zaman qiymətlər yüksələ bilər. Ancaq şist neftin maya dəyərinin azalması fonunda yaxın zaman üçün neft bazarında kəskin qiymət artımı gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**

# Gürcü nazir: "Gürcüstan Azərbaycan qazından asılıdır"

**"Azərbaycan bizim strateji tərəfdaşımızdır. Gürcüstanın enerji təhlükəsizliyinin təmin olunmasında da Azərbaycanın rolu böyükdür".**



Kaxa Kaladze

Bunu "Report"a açıqlamasında Gürcüstan baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze deyib.

Nazir bildirib ki, Gürcüstan təbii qaza olan tələbatını da Azərbaycanın hesabına ödəyir: "Biz bu gün Azərbaycan qazından asılıyıq. Azərbaycan strateji tərəfdaşımız kimi bizə çox köməklik edir. Eyni zamanda Azərbaycan Gürcüstana böyük həcmdə investisiya yatıran ölkədir".

Gürcüstanda yeraltı qaz anbarının tikintisinə toxunan nazir söyləyib ki, layihə işlərində bəzi problemlər yaranıb. Ona görə də bu işlər bir qədər ləngiyib: "Bütün prosedur işlər tezliklə başa çatacaq və gələn ilin əvvəllərində qaz anbarının tikintisinə başlayacağıq".

YENİ MÜSAVAT
N 26 (6726) 26 may 2017

# “Mən Cümhuriyyətimizin 100 illiyinə 50 ildir hazırlaşıram”

## Şirməmməd Hüseynov: “Rəsulzadə bayrağımızı parlamentin üstünə qaldırmışdı, İlham Əliyev də bu bayrağı 162 metr yüksəkliyə qaldırdı”

**Cümhuriyyətimizin 99-cu ildönümü ərəfəsində böyük araşdırmaçı alim, dəyərli ziyalımız, jurnalistikamın ağsaqqalı Şirməmməd Hüseynovla görüşdük. Yaşı 93-ə adlasa da, yenə də işgüzarlığından qalmır, hər gün 8-10 saat yazı masasının arxasında işləyir, arxivə gedir, həftədə iki dəfə universitetdə mühazirələr oxuyur bu fenomen şəxsiyyət. Özü də Məhəmməd Əmin Rəsulzadə, digər Cümhuriyyət qurucuları, Azərbaycan Demokrat Cümhuriyyətinin tarixi barədə danışdıqca şövqə gəlir, üzü gülür, qəlbən yaşayır o illəri. Danışdıqca mənə elə gəldi ki, Şirməmməd müəllimin uzunömürlüyünün səbəbi həm də Cümhuriyyətimizə, onun tarixinə, işinə olan sevgisi, məhəbbətidir.**

***- Şirməmməd müəllim, özünüzü daha çox harada rahat hiss edirsiniz, auditoriyada, yazı masası arxasında?***

- *(Cümhuriyyət qurucularına işarə edir)* Bu kişilərlə otub-durmaqdan böyük səadət yoxdur. Bunlar dünyanı dəyişiblər, bizə dövlət yaradıblar. Məhəmməd Əmin deyir insan övlad dünyaya gətirir, millət dövlət dünyaya gətirir. Millətin övladı dövlətdir. Fərd övladına hamilə olduğu kimi, millət də dövlət yaratmaq üçün hamilə olur. Millətin də dövlət yaratması üçün gərək o millət həddi-buluğa çatsın. Üzeyir bəy Cümhuriyyətimizin 1 yaşında nə yazsa, yaxşıdır? Deyir, mayın 28-də Azərbaycan dövləti doğdu. Sözə bax e... İnsan niyə dünyaya övlad gətirir? Nəsli davam etdirsin, həm də qocalanda ona xidmət eləsin. Millət də dövləti ona görə yaradır ki, o millətin torpağını, vətənini, varlığını qorusun, ona insan kimi yaşamaq şəraitini yaratsın. Özgədən adama ata-ana olmaz. Millətin doğma övladı onun öz müstəqil dövlətidir. Qıraqdan gələn səni soymağa, işlətməyə, əsir etməyə gəlir. İndi millətdə bu təfəkkürü yaratmaq lazımdır ki, a kişi, doğmaq, millət, dövlət yaratmaq lazımdır...

***- Dövlətimiz var. Daha nə etmək lazımdır?***

- Müəyyən nəsil dövləti yaradır, gələcək nəsil o dövlətin sayəsində yaşayır. İndi bəzən o nəvə-nəticələr, kötücələr o dövləti yaradanları lazımınca qiymətləndirməyi bacarmırlar. Elə bilirlər ki... Deyir, “it ağac kölgəsində yatar, elə bilər öz kölgəsidir”. Elə bilirlər ki, bu hazır şeyi bunlar yaradıblar. Özündən əvvəlkilərə ağız büzürlər. Bəzisi böhtan atır. Bu, ona bənzəyir ki, bir adam öz ata-anasına, onu yaradana, onu dünyaya gətirənə alçaqlıq eləyə. Dövlət millətə xidmət etmək, onu yaşatmaq üçündür. Övladıdır da. Ona görə kimə səcdə etmək lazımdır? Millətə, torpağa. Cümhuriyyət dövründə Məhəmməd Əmingilin üç şüarı var idi. Birincisi, bu millət bu dövləti o vaxt yaşadacaq ki, o başa düşəcək ki, bu vətən də onundur, bu millət də onundur, bu dövlət də. Yəni özününküdür. Görürsən Üzeyir bəy nə yazır: “Hər şey özümüzündür”. Fasilə məsələsi var e, onu xüsusi vermək lazımdır. Bəziləri deyirdi ki, Cümhuriyyət iflasa uğradı, süqut etdi, ya nə... Məhəmməd Əmin deyir süqut-zad havayı söhbətdir, fasilə olub. Gəlib bizi işğal ediblər, amma biz o fasiləni aradan qaldıracağıq.

***- 70 illik fasilə?***

- Qaldırdı, ya yox? İndi uzaqgörən kimə deyərlər, soruşuram səndən? Bu cür siyasət adamlarına uzaqgörən deyərlər. Bu deyir ki, fasilə olub, biz də bu günü yaşayırıq. Onda niyə deməyək ki, eşq olsun sənə, 1955-ci ildə dünyanı dəyişmisən, amma hələ 29-cu ildə demişdin ki, ay cavanlar, vallah-billah bu dövlətdə yaşayacaqsınız! Dedi ki, bu ideyanı, müstəqilliyi xalqa daddırdıq. Uşağa şirnini dadızdırandan sonra əlindən almaq olmaz. Millət müstəqil dövlət həyatını yaşayandan sonra gərək ziyalılar o fikri o millətin canından çıxmağa qoymayalar. Hüseyn Caviddən tutmuş digər ziyalıları niyə güllələyirdilər? Müstəqil dövlət həyatı yaşamaq məfkurəsini bu millətin canından çıxmağa qoymadılar. Məhəmməd Əmin deyir, ey gənclik, sən bu dövləti yaşadacaqsan, o bayrağı bir də qaldıracaqsan! İndi İlham Əliyev o bayrağı 160 metr qaldıranda gedib o kişini durğuzacam ki, dayı, sən deyirdin ki, o bayraq parlamentin üzərində dalğalanacaq, əşi, indi 170 metr hündürlükdə dalğalanır e! Mən niyə yazıram bununla fəxr etmək lazımdır? Elə şeylər var ki, tarixi biləndən sonra ona məhəbbətin olur. Xırda məsələlərə diqqət eləmək lazım deyil. Bilmək lazımdır ki, Vətən də bizimdir, millət də, dövlət də. Dövləti idarə edənlər bu tezisi bilməlidir. Elə etməlidir millət doğrudan da fəxr eləsin ki, əsl yaşayış milli müstəqil dövlətdədir. Əsas budur ha... İndi bunun üçün də hər şeyi dövlətdən istəmək olmaz. Kennedinin məşhur sözü var. Deyir, Amerika mənə nə verib yox, gərək sual verəsən, sən Amerikaya nə vermisən? İndi sən millətə nə vermisən. Həsən bəy Zərdabi deyir çırmanıb suya girən lazımdır ki, qabağa getsin, canını versin, bu milləti yetişdirsin, onu azad etsin. Ona görə də Məhəmməd Əmin Rəsulzadə Axundovdan, Zərdabidən, Sabirdən, Əli bəydən, Əhməd bəydən, Üzeyir bəydən başlayırdı. Ədəbiyyatını, qəzetini, mədəniyyətini, musiqisini yaratdılar. Məhəmməd Əmin yazır ki, Şərq xalqları arasında 25 il içərisində öz ədəbiyyatını, mətbuatını, məktəbini, mədəniyyətini, təşkilatlarını, partiyalarını, dövlətini yaradan ikinci bir millət yoxdur. 100-200 il ərzində edənlər var, amma 25 il ərzində yox. Yazırdı Şimali Azərbaycanın 25 ildə gördüyü işi dünyada görən ikinci xalq yoxdur ki, 25 ildə görsün. Üzeyir bəy də yazırdı ki, Allah bizim millətə çox böyük istedad verib, şərait olsa, bizim millət dünya mədəniyyətinə incilər verəcək. Avropa Oyunları ilk dəfə harda keçirildi? Azərbaycanda. İslam Oyunları harda keçirildi? Azərbaycanda. Baxırsan ki, inkişafa meyl, yenilik hissi, özünü millətlər içərisinə salmaq hissi təbiətində var e. Böyük hissdir, bu hisslə yaşamaq lazımdır. Mən niyə çox işləyirəm? Təsbeh çevirməklə, avara gəzməklə, boş danışmaqla iş olar? Kimin əlindən gəlirsə, öz milləti üçün, vətəni üçün etməlidir.



**“Dövləti bir adam doğmur millət doğur...”**

***

***Şirməmməd müəllim hazırda iki cildlik “Odlu yurd” kitabından Məhəmməd Əmin Rəsulzadə ilə bağlı seçmələri nəşrə hazırlayır.***

- Bu ilk cilddən Məhəmməd Əminin bir cildi çıxacaq. İndi bunu işləmək lazımdır. Mən yavaş-yavaş qəzetdə çap etdirirəm. Amma əsas məsələ bunu çap eləmək deyil, həm də onu oxutmaqdır.

***- Oxuyan varmı?***

- Bəs nə? Mən indi yazılarımı qəzetə ki, verirəm e... “525-ci qəzet”in şənbə nömrəsi təxminən 4 min nüsxə çıxır. 4 min adam oxuyur da. Üstəlik, elektron variantı var. İllərdir “Azərbaycan” qəzetindən yazdığım 3 cildlik “Parlament hesabatları və şərhlər” kitabları orda hissə-hissə çap olunur. Niyə? Oxuyan olsun da. Nəşriyyat kitaba qiymət qoyub, biri 20 manatdır. Kim buna 20 manat verib alacaq?

***- Şirməmməd müəllim, prezident İlham Əliyev Cümhuriyyətimizin 100 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı sərəncam imzalayıb. Bəziləri orada konkret adların göstərilməməsindən narazılıq edir...***

- Dünya dövlətləri Azərbaycan prezidentinə təbrik məktubları yazırsa, bu, həm də millətə ünvanlanmış məktubdur da. Bundan böyük fəxr nə ola bilər? Bir az geniş düşünmək lazımdır. Ay filankəsin adı yoxdur... Ayə, yoxdur, yoxdur da...

***- Şirməmməd müəllim, on illərdir araşdırdığınız rəhmətlik Məhəmməd Əmin bəyi hərtərəfli tanımaq imkanı qazanmısınız. Əgər o, bu gün sağ olsaydı, Xalq Cümhuriyyətimizin 100 illiyinin keçirilməsi barədə imzalanan sərəncama necə reaksiya verərdi?***

- Əla! Əgər orda bircə cümlə varsa ki, 100 illik yubiley dövlət səviyyəsində qeyd olunsun, deməli, bu, dövlət bayramıdır, bildin? Rəsulzadə bu bayrağı parlamentin üstünə qaldırmışdı, İlham Əliyev də o bayrağı 162 metr yüksəkliyə qaldırdı.

***- Yəni bu sərəncamdan sonra Rəsulzadənin də ruhu şaddır, eləmi?***

- Bəs necə? Mənə o lazımdır. Vaxtilə deyirdilər ki, yoxdur bu millətin imzası imzalar içində... Millətimin imzası var millətlər içində! BMT-nin Təhlükəsizlik Şurasının üzvü olduq, 1 ay sədrlik etdik. A kişi, 155 dövlət sənə səs verdi, sən niyə bunlarla fəxr eləmirsən, qurdalayırsan ki, filankəsin adı niyə burada yoxdur? Adı da olsaydı, deyəcəkdilər niyə filankəsin adı ikidə deyil, üçdədir? (Gülür). Bunlar uşaq oyunlarıdır, gədə-güdə söhbətidir, geniş düşünmək lazımdır. Əsas məsələ Məhəmməd Əminin və Üzeyir bəyin dedikləridir, Vətən də bizimdir, millət də bizimdir, dövlət də bizimdir. Qurtardıq e! Əsas budur. Üzeyir bəy yazırdı ki, “özümüzük e...” A kişi, heç bundan böyük şey olar? Soruşuram səndən...

***- Doğrudur, millətlər var dövlətləri olsun deyə, əsrlərdir mübarizədədirlər...***

- Bəs necə? Kürdləri görürsən nə oyunlar çıxarırlar? Yəhudiləri görürsən? Hindistanda millət var ki, 100 milyondur, dövləti yoxdur, a kişi! Çində 35 milyon uyğur var. Sən 10 milyon olacaqsan, müstəqil dövlətin var, Allahına şükür elə də! (Gülür). Məhəmməd Əmin deyir ki, bir millət gərək əzmlə, iradə ilə, şövqlə yaşamağı bacarsın. Şövqlə yaşamayan millət bir şey yarada bilməz, bildin, qardaş? Biz bir az geniş düşünməliyik. Müstəqillik əldə etmişik. Amma bu müstəqilliyi idarə edənlər sovet dövründən qalanlardır. Müstəqillik dövrünün kadrları hələ təzə yetişir, 25 ildir. Mən Çingiz Aytmatovdan soruşdum ki, bizim Avropa səviyyəsində idarə olunmaq mexanizmi nə vaxt yaranacaq? Dedi, 5-6 nəsil sonra. Qardaş, Cümhuriyyət cavandır da. Dövlət neçə min il yaşayır e... Onda 25 yaşlı cavan dövlətdən nə istəyirsən? İran dövləti 2750 illiyini bayram elədi. Türklər 2085-ci ildə Türkiyə adlı dövlətin min illiyini bayram edəcəklər. Qardaş, gərək bunları başa düşəsən. Azərbaycan adlı dövlətimiz olmayıb axı. Bunlar yaratdılar. Olub Ağqoyunlular, Qaraqoyunlular. Bir də ki, gərək tullana biləcəyin məsafəni biləsən, ondan artığı barədə danışmayasan. Adamın boyundan yuxarı tullanması çətindir.

***-Bir çox hallarda səslənir ki, biz millətləşmək dövrünü keçə bilmədik deyə...***

- Millətləşmək dövrünü keçməsəydik, milli dövlət yaratmazdıq. Burada bir şey var. Dənizin dibində o qədər metallar var ki. Amma brilyant, almaz nadirdir, onlar milyon ilə yetişir, amma necə yetişir, heç kəs bilmir. Bir karat brilyant çıxartdılar, 36 milyona satdılar. Millətlərin də içərisində brilyant başlı adamlar yetişir. Peyğəmbərlər o brilyant başlı adamlardır.

***- Şirməmməd müəllim, Allah sizə ömür versin. Gecə-gündüz çalışırsınız, Məhəmməd Əmin irsini, Cümhuriyyət tariximizi araşdırır, gənc nəslə çatdırırsınız. Bəs Xalq Cümhuriyyətinin 100 illik yubileyinə necə hazırlaşırsınız?***

- Mən Cümhuriyyətimizin 100 illiyinə 50 ildir hazırlaşıram (ürəkdən gülür). Məhəmməd Əminin 5 cildliyini hazırlayıb nəşr etdirmişəm, odur bax (Kitab dolabını göstərir). 1992-ci ildə birinci cild, 2002-ci ildə 2-ci, 2011-ci ildə 3-cü, sonra 4-5-ci cildlər... Üzeyir bəyin iki cildini buraxmışam. “İstiqlal”ı çap elədim. Budur bax, mənim 100 illiyə hədiyyəm.

***- Mənə elə gəlir ki, ölkə başçısının 100 illiklə bağlı sərəncamına ən çox sevinən də elə sizsiniz...***

- Bəs necə? Bilirsən nə var: qəmiş qoymaqla iş olmaz. Prezident sərəncam verib, sağ olsun, yerdə qalan işləri özün gör də. Demir ki, Şirməmməd Hüseynov, get, filan kitabı yaz! Yaz da. Deyir ki, dövlət səviyyəsində qeyd olunsun. Bu dövlət də bizik də.

*Bu yerdə Şirməmməd müəllim prezidentin M.Ə.Rəsulzadənin 130 illik yubileyi ilə bağlı imzaladığı sərəncamı, ondan sonrakı günlərdə prezidentlə media nümayəndələri arasında keçirilən görüşdəki səmimi söhbətlərini xatırlayır:*

- Dedim, mən bura gələndə fikirləşirdim ki, 57 il bundan qabaq sənin baban Əziz Əliyevlə nərd oynayan adamam, budur, kitabda da yazılıb. Həmin kitabda professor Cəfərov öz xatirəsini yazıb ki, mən axşam Əziz Əliyevgilə getdim. Məni içəri dəvət etdilər gördüm ki, Əziz Əliyev Şirməmməd Hüseynovla nərd oynayır. Dedim, məni bu görüşə çağıranda düşündüm ki, dünyanın işinə bax e, 57 il bundan qabaq mən nərd oynadığım kişinin nəvəsi prezident olub, mən də onunla görüşə gedirəm. (Gülür).

**Şirməmməd müəllimin həyat yoldaşı əlavə edir:**

- Prezident də dedi ki, hələ mənimlə nərd oynamamısan.

**Ş.Hüseynov davam edir:**

- Dedim, bunu da fikirləşirdim ki, Məhəmməd Əminin anadan olmasının 130 illiyi gəlir, bunu qeyd edəcəklər, ya yox? Prezident də çıxışında dedi, bizim 28 maydan böyük bayramımız yoxdur, Cümhuriyyəti yaradan görkəmli şəxsiyyətlər Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, digərləri millətimizin fəxridirlər. Bu sözləri dedi, qardaş! İndi burada söhbət 100 illik yubileyin dövlət səviyyəsində qeyd olunmasından gedir. Məhəmməd Əmin deyir ki, bu Cümhuriyyəti 3-5 adamın adına çıxmaq milləti alçaltmaqdır. Deyir ki, bu cümhuriyyəti millət yaradıb. Ona görə deyirdi ki, dövlət millətin övladıdır, ayrı-ayrı adamların yox. Dövləti bir adam doğmur e, millət doğur. Sən bunu bir adamın adına niyə çıxırsan?

*(Müsahibənin geniş variantını müsavat.com saytından oxuya bilərsiz).*

❑ **Elşad PAŞASOY**
❑ **FOTO: “YM”**



# Devid Yumun araşdırması

**Zamin HACI**
zaminhaci@gmail.com

**"Tarixin yolları düzənlik deyil,**
**Tarix dağdan keçir, dərədən keçir.**
**Ov bir yol bərəyə gələ, gəlməyə,**
**O da gecikdinmi, bərədən keçir"**
***(Səməd Qaraçöp, "Nəsimi" şeirindən)***

**18-ci əsrdə yaşamış görkəmli şotland filosofu və tarixçisi Devid Yum bir dəfə evində oturub bəşəriyyətin, İngiltərənin tarixi haqda növbəti əsərini yazırmış. (Yum dövrünün çox məşhur kitablarından olan 6 cildlik "İngiltərənin tarixi" əsərinin müəllifidir). Birdən küçədə nəsə səs-küy qopur. Yum qulluqçunu göndərir, öyrənsin orda nə olubdur. Qulluqçu qayıdıb deyir ciddi bir şey yoxdur, yoldan keçənlər sözləşiblər. Bir az sonra nökər gəlir, deyir küçədə ağır cinayət baş verib, adam öldürüblər. Nökərin sözü bitməmiş poçtalyon gəlir, bu isə deyir indicə küçədə böyük qarışıqlıq yarandı, iki quduz köpək boğuşurdu, iki qadın və bir kişini də dişlədilər. Yum qələmi masaya çırpıb əsəblə deyir: "Bu, dözülməzdir! Mən burnumun ucunda - pəncərəmin altında olanları aydınlaşdırmağı bacarmıramsa, bəşəriyyətin tarixini necə yaza bilərəm?!"**

Təvazökarlıq çıxmasın, indi biz jurnalistlər də təxminən Yum müəllimin günündəyik. Ətrafımızda olanları oxuculara çatdırmaqda min cür çətinlik, problemlə üzləşirik, ancaq beynəlxalq aləmdəki prosesləri analiz edirik, gah Amerikaya, gah Avropaya haqqın yolunu göstəririk. Bəlkə də bu baxımdan Qafqaz Müsəlmanları İdarəsinin şefi Allahşükür Paşazadənin müraciəti alqışlara layiqdir. Şeyx idarənin iclasında mollalara, imam və axundlara göstəriş veribdir, dini moizələrdə, xütbələrdə ancaq Azərbaycandan danışmağı tapşırıbdır. Sitat: "Tapşırmışam ki, ancaq Azərbaycanda baş verənlərlə bağlı danışsınlar, fikirlərini bildirsinlər, başqa ölkələrin işinə qarışmasınlar".

Eyni zamanda şeyxin bu müraciətindən təxribat qoxusu gəlir. Necə yəni ancaq Azərbaycandan danışın? Lap üsyana çağırış kimi səslənir! İndiyə qədər xeyirdə-şərdə toplaşan azərbaycanlılar söhbəti yola verməyin geopolitik üsullarını yaxşı bilirdilər. "Xəbərin var da, Tramp ərəblərlə görüşəndə arvadı başını bağlamayıbdır", "Suriyada yenə qırğındır, şükürlər olsun, bizdə sakitçilikdir, Qarabağı almışıq", "Moskvaya qar yağıb" və sairə tipli cümlələr hər birimizə yaxşı tanışdır. Bu, ictimai diskussiyaların axarını dövlətçiliyə uyğun tarazlamağa, sabitliyi qorumağa imkan verirdi. Şeyx isə deyir, xeyr, mütləq Azərbaycandan danışın!

Nə danışaq? Manatdan danışaq, yoxsa işsizlikdən? Bəlkə illərdir insanların türmələrdə nahaq cəza çəkməsindən? MTN agentlərindən, yoxsa erməni casuslarından? Ya özünü bankın qabağında yandıran kişidən?

Hara dartsan daxili temalar təhlükəlidir. Məncə, daxili təhlükəsizlik idarəsi də ayıq-sayıq olmalı, şeyxin bu çağırışını diqqətlə yoxlamalıdır. Bəlkə də o, AXC-Müsavat cütlüyünün hakimiyyət yüzilliyinin həsrətini çəkməkdədir. Bəlkə o bizi qurbağaya döndərmək istəyir?

Sözgəlişi, bizim Beynəlxalq Bankda pulları batan qazax pensiyaçılar və başqa xaricilər üçün müvafiq şərait yaratmalıyıq. Yəni onların da imkanı olsun bankın ofisləri, yaxud xarici səfirliklərimiz qarşısına gəlib özlərini yandırsınlar. Axı bizdə bank kreditləri problemi ilə üzləşən zəhmətkeşlərimiz özlərini banklar önündə yandırırlar. Hətta bəzi banklar artıq yanğınsöndürən ştatı açıbdır. Maliyyə sektorumuzun alovu qalxdıqca ölkəmiz "Odlar yurdu" ayamasını doğrultmaqdadır. Şair demişkən:

**"Yaşamaq - yanmaqdır, yanasan gərək,**
**Həyatın mənası yalnız ondadır.**
**Şam əgər yanmasa, yaşamır demək**
**Onun da həyatı yanmağındadır".**

İntəhası burda da biz paradoksla üzləşirik. Çünki özünü yandıran zəhmətkeşlərimizi adətən 5 nömrəli şəhər xəstəxanasının yanıq şöbəsinə aparırlar, o xəstəxananın baş həkimi isə məhz şeirin müəllifinin yeznəsidir. Belə çıxır doktor şairin yanmaqla bağlı tapşırığına qarşı çıxır, imkan vermir millət yansın.

Yazını isə Aleksandr Dümanın tarix haqda aforizmi ilə bitirək: "Tarix divara vurulan mıx kimi bir şeydir. Ondan kefin nə istəsə asa bilərsən".




# "İslam NATO"su ilə NATO arasında - Bakı üçün kritik dönəm

## Azərbaycanın əsas problemi olan Qarabağ məsələsinin həlli üçün unikal şans pəncərəsi açıla bilər, əgər...

**Azərbaycanın da daxil olduğu bölgə və onun ətrafı daha ciddi geosiyasi proseslər astanasındadır. Türkiyədə prezidentli üsul-idarəyə keçidə "yaşıl işıq" yandıran referendumun, digər qonşumuz İranda növbəti prezident seçkilərinin, işğalçı Ermənistanda isə əksinə, parlamentli idarəçiliyə keçidi rəsmiləşdirən seçkilərin bitməsi, eyni zamanda ABŞ-ın yeni hökumətinin xarici siyasətinin əsas oriyentirlərinin yavaş-yavaş dəqiqləşməsi ilə regiondakı situasiyaya əhəmiyyətli müəyyənlik gələcəyi gözlənilir.**

Proses artıq başlayıb. Bu, həm prezident Donald Trampın ilk xarici səfərini məhz sözügedən bölgəyə, Səudiyyə Ərəbistanına eləməsində, həm qardaş Türkiyənin aktiv diplomatik səylərə başlamasında, həm də nə qədər xoşagəlməz olsa da, Rusiyanın Ermənistan timsalında bölgədə, Şimali Qafqazda və işğal altındakı Abxaziya və Cənubi Osetiyada hərbi aktivliyini artırmasında özünü göstərməkdədir. Şimaldan son vaxtlar Azərbaycan əleyhinə artan de-marşları da nəzərə alsaq, vəziyyətin konkret olaraq, Azərbaycan üçün kifayət qədər yeni və həssas bir dönəmə girdiyini söyləmək olar.

***

Təbii ki, bu gəlişmələr fonunda bizi ən çox Azərbaycan və əsas müttəfiqimiz Türkiyənin çıxarları maraqlandırır. Heç şübhəsiz, yeni və daha qəliz dönəmdən Bakı və Ankara yalnız sinxron siyasət yürütməklə, yəni birlikdə uğurla çıxa bilər. Xüsusən də Türkiyənin bu mərhələdə yürüdəcəyi siyasətdən az qala, bütöv bölgənin taleyi asılıdır desək, yanılmarıq.

Türkiyə ilə Rusiya isə nə qədər bir-birini strateji tərəfdaş adlandırsa da, əslində onlar regionda rəqibdir. Bunu baş nazir Binəli Yıldırımın təzəcə başa çatan Gürcüstan səfərinin Rusiyada doğurduğu rahatsızlıq bir daha sübut etdi. Həmin səfər isə prezident R.T.Ərdoğanın Gürcüstana gələn ay reallaşacaq səfərinə hazırlıq məqsədi daşıyırdı.

İş ondadır ki, Türkiyə NATO-nun mühüm üzvü, bölgədəki tək dayağı olmaqla, faktiki şəkildə illərdir Gürcüstanın NATO-ya inqteqrasiyasına stimul verir. Bu yöndə ona hərbi xarakterli köməkliklər edir. Bunun nəticəsidir ki, qərb qonşumuz NATO-ya üzvlüyün bir addımlığındadır. Alyansın dünənki Brüssel sammitində olmasa da, gələn sammitlərin birində onun NATO-ya üzv ediləcəyi kifayət qədər real sayılır.

Bu isə NATO-nun rəsmən Cənubi Qafqazda olması, Azərbaycanla alyansın daha geniş qonşuluğu deməkdir. Bu, həmçinin o anlama gələcək ki, dünyanın ən böyük hərbi-siyasi bloku artıq Gürcüstanın işğal altındakı bölgələri ilə bağlı problemlərə də biganə qala bilməcəyək.

Belə bir perspektiv sözsüz ki, Azərbaycan və Dağlıq Qarabağ üçün də yaxşı presedent yarada bilər. O üzdən Rusiyanı narahat edən həm də NATO-nun Cənubi Qafqazda rəsmən oturuşmasıdır. Azərbaycanın da alyansa üzv olmasının ardınca Ermənistana ayrı yol qalmayacaq.

***

Bu yandan da ABŞ-ın "İslam NATO"is ideyası. Bəllidir ki, hələ Obama dönəmindən aktual olan ideya Trampın Səudiyyə Ərəbistanına səfəri çərçivəsində keçirilən İslam sammitində yenidən gündəmə gətirilib. Ekspertlər isə Azərbaycan prezidenti İlham Əliyevin də həmin sammitdə iştirakına diqqət çəkərək, səfəri son vaxtlar Azərbaycan əleyhinə addımlar atan Moskvaya bir xəbərdarlıq mesajı kimi qiymətləndirirlər.

**"Bu, Kremlə bir mesajdır ki, Bakı geniş seçim imkanına malikdir və günün birindı öz siyasi oriyentirini dəyişə bilər", - politoloq Qabil Hüseyni deyib. Hərçənd fərqli mövqedə olan şərhçilər də var. Məsələn, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri Komitəsinin üzvü Zahid Oruca görə, "İslam NATO-su" ideyası bəlkə də aralıq bir dövr üçün gerçəkləşə bilər, lakin Azərbaycan həmin hərbi ittifaqda yer almayacaq" (axar.az).**

"Əslində yeni bir islami əsasda hərbi birlik yaratmaq məsələsi doğrudan da çox düşündürücüdür. Hərbi ittifaqı kimlərlə quracaqlar, onların hədəfi hara yönələcək, o ordular hansı prinsiplər əsasında formalaşacaq? İslam ölkələri bir silahlı birlik yaradıb, onları hansı məkanlarda döyüşdürəcək? Bütün bunlar çox önəmli suallardır və Trampın səfərindən sonra da öz aktuallığını qoruyub saxlayır" - deputat qeyd edib.

**Onun fikrincə, ölkəmizin belə bir tədbirdə yer alması Bakının qlobal gündəmin əsas proseslərində iştirakı baxımından önəmlidir.** "Lakin mən düşünmürəm ki, Azərbaycan "İslam NATO-su"na qoşulacaq. Biz bölücülük, parçalanma, yeni konfliktlər üçün addımlar atmırıq. Azərbaycanın belə görüşlərdə yer alması nə qədər əhəmiyyətlidirsə, xarici siyasətimizin dəqiq hədəf və prinsipləri də mövcuddur. Bakı artıq diplomatik, siyasi bir paytaxt statusunu almaqdadır. Azərbaycan terror və ya antiterror mübarizəsinin xüsusi idealogiyalara bürünməyinin qəti əleyhinədir, eyni zamanda belə tədbirlərdə iştirak edərkən əsas hədəfinin də barış və sülh olduğunu təqdim etməkdədir", - Z.Oruc əlavə edib.

***

Ancaq məsələ ondadır ki, əsas müsəlman ölkələrinin təmsil olunduğu "İslam NATO-su" İran əleyhinə olmaqdan daha çox, elə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) özəyini təşkil edəcək - hansı təşkilat ki, Ermənistanı işğalçı, Xocalı qətliamını soyqırımı kimi tanıyıb. Demək, yeni hərbi qurumda təmsilçiliklə Azərbaycan Ermənistana qarşı olduqca güclü bir təzyiq rıçaqı qazana bilər - xüsusən də böyük Qarabağ müharibəsi başlayacağı halda. Unutmayaq ki, "İslam NATO-su"nun, İƏT-in lokomotivi olan Səudiyyə Ərəbistanı Azərbaycana görə hələ də Ermənistanla siyasi-diplomatik münasibətlər qurmayıb.

Doğrudur, son vaxtlar Bakı həm də böyük güclərin dialoq məkanına çevrilməkdədir. Az öncə ABŞ və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin Bakı görüşünü, ondan qabaq isə Azərbaycan, Rusiya və İran prezidentlərin üçlü Bakı görüşünü yada salmaq olar. Gələn ay isə Tehranda üç prezidentin zirvə görüşü keçiriləcək. Əsas mövzular regional iqtisadi əməkdaşlıq, o sırada "Şimal-Cənub" nəqliyyat dəhlizi məsələsi olacaq.

Lakin o da sərt bir gerçəkdir ki, Azərbaycan bloklara qoşulmamaqla, NATO-dan da, "İslam NATO-su" ideyasından da uzaq durmaqla, İran və Rusiyanın maraqlarını gözləməklə bu illər ərzində özünün əsas probleminin - Dağlıq Qarabağ məsələsinin ədalətli həllini yaxınlaşdıra bilməyib. Nə Moskva, nə də Kreml Bakı ilə əməkdaşlığa mühüm önəm verdiklərini daima bəyan etsə də, onlar işğalçı ölkəyə təzyiq etməyə hazırlaşmırlar.

Bu da düşündürücüdür. O mənada ki, bizim qəvi düşmənimizin dostları - İran və Rusiya bizə qarşı dostluq və qardaşlıq bəyanatlarında nə dərəcədə səmimidirlər? O üzdən əslində NATO ilə "İslam NATO-su" arasında var-gəl edirmiş kimi görünən Azərbaycanın əsl seçimi əslində elə də uzaqda deyil. Bu seçim bizi qardaş Türkiyənin təmsil olunduğu təhlükəsizlik sistemi ilə yanaşı, Qarabağ məsələsinin həllinə də yaxınlaşdıra bilər.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

**Erməni separatçılarının Dağlıq Qarabağın "paytaxtı"nı Şuşaya köçürməklə bağlı həyasız davranışlarının ardınca Xocalı aeroportunun işə salınmasına hazırlıqlara başlaması Azərbaycanda narahatlığa və etirazlara səbəb olub. Heç kəsdə şübhə yoxdur ki, işğalçılar Azərbaycan üçün çox müqəddəs ünvan olan bu məkandan özlərinin hərbi məqsədləri üçün istifadə etmək, işğal zonasındakı qoşunları döyüş sursatı və yeni silahlarla təchiz etməyə çalışırlar.**

# Xocalı aeroportu ətrafında məsələ böyüyür - XİN düşmənə xəbərdarlıq etdi

## Azərbaycan beynəlxalq təşkilatlara da çağırış etdi; **hərbi ekspert:** "Oradan qalxan istənilən təyyarə və ya vertolyot məhv edilməlidir..."

İctimai təşkilatların və hərbi ekspertlərin Xocalı aeroportunu bombardman etməklə bağlı çağırışlarının ardınca rəsmi Bakı da məsələyə reaksiya verib. "Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərindəki Xocalı hava limanından guya turizm səyahətləri adı altında Ermənistan tərəfindən uçuşların həyata keçirilməsi planları Ermənistanın növbəti təxribatıdır. Ermənistanın qəsdən həyata keçirməyə çalışdığı bu kimi təxribat əməlləri münaqişənin danışıqlar yolu ilə həlli prosesinə ciddi zərbə vurur və məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsinə xidmət edir". **Bu sözləri XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev KİV-in sorğularına cavab olaraq bildirib. Mətbuat xidmətinin rəhbəri deyib ki, Azərbaycanın işğal olunmuş əraziləri üzərindəki hava məkanı Azərbaycanın suveren ərazisidir:** "Xocalı hava limanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının xüsusi kodu ilə Azərbaycan Respublikasının mülkiyyəti kimi təsbit olunub". **H.Hacıyev bildirib:** "Azərbaycan Respublikası tərəfindən işğal olunmuş ərazilər üzərində hava məkanı uçuşlar üçün qadağan edilib. Belə ki, Azərbaycanın suveren hava məkanının bu hissəsində təhlükəsizliyi təmin etmək mümkün deyil. Azərbaycanın bu mövqeyi Beynəlxalq Mülki Aviasiya Təşkilatı və Mülki Aviasiya üzrə Avropa Konfransı tərəfindən dəstəklənir. Ermənistanın Xocalı hava limanından istifadə etmək və qanunsuz uçuşlar həyata keçirmək cəhdləri Azərbaycan Respublikasının Aviasiya haqqında Qanunu, beynəlxalq hüququn imperativ norma və prinsiplərinin, Mülki Aviasiya haqqında Çikaqo Konvensiyası, Beynəlxalq Mülki Aviasiya Təşkilatının təlimat və qaydalarının kobud şəkildə pozulmasıdır".

**Diplomat daha sonra deyib:** "Münaqişənin həllinə məsul tərəf kimi ATƏT-in Minsk Qrupunun həmsədrlərini Ermənistanın bu növbəti təxribatının qarşısının alınması üçün ciddi münasibət bildirməyə və tədbirlər görməyə çağırırıq. Ümumiyyətlə, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindəki qanunsuz əməlləri, o cümlədən iqtisadi fəaliyyəti, təbii resursların talan edilməsi, maddi-mədəniyyət nümunələrinin məhv edilməsi, məskunlaşdırma apararaq demoqrafiq vəziyyətin dəyişdirilməsi, Xocalı hava limanının istifadəsi cəhdləri, qanunsuz seçkilərin keçirilməsi münaqişənin danışıqlar yolu ilə həllinə ciddi zərbə vurur və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqı (anneksiya) məqsədi daşıyır. Azərbaycan tərəfi Ermənistanın bu növbəti təxribatının qarşısını almaq üçün beynəlxalq hüquqi vasitələrdən istifadə edəcək, aidiyyəti beynəlxalq təşkilatlara, xüsusilə Mülki Aviasiya Təşkilatına, Aviasiya və Hava Məkanından istifadə üzrə Dövlətlərarası Aviasiya Şurasına müraciət edəcəkdir".



**Hərbi ekspert Üzeyir Cəfərov xatırladtı ki, gələn ay ATƏT-in bivec, daha çox Ermənistanın maraqlarına xidmət edən Minsk Qrupu regiona növbəti səfərini həyata keçirməyi planlaşdırır:** "Əslində bu da yüzlərlə mənasız, nəticəsiz görüşlərdən biri olacaq. Heç nə dəyişməyəcək, sadəcə, bu hiyləgər üçlük və onların yanında qocalan polşalı diplomat Anjey Kasprşik yenə öz hesabatlarını hansısa "irəliləyiş", "ümid"lə dolduracaqlar və guya hansısa "iş gördükləri" görüntüsü yaradacaqlar. Əslində isə onlar öz son bəyanatları ilə kimə və nəyə xidmət etdiklərini bir daha təsdiqlədilər. Şəxsən mənim mövqeyim bundan ibarətdir ki, Azərbaycan nəhayət ki, öz sərt sözünü və üzünü göstərməlidir. Nə qədər belə vaxt itkisinə həsablanmış görüşlər keçiriləcək? İndi də bu görüşə bir az "rəng qatmaq" üçün Ermənistan tərəfi, görünür, havadarlarından siqnal alıb. Onlar cəbhədə ard-arda neçənci dəfədir ki ciddi təxribatlar törədirlər. İndi isə Azərbaycanın səbrini daşırmaq, bizi açıq şəkildə onlara cavab verməyə sövq edən addıma əl atmağa başlayıblar".

**Hərbi ekspert Azərbaycan ordusunun düşmənin bu təxribatının qarşısını almaq üçün hər cür imkanlara malik olduğunu düşünür və hesab edir ki, hansısa qüvvə bununla bağlı bizə irad tuta bilməz:** "Düşmən Xocalı aeroportundan istifadə edərək guya hansısa turistləri Şuşa şəhərinə və geriyə səyahət adı ilə aparıb gətirməyi planlaşdırır. Həm Beynəlxalq Aviasiya Təşkilatı, həm Azərbaycan tərəfi ötən illərdə dəfələrlə bunlara xəbərdarlıq edib ki, avantüradan imtina etsinlər. Ancaq erməni tərəfi öz inadından dönmək istəmir. Ona görə ki, onlar ATƏT-in Minsk Qrupuna vəfa borcu olan bir məsələnin reallaşdırılmasına ötən ildən söz veriblər. Onlar çalışırlar ki cəbhədə növbəti qanlı toqquşma baş versin və iki ölkənin dövlət başçıları bir araya gətirilsin və yenə hansısa mənasız müzakirələr və axmaq ideyalar ortalığa atılsın, bir müddət də bu "qlobal ideyalar" müzakirə edilsin. Çünki işğalçı Ermənistana həmin bivec beynəlxalq qurumlar bir kəlmə də olsun təpki göstərmirlər ki, onlar BMT TŞ-nin qətnamələrinə əsasən qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxsınlar. Belə davam edəcəksə, hələ uzun illər biz ancaq boş və mənasız görüşlər, ermənilərin daha həyasız təxribatlarının şahidi olacağıq. Ona görə də hesab edirəm ki, Xocalı aeroportundan qalxan istənilən təyyarə və ya vertolyot məhv edilməlidir. Qoy Ermənistan tərəfi başa düşsün ki, bizim də səbrimizin bir həddi var. Mən o fikri də qətiyyən bölüşmürəm ki, bu təyyarələr mülki təyyarələrdir, buna beynəlxalq aləmdə nə deyərlər? Belələrinə demək istəyirəm ki, xahiş edirəm, bu "humanistliyinizi" özünüzə saxlayın! Bu gün "mülki təyyarə" adı ilə uçuşlara başlayacaq ermənilər sabah rahat oradan hərbi məqsədləri üçün də istifadə edəcək, buna heç kimin şübhəsi olmasın".

Bu arada ermənilər xəbər yayıb ki, Dağlıq Qarabağ ərazisində iki yerlik təyyarələrdə turist uçuşlarına başlayıb. İstiPress-in məlumatına görə, bu barədə "Yell Extreme Park"ın rəhbəri Tiqran Çibuxçyan bildirib. Onun sözlərinə görə, ilk uçuşlar keçən həftədən Xankəndi və Şuşa arasında təşkil edilib. 20-25 dəqiqə çəkən uçuşlar üçün şirkət 35 min dram, yəni 72,4 dollar tələb edir. Tiqran Çibuxçyan layihəyə 35 min dollar vəsait yatırıldığını bildirir. Onun fikrincə, sərmayələr artacaq.

**Ü.Cəfərov isə iddiaların saxta olduğunu dedi:** "Şuşada hansısa aeroportun açılması xəbəri sırf dezinformasiyadır. Bunu həm orada olanlar və demək olar ki, Şuşaya sonuncu səfərə gedən azərbaycanlılardan biri kimi deyirəm. Orada heç bir aeroport-filan yoxdur. Bu ermənilərin siçandan fil düzəltməyi kimi bir şeydir. Bu xəstələrin gah onlarda nüvə, gah da atom silahı ilə bağlı sayıqlamalarını yadınıza salın. Özlərinin də nümayiş etdirdikləri şəkildə görünür ki, bu balaca təyyarə istənilən düzəngah yerdən uça bilir və hətta asfalt yolda da ondan istifadə etmək olur. İndi bunlar bir tozanaq qaldırıblar ki, guya hansısa aeroport açıblar. Elə bir şey yoxdur. Əlbəttə ki, elə bir addım atılacaqsa, biz bunun qarşısını almalıyıq və hədəfi məhv etməliyik. Özü də düşünmədən və sərt formada".

❑ **E.PAŞASOY**

# Azərbaycanın dostu Monteneqronun NATO-ya üzvlüyü ölkəmizə nə vəd edir?

## **Qabil Hüseynli:** "Monteneqro vasitəsilə bir sıra problemlərimizi həll edə bilərik"

**NATO-ya üzv ölkələrin sayı iyunun əvvəllərində 28-dən 29-a qalxacaq. Quruma yeni üzv ölkə Monteneqro (Çernoqoriya) olacaq. Bu barədə alyansın baş katibi Yens Stoltenberq deyib. O qeyd edib ki, NATO ölkələri Monteneqronun alyansa daxil olması haqqında protokolun ratifikasiyası prosesini başa çatdırırlar: "Monteneqro iyunun əvvəlində alyansın 29-cu üzvü olacaq".**




Mayın 25-də Brüsseldə keçirilən NATO sammitində bir daha Monteneqronun üzvlüyü məsələsi müzakirə edilib. Artıq bu ölkənin quruma üzv olacağına heç bir şübhə yeri qalmayıb.

Çoxları qurumda Azərbaycanla dost münasibətləri olan ölkələrin sırasına daha birisinin əlavə olunduğunu düşünür. Burada isə bir sıra səbəblər önə çəkilir. Bunlardan biri kimi də ölkəmizin ən çox investisiya yatırdığı dövlətlər sırasında Monteneqronun da yer alması dır. Ekspertlər bu ölkənin NATO-ya üzvlüyünün Azərbaycanın xeyrinə olacağını düşünürlər.

**Politoloq Qabil Hüseynli NATO-nun dünyada bir nömrəli hərbi ittifaq olduğunu söylədi:** "Deyərdim ki, yeni dünya düzəninin müəyyən edilməsi bu hərbi ittifaqın təsiri altında baş verir. NTAO sıralarını genişləndirməkdədir. Bu da Rusiyanı çox ciddi narahat edir. İlk dövrlərdə NATO ilə Rusiya arasında müqavilə imzalanmışdı ki, qurumun Şərqə doğru irəliləməsi mümkün deyil və NATO buna guya əməl edəcəkdi. Amma buna əməl olunmadı. NATO artıq Baltikyani ölkələri, Polşa, Çexiya və Slovakiyanı, indi də Çernoqoriyanı öz sıralarına qatır. Bu Azərbaycan üçün böyük rol oynaya bilər. Çünki bu ölkə ilə Azərbaycanın münasibətləri Avropada ikitərəfli münasibətlərə ən gözəl nümunələrdən biridir. Biz Monteneqro vasitəsilə bir sıra problemlərimizi həll edə bilərik. Ermənilər təmas xətti və bəzi yerlərdə öz hədlərini aşan hərəkətlərə yol verirlər. Azərbaycan beynəlxalq qurumlara müraciət etmək məcburiyyətində qalacaq. O zaman şikayət olunan yerlərdən biri də NATO ola bilər. Həmin şikayəti gündəliyə çıxararkən Türkiyə, Çernoqoriya, Polşa və Baltikyani ölkələrin kifayət qədər dəstəyi ola bilər. Azərbaycanla bu dövlətin əlaqələri nəticə etibarı ilə o yerə gətirib çıxara bilər ki, ölkəmiz Çernoqoriya vasitəsilə NATO ilə münasibətlərini daha da yaxşılaşdırar. Onsuz da Azərbaycan NATO çərçivəsində bir sıra proqramlar üzrə işlər aparır. Bu proqramlar həyata keçirilsə, Azərbaycan bu qurumla xeyli yaxın münasibətlər qurar. Bu münasibətləri indiki şəraitdə qənaətbəxş hesab etmək mümkündür. Azərbaycanın Monteneqro ilə münasibətlərinin bu səviyyədə olması ölkəmizin uğurlu xarici, hərbi siyasəti ilə yanaşı, Rusiyanın son zamanlar Ermənistana göstərdiyi qayğılar baxımından ölkəmizin mövqelərinin möhkəmlənməsinə xeyli köməklik göstərmiş ola bilər. Bu sözlə, biz dost ölkənin NATO-ya üzv olmasını ürəkdən alqışlamalı, ona uğurlar arzulamalıyıq. Özümüz də həmçinin, Gürcüstan kimi NATO istiqamətində səylərimizi artırmalıyıq. Bu gün Rusiya bizə başqa seçim yeri qoymayıb. Kreml getdikcə işlərimizə daha çox burnunu soxur, Ermənistan vasitəsilə bizə daha çox təzyiqlər edir. Belə olan şəraitdə bizim üçün ən perspektivli variant NATO-dur. Yəqin ki, bu istiqamətdə də işlər gedir".

**Politoloq "Eurovision" yarışmasında Monteneqronun ölkəmizə sıfır xal verməsi və Azərbaycanın bu ölkədəki investisiyalarına da toxundu:** ""Eurovision" məsələsi siyasidir. Mədəni proqram çərçivəsindən tamamilə çıxıb. Bu nöqteyi-nəzərdən kimin-kimə səs verəcəyi əvvəlcədən razılaşdırılır. Dövlətlər arasında bölüşdürüldüyünü desək yanılmarıq. Məsələn, Azərbaycan böyük səsini bu ölkəyə vermədi. O zaman indi onlar bizdən inciməlidir? Burada incimək üçün heç bir əsas yoxdur. Əvvəllər ölkəmizin səsini Rusiya qamarlayırdı. İndi çox şükürlər olsun ki, Azərbaycan müstəqil hərəkət edir. Görünür, bu məsələdə bilmədiyimiz tərəflər var. Səsverməməyə görə bu ölkə ilə münasibətlərin pozulacağını zənn etmirəm. Yatırımlara gəlincə, oliqarxlarımız orada gözəl hotellər tikiblər, özlərinə villalar tikdiriblər. Nədənsə oliqarxlar ölkəmizə deyil, başqa ölkələrə yatırım yatırmağa daha çox meyl edirlər, xüsusilə Çernoqoriyaya. Görünür, bu dövlət bir sıra xüsusiyyətlərinə görə oliqarxlarımız üçün əlverişlidir. Amma güman edirəm ki, sərmayənin qorunması baxımından bu ölkədən Azərbaycana heç bir ziyan gəlməyib".

❑ **Cavanşir ABBASLI**



# Rüşvət ittihamına qarşı effektiv cavab: tüpürcək

**Samir SARI**

**Rüşvət almaqda təqsirləndirilən şəxs qalıb qıraqda, rüşvət verməkdə adı çəkilən adam özünə əl qatıb və həmin iddianı irəli sürən şəxsi təhqir edir.**

Söhbət milyarder Əlişir Usmanovdan, Rusiyanın baş naziri Dmitri Medvedyevdən və onları ittiham edən müxalifətçi Aleksey Navalnıdan gedir.

Prinsipcə, ittihamçı Navalnıya baş nazirin özü və ya mətbuat xidmətinin rəhbəri cavab verməliydi və bu cavab təxminən aşağıdakı kimi olmalıydı: "Özünü müxalifət lideri adlandıran şəxsin səsləndirdiyi ittihamların heç bir əsası yoxdur. Bu, cənab Medvedyevin reputasiyasına xələl gətirmək üçün düşünülmüş qara piar aktıdır. Hazırda baş nazir öz işi ilə məşğuldur və bu kimi əsassız ittihamlara məhəl qoymaq fikrində deyil".

Ancaq Medvedyev susur, Usmanov isə deyir: "Tüpürüm sənin suratına, Navalnı".

Özü də o, bunu media önündə eləmir, xüsusi videosüjet çəkdirir, həmin süjetdə oz sözləri hiddətli sifətlə deyir. Birinci video ilə ürəyi soyumayan Usmanov bu günlərdə ikinci videonu da internet resurslarında yaydırıb. Bu videonun da əsas replikası "üzünə bir də tüpürüm, Navalnı"dır.

Belə görünür ki, Usmanov birinci tüpürmə aktının effektindən o qədər də razı qalmayıb, ona görə ikinciyə ehtiyac duyub. Belə getsə, o, ürəyi soyuyana, ictimaiyyəti iyrəndirənə qədər tüpürəcək.

Adam milyarderdir. Rusiya və İngiltərədə yaxşı tanınır, "Arsenal" klubunun 30 faizi ona məxsusdur. Hətta bu yaxınlarda o, 1,3 milyard dollar maya qoyaraq "Arsenal"ı tamam-kamal almaq istəyib, amma ingilislər nəyə görəsə Əlişir əkəyə "no" deyiblər. Nə təhər olur, "Çelsi"ni Abramoviçə, "Mançester siti"ni ərəb şeyxlərinə, o biri klubları da bu biri əcnəbi milyarderlərə sata bilirsiniz, amma "Arsenal"ı bir özbək oğluna sata bilmirsiniz? Bunun pulu özbək somu deyil ki, bu da dollar, funt, avro verir də.

Xüləs, görünür, Usmanovu ingilislərin yanında gözdən düşürən nüans rüşvətxorluqla bağlı ittihamlardır. O da bunu bilir, Navalnıya qarşı ona görə qeyzlidir və tüpürə-tüpürə gedir.

Bu hadisə 19-cu əsrin Rusiyasında baş versəydi, ya özünü təhqir olunmuş sayan Usmanov, ya da onun təhqir etdiyi Navalnı söhbəti duelə daşıyardı. Sekundantlar onları şəhər kənarına aparardılar və düşmənlər bir-birinə güllə atardılar, ya Usmanov sağ qalardı, ya da Navalnı.

Görün, dünya nə qədər cılızlaşıb ki, bir tərəf o birinə güllə atmaqdansa, tüpürcək atır. Heç yazıq Navalnı cavab atəşindən də istifadə eləmir, eləcə, lağlağı edir, deyir, o boyda milyarder videobloqqerə dönüb.

Bu xüsusda bizimkilər yaxşıdır. Burda kimi istəyirsən rüşvətxorluqda ittiham edə bilərsən, cavab verməyəcək. Söz yox, narahat olacaq, ittihamçının yanına xahiş və ya təhdid aparan adam göndərəcək, amma video hazırlayıb, "filankəs, tüpürüm sənin suratına" deməyəcək.

Çünki bu ölkədə rüşvətxorluq o qədər də qəbahət iş sayılmır. Vəzifəli adamı rüşvətxorluqda suçlamaq təxminən timsahı çaydan keçmək istəyən antilopu qamarlayıb parçalamaqda ittiham etmək kimi bir şeydir. Dərin düşüncəli tamaşaçı vəhşi təbiətə dair sənədli filmlərdə bu cür epizodları görərkən "yazıq timsah neyləsin, ac qalası deyil ki" deyə düşündüyü kimi, rüşvət alan məmura da haqq qazandırır, deyir, onun da balaları var, birtəhər dolandırmalıdır.

Əslində bu məsələdə Rusiya bizdən çox fərqli deyil. Yəni orda da hiddətlənmiş ictimaiyyət u saat Usmanovun ofisinin qabağına yığışıb "Alçaq Əlişir, Navalnının ittihamına cavab ver" deyə şüarlar qışqırmır. Bir kimsənin vecinə deyil. Amma nəyə görəsə Usmanov hesab edir ki, Navalnıya sərt cavab verməlidir.

Bəlkə də onu buna Medvedyev məcbur edir, deyir, çıx belə danış, adımız bədnam olmasın. O da ta neynəsin, hökumətlə hökumətlik etməyəcək ki.

İntəhası, bir gün bu tüpürcəklərin bumeranqa dönüb milyarderin üstünə qayıtması vaqiəsi ola bilər. Ya işdir, birdən hakimiyyətə Navalnı gəlsə... Bax, o zaman hazırda şirə dönmüş Əlişiri əl pişiyinə döndərəcəklər.

# Elçibəyin indi vitse-spiker olan Valeh Ələsgərova vəzifə verməməsinin sirləri

## Pənah Hüseyn: "Valeh Ələsgərovun həm xarici dili bilməsi, həm də təcrübələri mühüm rol oynamışdı"

**AXC hakimiyyəti dövründə SOCAR-ın sələfi Azərbaycan Dövlət Neft Şirkətinə (ARDNŞ) prezident təyin olunmuş və sonrakı iqtidarın zamanında öz ərizəsi ilə postundan istefa verən Sabit Bağırovun strateq.az-a müsahibəsi böyük maraq doğurub. ARDNŞ-in sabiq rəhbəri müsahibəsində geniş müzakirələrə səbəb olan açıqlamalar verib.**

Onun müsahibəsində ən çox diqqət çəkən yerlərdən biri Neft Şirkətinin rəhbəri təyin olunana qədər bu posta namizədliyi verilən şəxslərlə bağlıdır. S.Bağırov belə namizədlərdən biri kimi, hazırda Milli Məclisin vitse-spikeri olan Valeh Ələsgərovun adını çəkib. O, vitse-spikerin Neft Şirkətində fəaliyyət göstərən AXC-nin dayaq dəstəsi ilə yaxın münasibətlərinin olduğunu, hətta təşkilata kömək etdiyini də bildirib.

**Müsahibədə ARDNŞ-in sabiq prezidentinin bu posta necə təyin olunması və vitse-spikerlə bağlı dedikləri bunlardır:** "Ayaz Mütəllibovun vaxtında onun rəhbəri Sənan Əlizadə idi. AXC hakimiyyətə gəldikdən sonra belə qərara alındı ki, bu postun həddən artıq önəmini nəzərə alaraq bu vəzifəyə yeni adam təyin olunmalıdır. Neft müqavilələrinin hazırlanması məsələsi vardı. Hərə gəlib bir söz danışırdı. Belə vəziyyətdə yeni rəhbər axtarmağa başlanıldı. Əbülfəz bəy məndən də xahiş etmişdi ki, bir neçə namizəd təklif edim. Mənim də təklifim o zaman Neft Şirkətində fəaliyyət göstərən AXC dayaq dəstəsinin irəli sürdüyü namizəd idi. O vaxt dayaq dəstəsi indi Milli Məclisin vitse-spikeri olan Valeh Ələsgərovun namizədliyini irəli sürmüşdü. Onun AXC dayaq dəstəsi ilə yaxşı münasibətləri vardı, təşkilata kömək edirdi. Odur ki, ona müəyyən etimad yaranmışdı. AXC hələ hakimiyyətə gəlməmişdən əvvəl dayaq dəstəsinin təşəbbüsü ilə mən Valeh Ələsgərovla gizli görüşmüşdüm. Normal insan təsiri bağışladı, həm də yaxşı mütəxəssis idi. Mən onun namizədliyini bir neçə dəfə prezidentə təqdim etsəm də, Elçibəy "yox" cavabını verdi. Mən daha heç kimi təklif etmədim. Başqa namizədlər də var idi. Məsələn, Rəsul Quliyevin də namizədliyinə baxılırdı. Digərləri də var idi. Bir axşam prezidentin köməkçisi zəng vurdu ki, "Əbülfəz bəy, sizinlə görüşmək istəyir, xahiş edirəm gəlin". Getdim, gördüm prezidentin kabinetində özündən başqa İsa bəy və Pənah bəy oturub. Mənə dedilər ki, aramızda yeganə mühəndis sənsən və Neft Şirkətinin rəhbəri postuna səni təyin etmək istəyirik. Prezident dedi ki, biz ora yalnız tanıdığımız və etibar etdiyimiz adamı qoya bilərik. Mən razı oldum. Əlbəttə, tərəddüdlərim vardı, birdən-birə o boyda şirkətə rəhbər getmək çox məsuliyyətli iş idi. Mən ona qədər strateji məsələlər üzrə dövlət müşaviri postunu tuturdum. Əslində hakimiyyətdə rəsmi olaraq belə struktur vahidi yox idi...".

**Əbülfəz Elçibəy hakimiyyəti dönəmində müxtəlif vaxtlarda AXC İcraiyyə Komitəsinin sədri, dövlət katibi və baş nazir olmuş Pənah Hüseyn V.Ələsgərovun ARDNŞ rəhbərliyinə namizədliyinin verilməsi ilə bağlı fikirlərə belə münasibət bildirdi:** "Neft şirkətləri ilə danışıqlar zamanı bir neçə dəfə Sabit bəylə birgə prezident Elçibəyə məlumat vermişik. Danışıqlarla bağlı mənə də bəzi vaxtlarda məlumatlar verilirdi. Çünki Sabir Bağırovun rəhbərliyi ilə danışıqlar getsə də, siyasi rəhbərlik də buna nəzarət edirdi. Bu istiqamətdə siyasi xarakterli tələblər olurdusa, məsələ müzakirə edilirdi. Valeh Ələsgərovun namizədliyinin verilməsi ilə bağlı heç bir məlumatım olmayıb. AXC İcraiyyə Komitəsinin sədri kimi, əgər belə bir fakt olsaydı, ən azından məlumatım olardı. Sabit bəyin bu vəzifəyə təyin olunmasına gəlincə, o vaxt, ümumiyyətlə, Neft Şirkəti indiki statusunda deyildi. Bildiyiniz kimi, bu qurum prezidentə birbaşa tabedir, xüsusi nizamnaməsi var. Yəni əlahiddə bir orqandır. O vaxtlar neft məsələsinin Azərbaycan üçün xüsusi əhəmiyyətini, siyasi rolunu nəzərə alaraq, prezident və məsləhətçiləri həm bilik və informasiya səviyyəsi yüksək olan, həm də siyasi baxımdan tam etimad bəslənilən namizəd axtarışında oldu. Sabit Bağırov o zamanlar Prezident Aparatında strateji məsələlər üzrə dövlət müşaviri idi. Seçkilər dövründə Elçibəyin Seçki Qərargahına rəhbərlik etmişdi. Neft mütəxəssisi olmasa da, hesablama texnologiyası və idarəetmə, onun modelləşdirilməsi üzrə o vaxtlar bir neçə mütəxəssisdən biri idi. Buna görə Sabit Bağırov o posta məsləhət görüldü. Onu deyim ki, Sabit bəy heç də həvəslə o vəzifəyə getmədi. Bunun üçün ondan təkidlə xahiş etmək lazım gəldi. Ona kadr məsələlərində, faktiki olaraq, yeni yaradılan və birbaşa prezidentə tabe olan, Nazirlər Kabinetindən asılı olmayan dövlət qurumunda idarəetmədə, neft danışıqlarının aparılmasında müstəqillik və etimad göstərildi. Valeh Ələsgərov və digərlərinin bu məsələdə iştirakları Sabit bəyin onları tanıması və onlara etimad göstərmələri ilə bağlı olub. Valeh bəyin əleyhinə və lehinə heç bir rəy olmayıb. Neft kontraktları o dövrdə ölkəmizdə yeni tipli layihələr sayılırdı. Bu məsələlərdə Valeh Ələsgərovun həm xarici dili bilməsi, həm də təcrübələri mühüm rol oynamışdı. Bütün bunlar Neft Şirkətinin daxilində olan məsələlər idi. Valeh Ələsgərova olan münasibət Sabit Bağırov üzərindən olan münasibət idi. O zamanlar bəzi müşahidələrimiz var idi və bu barədə Sabit bəyə də fikirlərimizi demişdik. Ona nə qədər etimadımız yüksək olsa da, bizə bəzi informasiyalar da gəlirdi. Ölkənin iqtisadi təhlükəsizliyi ilə bağlı digər qurumların da bu məsələlərlə bağlı məlumatları var idi. Belə məlumatlarda Valeh Ələsgərov barədə müsbət fikirlərlə yanaşı, onun həddindən artıq xarici şirkətlərlə bağlı olması, hətta bəzi hallarda xarici şirkətlərin maraqlarını ifadə etməsi barədə də informasiyalar daxil olurdu. Amma bir daha deyirəm ki, Valeh Ələsgərov xüsusi bir müzakirə obyekti olmayıb, yəni xüsusi diqqətə alınan kadr olmayıb. Əgər rol oynayıbsa, Sabit bəyin ətrafında onun komandasının üzvü kimi bunu edib. O dövrdə birmənalı olaraq, prezidentin Sabit bəyə etimadı çox böyük idi. Bəzi müzakirələr olduğu zaman birmənalı Sabit bəyin tərəfi saxlanılırdı".



**Sabiq baş nazir V.Ələsgərovun Xalq Cəbhəsi ilə əlaqələrinin olduğu barədə də məlumatsız olduğunu söylədi:** "Məncə, elə bir əlaqələri olmayıb. Namizədliyi də verilibsə, bu, Sabit Bağırov tərəfindən irəli sürülüb. İndiki Neft Şirkəti Sabit Bağırov ora təyin olunandan sonra qurulub. Bunu qətiyyən unutmaq olmaz. Neft Şirkətinin Energetika Nazirliyi və Nazirlər Komitəsindən asılılığının minimuma endirilməsi və birbaşa prezidentə tabe olması Sabit Bağırov rəhbər təyin olunandan sonra işlənib hazırlanıb. Bəlkə də Sabit bəy ora rəhbər təyin olunmasaydı, indiki Neft Şirkəti təşkilati formada bu vəziyyətdə deyildi. O zamanlar namizəd kimi Valeh Ələsgərovu xatırlamasam da, bəzi isimlərin adı yadımdadır. Rəsul Quliyevdən daha çox indiki energetika naziri Natiq Əliyevin adı hallanırdı. Onun adını Əbülfəz Elçibəyin dilindən eşitmişdim. Amma müzakirələr zamanı məsələnin əsas siyasi tərəfi nəzərə alınaraq, Sabit bəy üzərində dayanıldı. Rəsul Quliyev məsələsi elə önəmli deyildi. Onun prezident Elçibəylə yaxın əlaqələri olsa da, o vəzifəyə gələn qədər Rəsul bəy digər namizədləri, xüsusən, Etibar Məmmədovu dəstəkləmişdi. Ona münasibətdə AXC-də ikili mövqelər var idi".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017




# Eldar Mahmudovla bankir qudası Beynəlxalq Bankın milyonlarını ofşorda saxlayır

**Ləğv olunan Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq rəhbəri Eldar Mahmudovla onun qudası, hazırda həbsdə olan Azərbaycan Beynəlxalq Bankının (ABB) keçmiş sədri Cahangir Hacıyevin fəaliyyəti ümumilikdə ölkənin bank sektorunun çöküş durumuna gətirib. ABB 3.3 milyard dollar həcmində borcun restrukturizasiyasına nail olmaq məqsədilə mayın 11-də Nyu-York məhkəməsinə müraciət edib. Azərbaycandakı kapitalın 1/3-nə nəzarət edən ABB iflas etməyəcək qədər böyüyüb və elə 2015-ci ildə hökumətin banka nəzarəti ələ alması da bu faktı sərgiləmiş oldu.**

## Cahangir Hacıyev və onun ailə üzvləri Beynəlxalq Banka dövlətə məxsus maliyyə təşkilatı kimi deyil, şəxsi pul kassaları kimi baxıb

Hazırda hökumət bankın 80%-nə nəzarət edir. ABB-nin 908 milyon dollarlıq ödənməmiş borcu var və Dublində yerləşən "Rubrika Finance Company Ltd."yə 100 milyon dollarlıq borcun ödənişi gecikir. APA xəbər verir ki, Nyu-York məhkəməsi "Azərbaycan Beynəlxalq Bankı» ASC-nin (ABB) müraciəti əsasında onun aktivlərinin xarici kreditorların ABŞ-dakı iddia tələblərindən qorunması ilə bağlı qərar qəbul edib. Bankın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qərara əsasən, xarici öhdəliklərinin könüllü restrukturizasiyası prosesi zamanı xarici kreditorlar onların aktivlərinə qarşı tələblər irəli sürə bilməyəcək.

**ABB borc bataqlığında çabaladığı bir vaxtda, ölkənin ən böyük bankını bu həddə gətirən qudaların ofşorlarda milyardlarla pulu "yatmaqda"dır. ABB-də baş verənlərlə bağlı mətbuata açıqlamalarından birində deputat Zahid Oruc konkret rəqəm də söyləmişdi.**

**Deputatın açıqlamasından sitat:** "Beynəlxalq Bank və Milli Təhlükəsizlik Nazirliyi xətti ilə ən azı 10 milyard manatdan artıq pul kütləsinin dövriyyədən və ölkədən çıxarılmasını bütün təhlillərin mərkəzinə qoymadan real mənzərəyə obyektiv qiymət vermək mümkün deyil. Əksər hissəsinin ofşor zonalarda olduğuna heç bir şübhə yeri qalmayan oğurluq pullar bir nəfər şəxsin deyil, ən azı 2 hakimiyyət qurumunun dövlətə neçə böyük zərbə vura biləcəyini təsdiq edir".

Deputatın açıqlamasından da aydın olur ki, ölkədən milyardlarla pul çıxarılıb və ofşorlarda gizlədilib.

C.Hacıyev həbs ediləndən sonra belə məlumatlar vardı ki, qudası E.Mahmudovun ölkədən çıxışına qoyulan qadağa götürülüb. Hüquq-mühafizə orqanlarının E.Mahmudova münasibətdə bu addımı atmasının kökündə onun xaricə gedərək ofşorlarda gizlədilən pulların geriyə - ölkəyə qaytaracağının dayandığı bildirilirdi. Ötən müddət isə göstərdi ki, E.Mahmudovun, onun qudasının büdcəyə pul qaytarmaq fikirləri yoxdur. Bu C.Hacıyevin həbsdən vəkili vasitəsi ilə ictimailəşdirdiyi çıxışlarından da açıq-aydın sezilir.



Hazırda ABB-nin çöküşü təkcə Azərbaycanda deyil, dünyanın ən müxtəlif maliyyə mərkəzlərində, Londonda da aktiv şəkildə müzakirə edilməkdədir. Beynəlxalq investorlar böyük həyəcanla bankın və onunla bərabər investisiyalarının da batmasını izləməkdədirlər. Onlarla bərabər Londonda prosesləri izləyən, ABB-yə həyat yoldaşı vasitəsilə birbaşa aidiyyəti olan Zamirə Hacıyeva da var. Ötən ilin bu günlərində məlum olmuşdu ki, Zamirə Hacıyevanın barəsində məhkəmə həbs-qətimkan tədbirinin seçilməsi haqda qərar verib. Lakin Z.Hacıyeva qərardan əvvəl ölkədən gedə bilmişdi. Məhkəmə qərarından isə məlum olurdu ki, Z.Hacıyeva ABB-yə ərinin portmanatı kimi baxırmış və istədiyi vaxt istədiyi məbləğdə pulu bankdan çıxarıb xərcləyə bilirmiş.

Z.Hacıyevaya qarşı Cinayət Məcəlləsinin 179.1.2 və 179.1.3 maddələri ilə ittiham bu gün qüvvəsindədir. Qərardan belə anlaşılır ki, Z.Hacıyeva əri Cahangir Hacıyevin ABB-ni talamasında iştirak edib. Məhkəmə qərarına əsasən, Cahangir Hacıyevin təşkilatçılığı və göstərişi ilə 2009-cu ilin yanvarından 2015-ci ilin iyununa qədər bankdan 10 ədəd plastik kart vasitəsilə milyonlarla manatı faizsiz kredit adı altında heç bir zəruri sənəd və girov təqdim etmədən çıxarıblar. C.Hacıyevin həyat yoldaşı göstərilən müddət ərzində həmin plastik kartlarla Azərbaycan ərazisində və bir çox xarici ölkələrdə olan bankomatlardan Beynəlxalq Bankdan cəmi 13.5 milyon dollar, 2.8 milyon avro və 4 milyon manat (o vaxtkı məzənnə ilə cəmi 18 milyon manat) çıxarıb. Bu pullar C.Hacıyevin yoldaşı və ailə üzvləri üçün təyyarə biletlərinin, qızıl-zinət əşyalarının alınmasına, təhsil haqlarının ödənilməsinə, Avropanın dəbdəbəli istirahət mərkəzlərində dincəlməyə, gözəllik salonlarında göstərilən xidmətlərə, restoranlara və digər şəxsi məqsədlərə xərclənib. Bu faktlar bir daha göstərir ki, Cahangi Hacıyev və onun ailə üzvləri Beynəlxalq Banka dövlətə məxsus maliyyə təşkilatı kimi deyil, şəxsi pul kassaları kimi baxıb. Bu, uzun illər davam edib və nəzarətsizlik son nəticədə öz sözünü deyib. ABB batır, C.Hacıyev həbsdə yatır. Ölkə isə böyük bir maliyyə krizinin astanasındadır.

❑ E.MƏMMƏDƏLİYEV

# Beynəlxalq Bank düyünü - son gəlişmələr

**Səhmləri dövlətə məxsus olan "Azərbaycan Beynəlxalq Bankı" ASC (ABB) tezliklə özəlləşdiriləcək, lakin bu proses 2018-ci ildən tez baş verməyəcək". "Reuters"in məlumatına görə, bu fikirləri ABB-nin xarici öhdəliklərinin restrukturizasiyası ilə bağlı planı beynəlxalq kreditorlara təqdim etmək üçün Londonda səfərdə olan maliyyə naziri Samir Şərifov bildirib. Nazir qeyd edib ki, bank ilk növbədə balans göstəricilərini "sahmana salmalıdır": "Ancaq istənilən halda real olaraq özəlləşdirilmə prosesi 2018-ci ildən tez baş tutmayacaq".**

## Əkrəm Həsənov: "Prosesin uzanması yaxşı əlamət deyil və bankın müştərilərini və investorlarını qaçırdacaq"

Qeyd edək ki, ABB-də dövlətə məxsus səhmlər 91,3%-ə (Maliyyə Nazirliyi - 76,7%, Aqrarkredit - 14,6%) çatıb.

Bəs görəsən, ABB-nin özəlləşdirilməsi prosesinə qədər olan müddətdə nələr baş verəcək? Bankın 2018-ci ildən sonrakı borc öhdəlikləri kimin üzərinə düşəcək?

**Bu sualları cavablandıran iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** bildirdi ki, ABB-nin hazırda 1 mlrd. dollardan çox zərəri var və hökumət bu borcun bir hissəsini silmək istəyir: "Buna görə də hökumət onun cəmi borcundan bir hissəsini - 3,337 mlrd. dolları silmək istəyir. Məlum olduğu kimi, bu borcun 1 mlrd. dolları Neft Fonduna aiddir. Həmin borc, sadəcə, bağışlanılacaq. Yəni artıq Neft Fondunun həmin pulu batmış hesab olunur. Qalan 2,337 mlrd. borc isə xarici kreditorlaradır. Hökumət əvvəlcə dövlətin həmin borcu tam şəkildə öz üzərinə götürdüyünü açıqladı.

Lakin xarici kreditorlarla Londonda baş tutan 23 may tarixli görüşdən sonra həmin kreditorlar bəyan etdi ki, Azərbaycan tərəfi borcu tam üzərinə götürmür və müəyyən güzəştlər (məbləğdə, faiz dərəcəsində, müddətdə) istəyir. Ümumən hökumətimizin bu ardıcılsızlığı və lüzumsuz məxfiliyi üzücüdür və ölkəmizin nüfuzuna, kredit reytinqinə ciddi zərər vurdu, hələ bundan sonra da vuracaq".

**Əkrəm Həsənovun sözlərinə görə, ABB-ni iki mümkün aqibət gözləyir:** "İlk növbədə onu qeyd edək ki xarici kreditorlarla razılığa gəlmək mümkün olmasa, Beynəlxalq Bank müflis olacaq. Xarici kreditorlar razılığa gəlsələr və müəyyən güzəştlərlə ABB-nin 2,337 mlrd. dollar borcu silinsə, artıq bu borclar dövlətin öhdəsinə keçir. Bu halda 1 mlrd. dollardan çox zərəri olan ABB faktiki 3,337 mlrd. dollar əldə etmiş olur: 1 mlrd. dollar Neft Fondundan, üstəgəl, 2,337 mlrd. dollar xarici kreditorlara olan borcu bağışlanacaq. Deməli, bank 2 mlrd. dollardan çox mənfəətə çıxacaq".

**İqtisadçının sözlərinə görə, özəlləşdirmə ərəfəsində atılacaq ən mühüm addım elə bankı mənfəətə çıxarmaqdır:** "Çünki zərərlə işləyən bankı heç kəs almayacaq. Bundan sonra prinsipcə bank özəlləşdirilməyə hazırdır. Lakin təbii ki, bilmədiyimiz məqamlar da var. Böyük ehtimalla bankın hələ başqa daha kiçik problemləri də var və onların həlli müəyyən vaxt aparacaq. Yaxud ola bilsin ki, bankın müəyyən aktivləri yavaş-yavaş digər yerli banklara ötürüləcək. Maliyyə naziri də məhz buna görə deyib ki, bank ən yaxşı halda 2018-ci ildə özəlləşdiriləcək".

**Ə.Həsənovun fikrincə, yaxşı olardı ki, özəlləşmənin yubanması səbəbləri daha konkret açıqlansın:** "Əks halda, etimad tam sarsılacaq. Başqa bir risk də var ki, özəlləşməyədək əldə edilən 2 mlrd. dollardan çox mənfəət yox olub gedə bilər. Çünki bu bankın rəhbərlik baxımdan bəxti gətirmir. Hər gələn rəhbər onu bir az da viran qoyub gedir".

**İqtisadçı vurğuladı ki, hər bir halda özəlləşmədən sonra bankın öhdəlikləri sırf bankın öz üzərində olacaq:** "Onun yeni səhmdarları bankın öhdəliklərinə görə məsuliyyət daşımayacaq. Bu baxımdan da ABB-də uzunmüddətli vəsait saxlamağa risk edənlərin sayı azalır. İndi heç olmasa arxasında dövlət var, sabah nə olacağını isə heç kəs bilmir. Özəlləşdirmə zamanı hətta ola bilər ki, bankın əsas sahibi belə olmasın. Çünki onun dövlətə məxsus səhmləri (95,05%) satışa çıxarılanda hissə-hissə də alına bilər və nəticədə heç kəsdə 50%-dən çox pay olmaya da bilər. Ümumən bir daha təkrar edirəm: prosesin belə uzanacağı yaxşı əlamət deyil və bankın müştərilərini və investorlarını qaçırdacaq. Bir də görəcəyik yekunda heç özəlləşdirmə də olmadı. Bank müştərilərin itirilməsi nəticəsində kiçilib yerli bankların birinə qoşula da bilər".

❑ Nərgiz LİFTİYEVA

## Beynəlxalq Bankdan əmanətlərin çıxarılmasına məhdudiyyət yoxdur

**Azərbaycan Beynəlxalq Bankından əmanətlərin çıxarılması ilə bağlı heç bir məhdudiyyət və ya problem yoxdur. "Trend"in məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 2016-cı il dövlət büdcəsinin icrasının müzakirəsi zamanı maliyyə nazirinin müavini Azər Bayramov deyib.**

O qeyd edib ki, bank rəhbərliyi bu məsələ ilə bağlı kifayət qədər açıqlamalar verib: "İndi istənilən şəxs öz əmanətini bankdan götürə bilər. Amma hesab edirəm ki, bunun üçün heç bir səbəb və ya zərurət yoxdur, çünki borcun təkrar strukturlaşdırılması prosesi yalnız xarici kreditorlarla bağlıdır".

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

# Şeyxülislamın Ramazan qadağaları

## QMİ sədrinin Ramazan fətvası ilə birlikdə mollalara tövsiyə və yasaqlarının səbəbləri

**Xəbər verdiyimiz kimi, mayın 24-də Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayının başlanması ilə bağlı fətva verib. APA-nın məlumatına görə, fətvada Ramazan ayının 1-i Ayın görünməsi ilə miladi təqvimlə 27 may 2017-ci ilə təsadüf edəcək və bu tarixdən etibarən Ramazan ayının başlayacağı qeyd olunur.**

Hər il olduğu kimi, Qazılar Şurasının toplantısında QMİ sədri Allahşükür Paşazadə bir sıra məsələlərə toxunub. İlk növbədə də uzun illərdir mübahisə və müzakirə olunan məsələlərdən olan fərqli təqvim məsələsinə toxunulub. Fətvada hər il olduğu kimi, bu il də QMİ və Şamaxı Astrofizika Rəsədxanasının Azərbaycan ərazisi üfüqünə uyğun olaraq Ramazan ayının başlaması, namaz vaxtları, gündəlik duaları, eləcə də bayram tarixini müəyyən edib. QMİ din xadimlərini bu ortaq təqvimə əməl etməyə çağırıb, eyni zamanda müvafiq hökumət qurumlarını bu məsələdə köməyə çağırıb.



Bundan başqa, QMİ sədri axund və imamlara, digər din xadimlərinə çıxış və xütbələrində başqa ölkələrdə baş verən hadisələrdən danışmamağı tapşırıb. Şeyx din xadimlərinə istər mətbuata açıqlamalarda, istərsə də xütbələrdə Azərbaycandan başqa, digər ölkələrdəki hər hansı problem barədə danışmamaq tapşırığını verdiyini bildirib.

**O qeyd edib ki, bundan sonra din xadimləri bu məsələdə diqqətli olmalıdır:** "Tapşırmışam ki, ancaq Azərbaycanda baş verənlərlə bağlı danışsınlar, fikirlərini bildirsinlər, başqa ölkələrin işinə qarışmasınlar. Ümumiyyətlə, dindarlar özbaşına bəyanat verməsinlər".

Qeyd edək ki, bu açıqlamanın səbəbi Azərbaycanda bir sıra məscidlərdə xarici ölkələrdə baş verənlər, xüsusən də Yaxın Şərqdə yaşanan olaylara toxunulur, əksər hallada axund və imamlar ABŞ, İsrailin bölgədəki fəaliyyətləri bir çox hallarda kəskin şəkildə tənqid olunur. Görünür ki, bu barədə artıq müvafiq ölkələrdən Azərbaycan tərəfinə bildirilib. Digər tərəfdən, QMİ rəhbərliyi bu cür siyasi çağırışların son illərdə məzhəb ayrılığını daha da dərinləşdirəcəyindən narahatdır. Çünki bir qayda olaraq Yaxın Şərqdə son illərdə məzhəb üzərindən bölünmə dərinləşib və hər iki məzhəb üzərindən ciddi ittihamlar irəli sürülür. Şeyx bu cür qarşılıqlı ittihamların Azərbaycan məscidlərində yayılmasından narahatdır.

Eyni zamanda Şeyx Ramazan ayı boyunca din xadimlərinə çıxışlarında, xüsusilə axund və imamlara moizələrində məzhəb adı çəkməyi, sünni və şiə fərqləndirməsi etməyi yasaqlayıb. Hətta bunu edənlərin müvafiq orqanlar tərəfindən cəzalandırılacağını bildirib.

QMİ sədrinin ən çox mübahisə doğuran açıqlamalarından biri də mollaların Ramazan ayı boyunca məclislərdə iştirakına qadağa qoyması olub. Şeyx bildirib ki, heç bir müsəlman din xadimi Ramazan ayında iftardan əvvəl məclislərin iştirakçısı və təşkilatçısı olmamalıdır. Sitat: "Biz nümunə olmalıyıq. Siz də mənim nümayəndələrimsiniz. Ona görə belə məsələdə diqqətli olun. Əvvəldən deyirəm ki, biləsiniz, sonra məni tutduğunuz vəzifədən kənarlaşdırmaq barədə qərar verməK məcburiyyətində buraxmayın. Çünki əks halda, belə qərar verəcəyəm".

Xatırladaq ki, Şeyxülislam daha əvvəl də bu barədə din xadimlərinə xəbərdarlıq edib. Bu göstəriş daha çox dini hökmlərlə əlaqəlidir. Məsələ ondadır ki, Azərbaycanda din azadlığı olmasına və ölkə əhalisinin böyük qisminin müsəlman olmasına baxmayaraq, bəzən Ramazan günlərində yemək məclisləri təşkil olunur. Dini baxımdan istisnalar (səfərdə, xəstə olan və sair üzürlülər - K.R.) xaric, yemək məclislərinin təşkil olunması qadağandır. Xüsusən də belə məclislərin təşkil olunması və burda din xadimlərinin iştirakı paradoksaldır. Çünki bu məclislərdə həm də insanlara dini bilgilər verilməlidir.

Lakin məsələ ondadır ki, Azərbaycan cəmiyyətində bu qaydalara bir qayda olaraq az riayət olunur. İnsanlar əsasən toyları dayandırsalar da, yas mərasimləri keçirilir və təbii ki, əksər hallarda ehsan süfrələri açılır. Bu isə dini baxımdan yasaqdır. Ancaq Şeyxin bunu qadağa ilə nizamlamağa çalışması, din xadimlərini hədələməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Bir çoxları bunu dini tolerantlığa zidd addım olaraq görür, bu cür qərarların, məclislərin təşkilinin insanların özlərinin ixtiyarına verilməsinin daha doğru olduğunu, Şeyxin yasağının qanunsuz olduğunu düşünür. Ancaq qeyd etdiyimiz kimi, bu daha çox dini göstərişdir və QMİ sədri bunu dini qayda olaraq irəli sürür. Bu isə inananlar üçün məsuliyyət gətirir.

❑ **KƏNAN**

# "Şərq bazarı"nda "yarpaq tökümü"- mağazalar bağlanır

## Müştərisiz qalan ticarət mərkəzini satıcılar tərk edir












**Paytaxtın mərkəzində iri ticarət mərkəzlərinin tikilməsi nisbətən imkansız təbəqənin alış-veriş etdikləri ticarət obyektlərinin bazarını "öldürüb". Üstəlik, son dövrlər manatın ucuzlaşması, ölkədə yaranan iqtisadi durum da bu ticarət mərkəzlərinə təsirsiz ötüşməyib.**

Bu xüsusda Nərimanov rayonu ərazisində yerləşən "Şərq bazarı"nın da adını çəkmək olar. Ətrafındakı bütün köhnə tikililər plana düşsə də hələ ki "Şərq bazarı"nın sökülməsi gündəmdə deyil. Bu barədə bazarın satıcılarından məlumat aldıq. Satıcılar "Yeni Müsavat"a bildirdilər ki, bir ay ərzində bazarın yenidən təmir olunması gözlənilir. Lakin söküntü ilə bağlı hələ ki satıcılara heç bir xəbərdarlıq edilməyib. Onlar qeyd etdilər ki, artıq söküntü ilə bağlı xəbərlərə öyrəşiblər: "Ancaq buranın həqiqətən də təmirə ehtiyacı var. Bina tarixi binadır və getdikcə nəmişlikdən, istidən, soyuqdan yararsız vəziyyətə düşür. Yaxşı olar ki, təmir edən zaman bazarın havalandırma sisteminə də fikir versinlər. Çünki yay aylarında burada nəfəs almaq mümkün olmur. Bu, onsuz da zəif olan müştərilərimizə də təsir edir. Camaat yayda bura girmək istəmir. Söküntüyə gəlincə isə illərdir bazarın sökülləcəyi ilə bağlı məlumatlar dolaşsa da, bu, sadəcə, şayiə olaraq qalır. Biz öz işimizin başındayıq. Kim istəyirsə, yer götürüb, alverini edir. İstəməyən də mağazanı bağlayır, gedir", - deyə, söhbət etdiyimiz satıcılar bildirdilər.

Doğrudan da vəziyyət elə satıcıların söylədiyi kimidir. İşləmək istəməyən mağazanı bağlayır, gedir və görünən odur ki, son zamanlar gedənlərin sayı heç də az deyil. Bazarın arxa hissəsində yerləşən əksər mağazalar artıq fəaliyyət göstərmir. Bu hissəyə baxdıqda bazar sanki xarabalığı xatırladır. Qapısı bağlı mağazaların içərisindəki dağınıq vəziyyətdə olan manekenlər, karton qutulardan anlamaq olur ki, sahibləri buranı yeni tərk ediblər. Öyrəndik ki, həqiqətən də ticarət zəif olduğu üçün satıcılar son zamanlar bazardan getmək qərarını veriblər. Hazırda bazarın əsasən, ön hissəsinə yaxın mağazalar fəaliyyətdədir ki, bura da demək olar ki, müştərisiz qalıb. Piştaxtaların arası ilə gəzdiyimiz zaman heç bir müştəriyə rast gəlmədik. Satıcılar isə mövcud vəziyyətlə çoxdan barışmış kimi görünürdülər. Belə ki, onların da əksəriyyəti telefonu ilə oynayır və ya çölə çıxaraq hava alırdılar. Addımbaşı mağazaların üzərinə yazılmış "endirim" sözünə rast gəlsək də, bazarda 5 ildən çoxdur ki, alış-veriş yox səviyyəsindədir.

Satıcılardan götürdükləri yerin icarə haqqı barəsində də məlumat aldıq. Öyrəndik ki, burada icarə haqqı illərdir ki, dəyişməz olaraq qalır. Belə ki, burada yerin ölçüsünə görə icarə haqqı müxtəlifdir. Məsələn, kiçik piştaxta götürmək üçün 100 manat icarə haqqı ödəməlisən. Mağazaların isə icarə qiymətləri onun ərazisinə görə 200-300 manat arasında dəyişir.

Geyimlərə gəlincə isə məsələn, burada 10 manata şalvar, 5 manata isə köynək tapmaq mümkündür. Əgər bir qədər rəsmi geyim almağı düşünürsünüzsə, 50-110 manata kostyumların satıldığı mağazaya müraciət edə bilərsiniz.

Onu da qeyd edək ki, "Şərq bazarı" kimi tanınan ticarət mərkəzi özünün memarlıq üslubuna görə 2001-ci ildən Nazirlər Kabinetinin qərarı ilə tarixi abidələr siyahısına salınıb. Buranın bərpa və yenidənqurma məsələlərinə görə Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə müraciət olunmalıdır. Bina 1982-ci ildə memarlar - U.V.Revazov və P.İ.Yarinovskinin layihəsi əsasında tikilib. Bina iki mərhələdə tikilib və burada hər bir detal Şərq üslubunda quraşdırılıb. Lakin buna baxmayaraq, tarixi abidə olduğu bildirilən bina çox baxımsız vəziyyətdir. Sellofanlarla bürünmüş piştaxtaların əhatəsində olan bu bina kənardan baxanda heç bir abidəni xatırlatmır.

Bəlkə də buna görədir ki, beynəlxalq yarışlar ərəfəsində şəhərə axın edən turistlərdən bir nəfər də bu tarixi bazara üz tutmur. Bu faktı satıcılar da təsdiqlədilər.

❑ **Əli RAİS**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

**Azərbaycan insanını hər zaman "ətyeyən" adlandırırlar. Bir gün ət yeməyi yeməyəndə "başım ağrıyır", "qarnım doymadı" tipli şikayətləri səsləndirən və ət yeməklərinə xüsusi aludəçiliyi ilə seçilən insanımız barədə daha bir statistik məlumat isə bugünlərdə ortaya çıxdı. Məlum oldu ki, əslində ölkə əhalisi düşünüldüyü qədər çox ət yemirmiş. Bu göstərici hər adambaşına 32 kq-dır. Hətta bunu bir azərbaycanlı il boyu bir qoyun yeyir kimi də təhlil edənlər oldu.**

# Azərbaycanlılar ətyeyən deyilmiş...

## İlginc statistik nəticələr və ət yeməyin faydası-ziyanı barədə bilinməyənlər



Halbuki dünya insanı qida rasionuna görə iki hissəyə ayrılıb: ətyeyənlər və otyeyənlər. İkincilərin öz sağlam qidalanma tərzinə görə daha uzun yaşaması barədə fikirlər səsləndirilir. Bununla belə, məlum olur ki, azərbaycanlılar dünyada ət tükətiminə görə heç də ön sıralarda deyillər.

BMT-nin qida və ərzaq problemlərinə nəzarət edən aidiyyəti komissiyası dünya üzrə əhalisi ən çox və ən az ət yeyən ölkələri müəyyənləşdirib. İngiltərənin məşhur "The Telegraph" qəzetində yayılan məlumata görə, statistika aparan zaman bir il ərzində qəbul edilən ətin miqdarı müəyyən edilib. Alınan rəqəm isə ölkə əhalisinin sayına bölünüb. Ətdən ən az istifadə edən ölkələr Banqladeş, Hindistan və Şri-Lankadır. Burada kasıblıqdan da çox ölkələrin dini inancları, müxtəlif ayinlərə uyaraq, ətdən imtina əsas fakt kimi göstərilir. Adıçəkilən ölkələrdə hər sakin il ərzində maksimum 5 kq ət yeyir. Siyahının aşağı pillələrindəki növbəti ölkələr isə kasıb Afrika dövlətləridir. Ən çox ət yeyilən ölkə isə ABŞ-dır. Hər amerikalı il ərzində 120,2 kq. ət yeyir. İkinci yerdə isə kiçik ərəb dövləti olan Küveyt durur - ildə 119 kq. Ən çox qoyun və xırdabuynuzlu heyvanların saxlanıldığı Avstraliyada isə bu göstərici 116 kq-dır.

Ümumiyyətlə, gün ərzində orta hesabla ən azı 150 qram, ildə təxminən 60-65 kq ət və ət məhsullarının istehlak edilməsi fizioloji qida norması hesab edilir. Orqanizmdə maddələr mübadiləsi üçün ən zəruri olan elementlər ət xörəklərinin tərkibində hazır şəkildə olur. Ona görə də daha tez və asan mənimsənilərək, hüceyrələrdə enerji mənbəyinə çevrilir. BMT-nin açıqladığı statistikaya əsasən, dünyada ən çox ətyeyən ölkələr Luksemburq, Honq Konq və ABŞ-dır. Avropa, Latın Amerikası və Şimali Amerika qitələr arasında adambaşına ən çox ət yeyilən ərazilərdir. Afrika və Cənub-Şərqi Asiya adambaşına ən az ətin düşdüyü bölgələrdir. Qonşu Gürcüstanda bu rəqəm 31.2 , Ermənistanda isə 29 kiloqramdır. Türkiyədə bu rəqəm 21.2-dir.

Həkimlər isə bildirir ki, ümumiyyətlə, ət həftədə ən çox 0,5 kq qəbul edilməlidir. Bundan artığı çəkinin artmasına və sağlamlıqla bağlı problemlərə səbəb ola bilər. Əti qaynatmadan yemək çox təhlükəlidir. Hazırkı dövrdə əksər heyvanların ətində çox sayda təhlükəli mikrob və bakteriyalar olur ki, bunlar da kabab, dönər, kolbasa, qızartma kimi yeməklərlə orqanizmə keçir. Bunlardan 4-ü hətta qaynadıqda belə ölmür. Məhz bu üzdən, çiy küftənin dəbdə olduğu Türkiyədə xərçəng və digər xəstəliklər tüğyan edir.

Daha bir maraqlı məlumat. Ət insan mədəsində çox gec həzm olunur. Əgər meyvə-tərəvəz yarım saata, düyü 1 saata, yumurta və vələmir yarması 1 saat 20 dəqiqəyə, təzə süd 2 saata həzm olunursa, ət 5-6 saata həzm olunur. Məhz bu hal, yəni ətin mədədə həzmə getmədən çox qalması halı insanda yalançı toxluq ovqatı yaradır. Amma bu zaman qan damarları əziyyət çəkir. Mədəyə düşmüş yağlı ətin həzm olunması uzun müddət çəkir. Yoğun bağırsağa düşmüş ətin böyük hissəsi qana sorula bilmir və nəticədə uzun müddət orada qalaraq çürüyür. Bu isə bakteriyalar üçün zəngin ziyafət süfrəsidir. Bir çox təhlükəli xəstəliklər məhz bu prosesdən sonra qan vasitəsilə bütün bədənə yayılır.

Ətin tərkibində külli miqdarda müxtəlif ekstraktiv toksinlər, xolesterin və s. zərərli maddələr mövcuddur və onlar əsəb sisteminə çox pis təsir göstərir. Heç təsadüfi deyil ki, ət yeyən insanlar arasında nevrasteniya, cinsi pozğunluq, ürək, mədə və digər orqanların xəstəlikləri daha çox olur. Kababı sevənlər bilməlidirlər ki, ətin tərkibindəki parazit-yumurtalar insan orqanizmində qarşısı alınmaz fəsadlar əmələ gətirir.

Son illərdə aparılan araşdırmalar göstərir ki, alkoqolizm və siqaret çəkmədən sonra ölümün əsas səbəblərindən biri də ət məhsulları ilə qidalanmadır. Ət vasitəsilə insan bədəninə daxil olan xolesterin qan damarlarının divarlarında yığılaraq ürəyə qan axınını azaldır ki, bu da öz növbəsində yüksək qan təzyiqinə, ürək çatışmazlığına və insulta gətirib çıxarır. Araşdırmalara görə, ət məhsulları ilə daha çox qidalanan 25 ölkənin 20-də xərçənglə xəstələnmə faizi çox yüksəkdir. Eyni zamanda ətlə az qidalanan və ya ümumiyyətlə, ət yeməyən 35 ölkənin əhalisində xərçənglə xəstələnmə faizi çox aşağıdır.

Bəs ətdən necə imtina edək? Ümumiyyətlə, ətdən imtina edənlər çoxmu sağlam olur? Əslində bununla bağlı ortada bir-birindən fərqli araşdırma nəticələri var.

### Ət - insan orqanizmi üçün deyil

Alimlər sübut edib ki, vegetarianlar fiziki və mənəvi cəhətdən tam sağlam, sülhpərvər və şən olurlar. Güclü intellektə, uzun ömrə malik olan vegetarianlar hər cür xəstəliyin öhdəsindən gəlirlər. Çünki orqanizmə lazım olan çoxsaylı vitaminlər, zülallar, yağlar, minerallar, karbohidratlar və sair maddələr bitki mənşəli qidalarda daha zəngin tərkibdə olduğundan vegetarianların immunitet sistemi çox güclü olur. Bu gün dünyada idmançıların da bir hissəsi vegetarianlığa üstünlük verir.

Sağlamlıq və qidalanma üzrə nüfuzlu mütəxəssislərin çoxu bu qənaətdədir ki, sağlam qidalanmanın əsas şərti ilk növbədə ət və ət məhsullarından imtina etmək, yalnız bitki mənşəli təbii qidalardan istifadə etməkdir. Natural qidalanma, yəni qeyd olunan maddələrinin birbaşa ilk mənbədən - təbiətdən alınma prosesi sağlam həyat tərzinin əsas şərtidir.

Ümumiyyətlə, insanın mədə-bağırsaq sistemi - mədə şirəsinin tərkibi, bağırsağın uzunluğu, həmçinin dişlərin quruluşu və s. orqanları ətlə qidalanma üçün nəzərdə tutulmayıb. Bir sözlə, insan öz orqanizminin fizioloji və təbii tələblərini nəzərə almağa məcburdur. Son zamanlar həkimlər də etiraf edirlər ki, ürək-qan-damar, mədə-bağırsaq və xərçəng xəstəliklərinin törəməsi əsasən ətlə qidalanmanın nəticəsidir. Hazırda sübut olunub ki, vegetarian qidalanmaya keçəndən sonra ürək-qan-damar, mədə-bağırsaq və xərçəng xəstəliklərinin 97%-nin qarşısı alınır. Vegeterianlar arasında ürək-damar sistemi problemlərinə 30, xərçəng xəstəliyinə isə 40% daha az təsadüf olunur. Hipertoniyada bu qidalanma sistemini seçənlər üçün problem deyil.

Amma bura qədər yazdıqlarımızın əksini sübut edən araşdırmalar da var. Ətdən imtina insanların sağlamlığı üçün təhlükəli ola bilər. Ət beynin fəallığını artırır və ömrü uzadır. Bunu Oksford Universitetinin tədqiqatçıları bildiriblər. Onların sözlərinə görə, ət çatışmazlığı insan beyninin fəaliyyətinin pozulmasına gətirib çıxarır.

Alimlər sübut ediblər ki, yalnız bitki mənşəli qidaların istifadəsi beyin çəkisinin azalmasına gətirib çıxara bilər ki, bu da insan üçün təhlükəlidir. Məsələ ondadır ki, bitki mənşəli məhsulların qəbulundan bir müddət sonra orqanizmdə zülal defisiti başlayır. Beləliklə, bədəndə bütün qida balansı pozulur. Alimlər bildirirlər ki, bədənə mütləq ət, balıq və süd lazımdır. Bu qida məhsullarından imtina insanlarda V12 vitamininin çatışmazlığına səbəb olur.

**Və sonda... Gördüyümüz kimi, ortada bir-birindən təzadlı elmi nəticələr və həkim rəyləri var. Amma bununla belə, tədqiqatların böyük qismi ətin zərəri, tərəvəzin xeyri barədə nəticələr ortaya qoyublar. Necə deyərlər, hər şeyin normadan artığı və normadan əskik olanı ziyandır.**

❑ **Sevinc TELMANQIZI**

# Bir ailənin normal yaşaması üçün ayda 1500-2000 manat lazımdır



## Ekspert: "Rəsmi hesablamalarda 2 ilə bir ayaqqabı, 7 ilə bir palto düşür"

**Bir ailənin normal yaşaması, istirahət etməsi üçün ona müəyyən məbləğdə pul lazım olur. Təbii, normalda bu xərclər maaş, təqaüd hesabına ödənilir. Məhz orta aylıq əmək haqqı və təqaüdlər də əhalinin aylıq normal yaşaması üçün lazım olan məbləğə uyğun təyin edilir. Buna görədir ki, demək olar ki, bütün dünyada bir ailənin aylıq normal yaşayışını təmin etmək üçün nə qədər vəsait lazım olduğu rəsmi olaraq hesablanır. Məsələn, qonşu Türkiyə Araşdırma Mərkəzinin araşdırmasına görə, çalışan tək adamın yoxsulluq həddi 2 min 231 lirə 13 qəpik olaraq hesablanıb. 4 nəfərlik bir ailənin minimum dolanışıq həddi isə 4 min 546 lirə 26 qəpik olaraq təyin olunub.**

Azərbaycanda isə bu hesablamalar tam dəqiqliyi ilə aparılmır. Ümumiyyətlə, sosioloqlara görə, bir insanın xoşbəxt və qayğısız yaşaması üçün ildə 75 min dollar qazanması lazımdır. Bu isə ayda 6250 dollar edir ki, o da Azərbaycan reallığında mümkünsüzdür.

Maraqlıdır, ölkəmizdə bir ailənin normal yaşaması üçün aylıq nə qədər pul lazımdır?

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, Azərbaycanda orta aylıq əmək haqqı ilə bir ailənin necə dolandığını tapan iqtisadçı yəqin ki, Nobelə namizəd olar:** "Əgər rəsmi gəlirləri hesablasaq, Azərbaycan ailələrinin bu gəlirlərlə dolanması ehtimalı çox aşağıdır. Azərbaycanda belə hesablamalar təəssüf ki, aparılmır. Amma qonşu ölkələrdə belə hesablamalar var. Məsələn, Türkiyədə 4 nəfərlik bir ailənin aylıq yaşayış minimumunu hesablayıblar və bu, təqribən 4 min lirəyə yaxındır. Azərbaycan manatına çevirdikdə isə bu təqribən 2 min manata yaxın edir. Yəni 4 nəfərlik bir ailənin kommunal, məktəb, ərzaq, geyim, əyləncə xərcləri minimum səviyyədə pul xərcləmələrinin hamısını hesablasaq, təqribən bu qədər vəsait tələb olunur.

Bizim ərzaq rasionumuz çox aşağı hesablanır, geyimdə, ümumiyyətlə, hesablama aydın deyil. Rəsmi hesablamalarda 2 ilə bir ayaqqabı, 7 ilə bir palto hesablanır. Bu da sovetdən qalma bir yanaşmadır. Sovetdən sonra minimum tələblər dəyişməyib, amma dünya çox dəyişib. Dünyada olan proseslərlə və indikatorlarla Azərbaycanda hesablamalar aparılsa, 4 nəfərdən ibarət bir ailənin minimum bütün ehtiyaclarını ödəmək üçün təqribən 1500-2000 manat arasında bir vəsaitə ehtiyac yaranır. Başqa standartlar da var. Ailə heç olmasa, ayda 1-2 dəfə teatra, kinoya getməli, kitab almalı, internetdən istifadə etməlidir. Amma Azərbaycanda çox təəssüf ki, bunlar, ümumiyyətlə, nəzərə alınmır. Minimum rasion və minimum geyimlə hesablanır ki, bu da doğru yanaşma deyil. Ona görə də, dediyim kimi, Türkiyə örnəyini misal götürsək təqribən 1500-2000 manat civarında bir vəsaitə ehtiyac var ki, 4 nəfərlik bir ailə öz ehtiyaclarını tam şəkildə ödəyə bilsin".

**İqtisadçı ekspert ölkədə orta aylıq əmək haqqının hesablanması qaydasının da səhv olduğunu dedi:** "Ölkədə orta aylıq əmək haqqı təqribən 580 manat hesablanıb. Bu hesablamalar da, açığı, şübhə doğurur. Çünki hesablama qaydası Azərbaycanda səhvdir. Əslində isə Azərbaycanda ən çox işlək olan sahələri götürsək, məsələn, təhsil sahəsini, bu sahədə təqribən 300 mindən çox insan çalışır. Onların ortalama əmək haqqı 200 manat civarındadır. Bu hesablamalarda da ciddi problemlər var. Ona görə də bir daha təkrar edim ki, Azərbaycanda bu rəsmi gəlirlərlə əhalinin necə dolandığını tapan iqtisadçı çox güman ki, Nobelə namizəd olacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 112 (6726) 26 may 2017

# Bakıda mənzillərə verilən su niyə keyfiyyətsizdir?

## Ekspertlər əsas səbəbi və çıxış yolunu göstərdilər

**Paytaxt sakinlərini narahat edən məsələlərdən biri də mənzillərə paylanan suyun keyfiyyətidir. Əhali suyun keyfiyyətindən narahatdır. Beynəlxalq və yerli ekspertlərin apardıqları araşdırmadan da məlum olur ki, "Azərsu"dan mənzillərə paylanan su içməli su deyil, texniki suyun keyfiyyətinə bərabərdir.**



Bəs görəsən, suyun keyfiyyətsiz olmasının, çirklənmə dərəcəsinin yüksək olmasının səbəbi nədir? **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, rəhbərlik etdiyi qurum Bakıda mənzillərə verilən suyun keyfiyyətinə nəzarət edir: "4 il öncə IV Dünya Su Konqresinin iştirakçısı oldum. Orada su haqqında xeyli informasiya əldə etdim. Ondan sonra gəlib "Azərsu"da suyun saxlanması və ötürülməsi yerlərində monitorinq apardım. Bu qənaətə gəldim ki, "Azərsu" suyu müasir avadanlıqlarla kifayət qədər təmizlənir. Lakin su infrastrukturu o qədər köhnəlib ki, artıq su istehlakçıya çatana kimi çirklənir. İstehlakçılar da su resurslarından qətiyyən düzgün istifadə etmirlər. İstehlakçıların su -kanalizasiya xətlərinə heyvan cəmdəklərini, içalatını atması halları var. Nəticədə suyu dənizə buraxan filtrlər çox ciddi çirklənir. Əhalinin bu sahədə bilgiləri çox zəifdir. Borular partlayanda kənar sular, yağış suları da əsas suya qarışır. Bəzən bu istehlakçıların evlərinə də gedir". E. Hüseynov problemin əsas səbəbi kimi infrastruktur xətlərinin həddindən artıq köhnəldiyini əsas gətirdi.

**İqtisadçı ekspert Natiq Cəfərli də problemin paylayıcı borularda olduğuna diqqət çəkdi və illərdir hökumətin bu xətləri yeniləməməsindən danışdı:** "Son illərin ən böyük layihəsi, bəlkə də bölgədə ən böyük layihə Bakı-Oğuz -Qəbələ su layihəsi idi. Bu layihə həddindən artıq baha qiymətə, o vaxtkı məzənnə ilə təxminən 1 milyard dollara başa gəldi. 240 kilometrlik, heç bir nasos stansiyası olmayan, öz axarı ilə gələn bir boru xətti çəkildi, lakin çox böyük qiymətə rəsmiləşdirildi. Bu, Bakının su təchizatının kökündən dəyişməsinə və yaxşılaşmasına xidmət edəcək bir layihə idi. 1 saniyədə 5 kubmetrə qədər su buraxma qabiliyyətinə malik idi. Paytaxtın su problemi tamamilə həll edilə bilərdi. Sadəcə, bu boru çəkiləndən sonra supaylayıcı şəbəkələrin normal şəkildə fəaliyyət göstərməməsi, bir-birindən ayrılmaması nəticədə Oğuzdan gələn və keyfiyyətli sayılan suyun digər şəbəkələrdən daxil olan sularla qarışması ilə nəticələndi. Bu boru xətti çəkilmədən paylayıcı xətlər ayrılmalı idi ki, qarışıqlıq olmasın, keyfiyyət itkisinə yol verilməsin".

Ekspert vurğuladı ki, problemin həlli üçün "Azərsu"nun bütünlüklə və ya ayrı-ayrı rayonlar üzrə fəaliyyətinin özəlləşdirilməsinə ehtiyac var: "Bu günə qədər həm dövlət büdcəsindən, həm beynəlxalq fondlardan, o cümlədən Beynəlxalq Valyuta Fondundan, Dünya Bankından da Bakının su təchizatının yaxşılaşdırılmasına və kanalizasiya sisteminə çox böyük miqdarda vəsait ayrılıb, 1,5 milyard dollara yaxın vəsait son 20 ildə bu iki istiqamət üzrə ayrılıb. Dövlət büdcəsindən də hər zaman əlavə dotasiyalar və xərclər ayrılırdı. Bu günə qədər problemin öz həllini tapmamasının səbəblərindən biri bu qurumun düzgün idarə olunmamasıdır. Nə qədər ki, dövlət bütün sahələrdə nəzarəti öz əlində saxlamaq istəyir, bu sahələrdə effektiv idarəetmə alınmayacaq. Bakı şəhəri elə qurulub ki, paytaxt rayonlarının su təchizatı ayrı-ayrılıqda idarəetməyə verilə bilər. Yeni Yasamalın, Yeni Günəşlinin, bu istiqamətdəki bir çox qəsəbələrə su ana xətdən daxil olur, sonradan paylanır. Ən azından şəhər daxilində supaylayıcı şəbəkələrin uzunmüddətli icarəyə verilməsi və ya qismən özəlləşdirilməsi barədə qərar vermək lazım idi. Ancaq bu günə qədər bu baş vermir. Bu sahənin dövlətin nəzarəti altında fəaliyyət göstərməsinə üstünlük verilir. Bu, vergi borclarının yaranmasına da şərait yaradır. "Azərsu" dövlətə ən çox vergi borcu olan şirkətlərdən biridir. Bu şəkildə idarəetmə həm dövlət vəsaitlərinin səmərəsiz xərclənməsinə, həm də vətəndaşlara keyfiyyətli xidmətin təşkil olunmasında problemlərin artmasına gətirib çıxarır. Bu baxımdan, idarəetmədəki problemlər həll olunmadan texniki problemlərin həlli gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

# Dünyanın az işləyib çox maaş alan 10 ölkəsi

## Onların 9-u Qərb ölkəsidir...

**Tez-tez insanların aldıqları maaşdan razı qalmadıqlarının şahidi oluruq. Sorğu keçirsək, əksəriyyət işlədiyinin haqqının tam verilməməsindən, əməyinin düzgün qiymətləndirilməməsindən şikayətlənər. Ekspertlər də dəfələrlə Azərbaycanda iş saatının çox, əmək haqqının isə az olduğunu bildiriblər.**

Ancaq elə ölkələr var ki, orada az işləyib, çox pul alırlar. Bu ölkələrdə bir insan vergi və kommunal xərclər ödənildikdən sonra əldə qalan maaşla ürəyincə yaşaya, hətta səyahətə belə çıxa bilər. Belə ölkələrin ilk onluğunun sonunda (10-cu yerdə) Fransa gəlir. Fransa qibtə ediləcək iş şərtlərinə sahib olan bir ölkədir. 1999-cu ildə verilən bir qanuna görə, burada həftəlik iş saatı 35 saat olub. Yəni fransızlar çox qazanıb, az çalışırlar deyə bilərik. İllik orta əmək haqqı vergilər xaricində 28 min 799 dollardır. 9-cu yeri İsveç tutur. Əhəmiyyətli bir hissəsi ixracata dayanan İsveç iqtisadiyyatında xüsusilə mühəndislik sektorunun yüzdə 50-si ixracatda meydana gəlir. Bu ölkədə təhsil və səhiyyə xidmətləri tamamilə pulsuzdur. Əvəzində insanlar gəlirlərinin 42 faizini vergi vermək məcburiyyətindədirlər. Bütün bunlara baxmayaraq, İsveç ən yüksək maaş alan ölkələrdəndir. Bir isveçlinin orta illik gəliri 29 min 185 dollardır. 8-ci yerdə Kanada dayanır. Kanada Venesuela və Səudiyyə Ərəbistanından sonra dünyanın ən böyük neft ehtiyatına sahib ölkədir. Bundan başqa, ölkədə nikel, uran, alüminium kimi qiymətli mədənlər var. Bir kanadalı illik ortalama 29 min 365 dollar gəlirə sahibdir və bunun da 30 faizini vergi ödəyir. Belə verginin qarşılığında burada da təhsil və səhiyyə xidmətləri pulsuzdur. Kanadalılar həftədə yalnız 36 saat çalışırlar. 7-ci yeri Avstriya alır. Bu kiçik, tarixi və təbii gözəllikləri ilə məşhur olan ölkədə insanların yüzdə 49 nisbətində vergi ödədiklərini nəzərə alsaq, onların 31 min 173 dollar gəlirlərinin olması möhtəşəmdir. 6-cı yeri Almaniya alır. Almanlar gəlirlərinin tam yarısını vergi verirlər. Lakin ən köhnə beynəlxalq səhiyyə sisteminə sahib Almaniyada səhiyyə xidmətlərinin və təhsilin hər mərhələsi - bağça, məktəb, texnikum, universitet tamamilə pulsuzdur. Bir almanın illik gəlir ortalaması 31 min 252 dollardır. 5-ci yerdə Avstraliya qərar tutub. Xüsusilə yemək, neft və müxtəlif məhsulların ixracat məskəni olan Avstraliyanın rifahı çox yaxşıdır. Avstraliyada illik ortalama gəlir 31 min 588 dollardır və iş saatı 36 saatdır. 4-cü yerdə isə İsveçrə dayanır. İsveçrəni insan hüquqlarına, həyat keyfiyyətlərinə, iqtisadi artımına, təhsil səviyyəsinə görə ən ideal ölkə də adlandırmaq olar. İsveçrə sənayesi Avropada ən güclü sənaye hesab edilir. Əczaçılıq və musiqi ölkədəki güclü sektorlar arasındadır. İllik ortalama gəlir 33 min 491 dollardır və həftəlik iş müddəti 35 saatdır. Üçlüyə gəldikdə isə 3-cü yeri Norveç alır. Balıqçılıq, dağ-mədən, neft deyildiyində ilk ağla gələn ölkələrdən olan Norveç təbii qaynaqlarının zənginliyi ilə ən güclü ölkələr sırasındadır. Ölkədəki səhiyyə və təhsil sisteminin keyfiyyəti də çox yüksəkdir. Burada orta illik gəlir 33 min 492 dollar, iş müddəti isə həftədə 33 saatdır. 2-ci yeri Lüksenburq alır. Lüksemburqu Avropanın maliyyə mərkəzi adlandıra bilərik. Yüzdə 37 nisbətində vergi ödəyən ölkə vətəndaşlarının orta illik maaşları 38 min 951 dollardır. Və nəhayət, 1-ci yeri ABŞ tutur. ABŞ-ı heç bir müzakirəsiz dünyanın ən güclü ölkəsi adlandıra bilərik. Bir amerikalının orta illik gəliri 41 min 355 dollardır. Rəqəm hər nə qədər yüksək olsa da, dövlət səhiyyə xərclərini qarşılamır.

❑ **Günel MANAFLI**

## Elan

**Azərbaycan Respublikasının müharibə veteranı Əhmədov Natiq Baxış oğlunun adına olan veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**




# Ramazan ayının yaratdığı "mənəvi immunitet"

**Cümə söhbətləri**

**Bismilləhir-Rəhmənir-Rahim! Mübarək Ramazan ayının ərəfəsindəyik. Allah Təalanın inayəti ilə bu ayın qonağı olma imkanından bəhrələnmə fürsəti əmələ gəlmişdir.**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



Mübarək Ramazan ayını dərk etmək üçün duaların fövqəl əhəmiyyəti vardır. Bu duaların arasında İmam Museyi-Kazımdan (ə) gələn bir dua var. Bu duanın Ramazan ayının 1-də oxunması tövsiyə olunur. Duanın içində olan nöqtələr müxtəlif istiqamətlidir. Amma bir hissəsi vardır ki, hər birimizin halına, durumuna, vəziyyətinə xüsusi olaraq, çox fayda verə bilər.

## Birinci günü hansı dua ilə başlamaq?

**Duanın ümumi məzmunu, mübarək "Kumeyl" duasına da çox yaxındır. Hər ikisində ümumi və oxşar nöqtələr var. Duanın bağlanğıcında Allah Təalanın mübarək xüsusiyyətləri, sifətləri xatırlanaraq Rəbbdən istənilmələr gəlir. İmam Museyi-Kazımdan (ə) gələn duada belə bir məqama, mərhələyə çatılır ki, orada Allah Təalaya müraciət olunur:** "Allahım, bu mübarək ayının ilk günündə Səndən istəyimiz budur ki, nemətlərin dəyişməsinə səbəb olan günahlarımızı bağışlayasan". Yəni bəndə iqrar edir ki, nöqsanları, çatışmazlıqları var ki, bunlar Rəbbin bəndə üçün ayırdığı nemətlərin dəyişməsinə səbəb olub. Əməllərimiz Allah Təalanın ayırdığı nemətlərdən məhrum olmağa səbəb ola bilir. İndi mübarək Ramazan ayının birinci gününün qonağı ev yiyəsinə müraciət edir. Biz bir qonağıq və Rəbbimiz də ev yiyəsidir. Allahdan istəyirik ki, Onun bizlər üçün ayırdığı nemətlərin dəyişməsinə səbəb olmuş günahlarımızı bağışlasın.

Əziz Məsumlar (ə) mübarək Ramazan ayında bizlərə bu ayı necə başlamağı öyrədir. Bu gündə bağışlanma, tövbələrimizin qəbul olunma imkanı var. Növbənöv, müxtəlif günahlarımız var. Bu duada həmin günahlar xatırlanır və Allahdan onların bağışlanılması dilənir.

## Cəza və pis aqibətdən qurtulmaq

**Duanın sonrakı hissəsində Rəbbimizdən istəyirik:** "Allahım, bizlərin o günahlarını bağışla ki, onların səbəbindən bizlərə Sənin cəzan, günahlarımızın səbəb olduğu pis aqibətlər gələr". Yəni Allahım, biz iqrar edirik ki, bir nöqsanlar etmişik, səhvlər etmişik, onlar pis vəziyyətə düşməmizə səbəb olub. Səni and veririk böyüklüyünə ki, Ramazan ayının ilk günündə bizim pis aqibətimizə gətirib çıxaran günahlarımızı bağışlayasan.

**Duanın ardında gəlir:** "Allahım, bir günahlar etmişik ki, onlar ümidimizin qət olmasına, ümidsizləşməmizə səbəb olub". Bəndənin daxilində davamlı olaraq Allaha ümid olmalıdır. Çünki Allahın rəhməti o qədər genişdir ki, insan günah etsə də, İlahi rəhmət o günahı üstələyər. Təbii ki, əgər bəndə səmimi bağışlanma istəsə, səmimi tövbə etsə. Amma dualardan aydın olur ki, bəzi günahlar var, onlar bir nəticələrə gətirir ki, insan o günahları etdikdə, Allahın dərgahında ümidini itirmiş olur. Mübarək Ramazan ayının ilk günündə əziz İmamımızdan (ə) buyurulan bu duada bizlər Allahdan həmin günahlarımızın bağışlanmasını istəyirik. Yəni ümidli olmaq istəyirik. İstəyirik, ümidimsizləşməmizə səbəb olan amilləri aradan aparaq.

**Ardınca duada buyurulur:** "Allahım, düşmənlərimizi oyadan günahlarımızı bağışla". Bəli, bəzi günahlarımız var ki, onlar düşmənlərimizin güclənməsinə səbəb olub. Allahdan onların da bağışlanmasını istəyirik.

**Buyurulur:** "Allahım, bəzi günahlarımız var ki, onlar duanın rədd edilməsinə, duaların qaytarılmasına, duaların qəbul olunmamasına səbəb olur - onları bağışla". Bəzən biz istəyirik, amma qəbul olunmur, geri qayıdır, onlara diqqət yetirilmir. O cür olmasına səbəb bizlərin günahlarıdır. Allahım, Səndən istəyirik ki, dualarımızın qəbul olunmamasına səbəb olan günahlarımızı bağışlayasan. Allahım, əgər Sən bağışlamasan, bizlər bu ayda nə hala düşərik?! Mübarək Ramazan ayının oruclusu Allahdan ayın ilk günündə bunu da istəyir.

## "Onların bağışlanmasını diləyirik..."

**Duanın ardında qeyd olunur:** "Allahım, bəzi günahlarımız var ki, bizlərə bəlanın gəlməsinə səbəb olub, onları bağışla". Bir səbəblər var ki, üzərimizə bəla nəticələrini gətirər. Allahdan üzərimizə bəlanın enməsinə səbəb olan günahların bağışlanmasını istəyirik.

"Bəzi günahlarımız var ki, Allahın göyündə olan yağış rəhmətinin qarşısını alır. Onların bağışlanmasını diləyirik".

"Allahım, bəzi günahlarımız var ki, onlar bizim nöqsanlarımızın üzərində olan pərdənin aradan aparılmasına səbəb olar. Həmin günahlarımızın bağışlanmasını diləyirik". Allahım, Sən eyiblər örtənsən. Amma bəzən insan bir əməli edər ki, onlar pis işlərin üzərində olan pərdənin götürülməsinə səbəb olar. İnsanın abrı gedər. İnsan pis əməllər edəndə də, Sən qoymazsan onlar aşkara çıxa. Allahım, Ramazan ayının ilk günündə o günahlarımız üçün tövbə edirik.

"Allahım, bir günahlarımız var ki, onlar bizim məhvimizi surətləndirir. Allahım, səndən o günahlarımızın bağışlanmasını istəyirik".

**Ardınca duada buyurulur:** "Allahım, Səndən o günahlarımızın bağışlanmasını istəyirik ki, onlar peşmançılığımıza səbəb olub. Allahım, bizim günahlarımız var ki, ismət pərdəmizi yırtıb-dağıdıb, onların bağışlanmasını diləyirik". Duada keçən bu xətalar, bu günahlar üçün bağışlanma istəyir bəndə.

## Ramazan ayının verdiyi immunitet

Qurani-Kərimin mübarək "Bəqərə" surəsinin 183-cü ayəsində Rəbbimiz bizlər üçün İlahi ziyafətinə dəvətinin mahiyyətinə, içində olan çalarlara, o dəvətin fəlsəfəsinə toxunur.

Bizlər - həmin dəvəti qəbul edənlərik. Onun dəvətini qəbul edən - İlahi ziyafətin qonağıdır. O, dəvət edib və bizlərə də inayət edib ki, həmin dəvəti qəbul edə bilmişik. Ayədə buyurulur: "Ey iman gətirənlər, sizlərə (mübarək Ramazan ayında) oruc vacib qərar verildi, necə ki, sizdən öncəkilərə də vacib qərar verilmişdi. Ola bilsin ki, təqvalı olasınız". Yəni Rəbbimiz buyurur, ey mömin, ey möminə, mən səni bir İlahi ziyafətə dəvət edirəm. Bu İlahi qonaqlıqda bir nöqtələr var ki, əgər onlara riayət eləsən, nəticədə gəlib təqvaya çatmış olarsan.

Bu İlahi ziyafətdə ilin başqa vaxtlarında halal olan məsələlərdən də belə, özümüz iradəvi olaraq çəkinirik. İlin başqa vaxtı su içmək halaldır. Lakin biz gəlirik, İlahi ziyafətin qonağı kimi yay vaxtında sudan imtina edirik. Allah Təala deyir, gəl, Mənim qonağım ol, bu müddətdə görəcəksən ki, nə qədər güclüsən. Hətta o qədər güclüsən ki, iradən ola bilər Allahın halal buyurduqlarından imtina edərsən. Axı günün 17-18 saatında halallardan imtina edən, ilin başqa vaxtlarında haramlardan necə də rahatlıqla imtina edər!

Yəni Rəbbimiz bizə öyrədir ki, əgər bunu etsək, ilin on bir ayında insan kimi yaşamağı öyrənə bilərik, heyvaniyyətdən yuxarı qalxa bilərik. Axı heyvan nə görür - istəyir, nə verirlər - istəyir, əli çatmayanı da istəyir. Amma insan bir varlıqdır ki, əgər insaniyyətə çatsa, öz istəklərini nəzarətə ala bilər. Və söhbət tək maddi istəklərdən getmir. Söhbət bütün varlığımızın, vücudumuzun xüsusi duruma gəlməsindən gedir.

## "Məşğulluq" sindromu - iblisin (lən) proqramıdır

Mübarək Ramazan ayının orucu - tək sudan, yeməkdən imtinanın orucu deyil. Ramazan ayının orucu - gözlərin də orucudur. O gözlərin ki, şeytan (lən) ilboyu onlara cürbəcür təqdimatlar edir - televizorla təqdim edir, küçələrdə təqdim edir, evlərimizin içərilərinə girərək təqdim edir. Öncəki əsrlərdə insan heç olmasa evinin içərisində özünün müəyyən məqamda mühafizəsini qura bilirdi, amma indi öz əli ilə aldığı texnologiyalarla ona haram təqdimatlar edilir. O yerə çatır ki, bütün bunlar insan üçün adiləşir. Şeytan (lən) açıq-aşkar gəlib özünü təqdim etsə, insan onu qəbul etməz. Amma, açıq-aşkar gəlmir, dolayısı yollarla gəlir. Bir maraqlı kino olur, onun içərisində, onun fasilələrində, reklamlarında fəsad gəlir. İmanlı insan bunlara öyrəşməməlidir. İlin 11 ayı şeytan (lən) nə qədər bacarırsa, insanı o yana-bu yana çapdırır. Gözümüzə, qulağımıza öz məhsullarını verir, yedizdirir, doyuzdurur. Bundan əməlli gələn məhsullar nə olacaq?!

Bir çox hallarda deyirik ki, halımız yoxdur. Necə halımız olsun ki, bütün günü şeytanın (lən) təqdim etdiyi məhsulları qəbul edirik? Bunları qəbul edəndə, bizdən şeytan (lən) məhsulları əmələ gələcək. Qeybət edəcəyik, sui-zənn edəcəyik, namazda halımız olmayacaq, sileyh-rəhmə halımız olmayacaq, yaxşı işlərə vaxtımız olmayacaq. Vaxt necə çatdırasan ki, iblis (lən) bir vəziyyət yaradıb - sən hər an məşğulsan. "Məşğulluq" sindromu - iblisin (lən) effektiv proqramıdır. Hər şeyə o qədər əlvan rənglər verib ki, insanın permanent olaraq, "vaxtı yoxdur". İnsanın özünə ayırmağa vaxtı yoxdur. Mübarək Ramazan ayında şeytanın (lən) əli-qolu bağlanıb. Lakin bu aya qədər artıq şeytan (lən) öz işlərini də görüb.

## 11 ayın "hazırlıqları"ndan qurtulmaq

Öz məmləkətimizə bir nəzər salaq. Səhər, axşam, gecə, sübh - ğina, fəsad. Səhərdən axşamadək hər yerdən şeytanın (lən) təqdimatları üzərimizə gəlir. Küçələrdə gəlir, reklamlarda gəlir, digər insanlar vasitəsilə gəlir. Bu məmləkətə Ramazan ayı gəlir, lakin, küçələrdə çox az olur ki, "Ramazan ayınız mübarək", "Allahı xatırla!", "İlahi aya daxil oldun" şüarlarına rast gəlinsin. Amma, içkiyə, günaha, Allahı unutmaqlığa dəvət - harada baxırsansa, var. Televizorlar da elə o haldadır. Az qalır, mübarək Ramazan ayının özünə aid olan məsələləri də ğina formatında təqdim etsinlər. Şeytan (lən) burada da zirəklik edir. O, 11 ayda bir oyunlar çıxarıb ki, elədiyi hoqqaların təsiri zəncirli formada bir il boyunca toplumda öz əksini tapır. Hələ o lənətliyin əli-qolu bağlı olanda belə bir vəziyyətdir. Gör əli-qolu açıq olarsa, nə olar?! Ayın bitməsi ilə bağlı şeytan (lən) oyunlar yaradır. Toplumu, milləti çaşqınlıqda qoyurlar. Bunlar hamısı şeytanın (lən) vəsvəsəsidir. Bəzən şeytan (lən) adamı il ərzində o hala salır ki, Ramazan ayında heç oruc tutmağa tofiqatı olmur. Oruc tutmaq ləyaqət istəyir. Allahın lütfü olmalıdır ki, biz oruc tutaq.

## Günümüzün qeydiyyatını aparaq

Bu ayın içərisində insan ola bilməyimiz üçün fürsət var. İmkan var ki, bu aydan Allah bəndəsi kimi çıxaq. Müfəssirlər qeyd edirlər ki, bizim günah etməyimizin iki səbəbi var - qəzəb və şəhvət. Bizim bütün günahlarımızın kökündə bu iki amil dayanır. İnsan əksər hallarda pis işləri qəzəbdən görür - qışqırır, çığırır, qeybət edir, kin saxlayır, paxıllıq edir, sui-zənn edir və s. Bir də, şəhvət insanı tərpədir və o, günah etməyə başlayır - gözünü, qulağını nəzarətdən çıxardır. Şəhvət tək cinsəl anlamda deyil, ümumən nəfsin ardınca getmək anlamındadır. İnsan elə hey xülyalarla yaşayır. Ramazan ayında isə bu iki məsələni nəzarətə almaq üçün xüsusi imkanlar yaranır. Allah bizlər üçün bir fürsətli ab-hava yaradır ki, orada mənəvi məşq keçək, özümüzdə mənəvi hal düzəldək və güclənək. Əgər güclənəriksə, bu zaman özümüzü nəzarətə ala bilərik.

**Ayla bağlı bəzi xüsusi çalarlara da diqqət edək. Həzrət Əlidən (ə) nəql edilir:** "Bir gün Allahın Rəsulu (s) bizə xütbə söyləyən zaman buyurdu: "Ey insanlar, həqiqətən, bərəkət, rəhmət və bağışlanmaq ayı sizə doğru gəlməkdədir. Bu ay - Allahın yanında ən üstün ay, günləri - ən yaxşı günlər, saatları isə ən yaxşı saatlardır. Bu ayda siz Allahın qonaqlığına dəvət olunmusunuz və Allahın kəramətindən bəhrələnənlərin cərgəsində dayanmısınız. Bu ayda sizin nəfəsləriniz Allaha təsbih, yuxunuz ibadətdir, əməlləriniz qəbul, dualarınız müstəcəbdir".

**Əmirəlmömininin (ə) davamında buyurur:** "Mən qalxdım və ərz etdim: "Bu ayda ən yaxşı əməl nədir?" Allahın Peyğəmbəri (s) buyurdu: "Ey Əbəl-Həsən (ə), bu ayda ən yaxşı əməl - özünü Allahın haram etdiklərindən çəkindirməkdir"".

Biz getmirik Ramazan ayına doğru. Ramazan ayıdır ki, özünü tam sürətdə bizim varlığımıza daxil edir. Diri olsaq - istifadə edə biləcəyik, ölü olsaq - faydalana bilməyəcəyik. Ramazan ayı bütün nuraniyyətini üzərimizə salıb. Daxilimizi düzgün qura bilsək, o nuraniyyətdən tutub istifadə edə biləcəyik. Allah ayında Allah bəyəndiyi bəndə olacağıq.

Bu ayda haramlardan xüsusilə çəkinək. Baxaq həyatımıza, həyatımızı təftiş edək. Görək harasında, hansı küncündə, hansı məqamında, hansı çalarında günahlarımız var? Yeməyimiz necədir, içməyimiz necədir, baxdığımız nədir, dinlədiyimiz nədir? Ramazan ayı - haramdan çəkinmə ayıdır. Haram olan yerdə Ramazan ayı yoxdur. Allahla öz aramızda bu ayda bir qeydiyyat kitabçamız olsun. Qeydlər aparaq - bu gün mən nə etdim, neçə dəfə günah etmək istədim? Ramazan ayının içərisində olan əməllərdən istifadə edə bildimmi?

Ayın içərisində böyük nemətlər var - kim nə qədər yığa bilsə. Bizə böyük görsənən işlərimizi başqa vaxta saxlayaq. Bu ay - özümüzə aid olan bir aydır. Özümüzlə məşğul olmalı bir aydır.

## Ruzi bu ayda təyin olunur

Ruzi ilə bağlı da bir nöqtəyə toxunaq. Bəziləri elə bilir ki, insan ora-bura qaçanda ruzi əmələ gəlir. Dünya maraqlı bir təcrübə göstərir. Dünya təcrübəsi göstərir ki, dünyanın ən varlı insanları heç də bütün günü işləyən insanlar deyil. Allahdan uzaq olub, maddiyyat qazansan da, o, ruzi deyil. Ramazan ayı - ruzilər bölünən aydır. Bu ay - həm maddi, həm də mənəvi ruzilərin bölündüyü aydır. Bizim il boyu necə olacağımız indi müəyyənləşir.

**İmam Sadiq (ə) Ramazan ayının hilalını görən zaman öz övladlarına tövsiyə edərdi:** "Bu ayda öz canlarınızı zəhmətə və səyə vadar edin. Çünki bu ayda ruzilər bölünər, əcəllər yazılar və Allah dərgahına daxil olan qonaqların adları qeydə alınar. Bu ayda bir gecə vardır ki, o ayın əməli 1000 ayın xeyir əməllərindən yaxşıdır".

**Allahım, bizlərə günlərimizi təhlil etməyi nəsib et!**

**Allahım, bizlərə Ramazan ayını dərk etmək tofiqatını əta et!**

**Allahım, növbəti günümüzü bu günümüzdən yaxşı qərar ver. Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 112 (6726) 26 may 2017

# 23 il əvvəl alınan biletlə disneylanda getdi

Amerikanın Miçiqan ştatının sakini Disneylanda girmək üçün 23 il əvvəl valideynlərinin onun üçün aldığı biletdən istifadə edib. 1994-cü ildə ailə istirahətinin son günündə xəstələnən və bu səbəbdən də Disneylanda gedə bilməyən Çelsi Herlin həmin vaxtdan bəri istifadə edilməyən o bileti evində saxlayıb. Aradan 22 il keçəndən sonra Herlin bəxtini sınamaq üçün Disneylanda gedib. Lenta.ru saytının xəbərinə görə, Disneylandın işçiləri bileti qəbul ediblər və o, parka giriş imkanı qazanıb. Belə ki, biletin konkret olaraq son istifadə müddəti olmayıb və 27 yaşlı qadının o biletini yenisi ilə əvəz ediblər. Bundan sonra Herlin təklikdə onu maraqlandıran bütün attraksionlardan istifadə edib və orada təxminən 4 saat keçirib.



Disneyland Amerikanın Kaliforniya ştatında əyləncə mərkəzidir. Ona "Walt Disney - Walt Disney Parks and Resorts" şirkəti rəhbərlik edir. Disneyland Uolt Disneyin ilk tematik parklarından olub. 17 iyul 1955-ci ildə açılıb.



## Bir dəqiqədə bu qədər adam qucaqlamaq olar?

Hindistanın Andxra Prades ştatının sakini bir dəqiqə ərzində 79 nəfəri qucaqlamaqla dünya rekorduna imza atıb. Bu barədə Ginness World Records saytında məlumat yer alıb. Krişna Kumar adlı kişinin qabağına 88 nəfər şagirdi gəlib və növbə ilə ona yaxınlaşıblar. 60 saniyə ərzində kişi 83 nəfəri qucaqlaya bilib, amma "Ginnesin Rekordlar Kitabı"nın nümayəndələri qucaqlanan adamların cəmi 79-nu kitaba salıb. Bunu da onunla izah edib ki, qalanları qucaqlaşmadan daha çox əl vurub qaçmağa bənzəyirdi. Qucaqlaşma isə yaxın təmas və insanların əlləri ilə bir-birinin kürəyini sıxmasını əhatə edir. Kumar isə bildirib ki, "Ginnesin Rekordlar Kitabı"na düşməsini insan üçün yüksəliş hesab edib. Bundan öncə eyni səpkili rekorda 2014-cü ildə Avstraliyada imza atılıb. Onu teleaparıcı Kerri Bikmor edib. O, 60 saniyə ərzində yerli uşaq xəstəxanasında 77 nəfəri qucaqlayıb.

# Rəqəmsal qəbir yaratdılar

Dünyada ilk dəfə Sloveniyanın Maribor şəhərində rəqəmsal qəbir yaranıb. Bu barədə lenta.ru saytı "The Daily Mail" qəzetinə istinadən xəbər verir. Nəşrin yazdığına əsasən, qeyri-adi qəbir daşı 2000-ci ildə dünyasını dəyişmiş Yanez Mlakar adlı şəxsə məxsusdur. 48 düyməli ekranla təchiz olunmuş qəbir daşında mərhuma aid foto və videoları görmək mümkündür. Bu əşyanı hazırlayan kampaniya rəhbərinin sözlərinə görə, ekranda hətta bütöv bir roman da yer ala bilər. Əgər məzarın yanında heç kim yoxdursa, orada ancaq mərhumun ad-soyadı, dünyasını dəyişdiyi tarix görünür. Ziyarətçinin gəlişi ilə translyasiya başlanır. Belə sxem enerjini rasional şəkildə xərcləmək imkanı verir.

Bu layihə Maribor Universitetinin professoru Milan Zormana məxsusdur. Yeni icadın qiyməti 3 min avroya yaxındır. Kampaniya artıq bir neçə sifariş alıb. Amma bu cür məzar daşlarının ölkə xaricinə də satılıb-satılmadığı məlum deyil.




## Amerikalı məktəbli vannaya 1500 qaşıq yığdı

Amerikanın İllinoys ştatının sakini olan bir məktəbli oxuduğu məktəbin bufetindən oğurladığı 1500 ədəd plastik qaşığı vannaya doldurub. O, bu barədə şəkillərini twitterdəki mikrobloqunda yayımlayıb. Jayw1303 niki altında bu fotonu paylaşan gənc Lincoln-Way Central High School-da, yuxarı sinifdə təhsil alır. O, bu şəkli yükləyəndən sonra 77 min layk qazandı. Məktəbli bu fotonun izahatını belə verib ki, vannaya yığdığı qaşıqları bir il boyunca məktəbdən götürüb. "Mən xaosam. Mən qorxuyam. Mən qaşıq banditiyəm".

2016-cı ilin sentyabrında məlum oldu ki, Cemre Candar niki altındakı britaniyalı videoblogger daha ilginc bir video paylaşıb. O, vannanı acı çili sousu ilə doldurub. Youtube kanalında yayımlanan videoya nə az, nə çox 20 milyon nəfər baxıb.




**QOÇ** - Bütün enerjinizi qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəldin. Umu-küsüləri bir tərəfə atın. Çünki şəxsi işlərinizdə böyük dönüş yaxınlaşmaqdadır. Fəaliyyətlə bağlı səfərə çıxmaq olar.

**BUĞA** - Düşüncə və fikirlərinizin reallığa uyğun olmasını ulduzlar da təsdiqləyir. Bu səbəbdən də kənar məsləhətlərə o qədər də ehtiyacınız yoxdur. İmkan daxilində açıq havada az olmağa çalışın.

**ƏKİZLƏR** - Hazırda "hakim" bürc siz olduğunuz üçün enerjiniz xeyli artacaq. Odur ki, bu potensialı səmərəli istiqamətə yönəltməyə səy göstərin. İşgüzar sövdələşmələrə başlamağa dəyər.

**XƏRÇƏNG** - Havaların qeyri-sabitliyi, maqnit qasırğaları səhhətinizə mənfi təsir göstərə bilər. Bunu nəzərə alıb açıq havada çox durmayın. Bu gün istənilən ikitərəfli əməkdaşlığınız uğurla nəticələnəcək.

**ŞİR** - Mübahisəli gündür. Atmaca və böhtanlara əhəmiyyət verməyin. Əsas enerjinizi maliyyə məsələlərinə və peşənizlə məşğulluğa həsr edin. Sevdiyiniz adamın obyektiv fikrinə hörmətlə yanaşın.

**QIZ** - Saat 12-dən sonra maddi durumunuzu dirçəltmək üçün cəhdlər edin. Çox güman ki, bunun səmərəsi olacaq. Günün sonunda isə ürəyinizcə olan ünvanlara qonaq sifətilə baş çəkin.

**TƏRƏZİ** - Həmkarlarınızla davranışlarda nəzakətli olun. Çünki ulduzların düzümü bu gün çoxlarının sizdən incik düşəcəyini göstərir. Fəaliyyət zəminində isə böyük işlərə başlamağa dəyər.

**ƏQRƏB** - Maliyyə problemlərinizin qabarmasını istəmirsinizsə, bir az qənaətcil olun. Yaxşı olar ki, ciddi məbləğ tutan alış-verişə girişməyəsiniz. Əsas vaxtınızı sevgiyə həsr edin.

**OXATAN** - Hər mənada uğurlu gündür. Qarşıya qoyduğunuz vəzifələrin əksəriyyətini reallaşdıracaqsınız. Bunun üçün müttəfiqlərinizin köməyindən yararlanın. Bütün detalları saf-çürük edin.

**OĞLAQ** - Saat 14-16 arası gərginliklə üzləşə bilərsiniz. Bunun qarşısını alsanız, qalan müddətdə heç bir probleminiz olmayacaq. İşgüzar görüşləri təxirə salmayın. Sevindirici xəbər eşidəcəksiniz.

**SUTÖKƏN** - Çox məsuliyyətli gündür. Nəzərdə tutduqlarınızın hamısını reallaşdırmağa çalışın. Yersiz risklərə, bələd olmadığınız adamlarla əməkdaşlığa razılıq verməyin. Səhhətinizi qoruyun.

**BALIQLAR** - Öhdənizə düşən və əksəriyyəti yarımçıq qalan işlərinizi yekunlaşdırmağa çalışın. Heç kimə yalan vəd verməyin. Bu, nüfuzunuza xələl gətirə bilər. Yeni təkliflərə razılıq verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İrlandiyada pişikləri qucaqlama ştatı açılıb



İrlandiyanın Dublin şəhərindəki veterinar klinikalarından birində pişikləri qucaqlamaq üçün işçi elanı verilib. Həmin klinikaya xəstə pişikləri gətirirlər. Bu elan klinikanın rəsmi saytında yer alıb. Veterinar Cast Kat pişikləri çox sevən, evsiz pişikləri bəsləməkdən, onlarla vaxt keçirməkdən zövq alan insanları işə dəvət edib. Müəssisədə ancaq pişiklərlə işləyirlər. İşə girmək istəyən namizədin həssas əlləri, yumşaq səsi, həyəcanlanmış pasienti sakitləşdirmək qabiliyyəti olmalıdır. Eyni zamanda Cast Kat bildirib ki, bu işdə çalışmaq istəyənlərin veterinar təhsili mütləq olmalıdır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100